# Gürcüstanda “Maydan” ssenarisi iflasa uğradı



**Gürcüstanda hökumətin Avropa İttifaqı ilə danışıqları 2028-ci ilə qədər dayandırmaq barədəki qərarından sonra ölkədə baş qaldıran etiraz aksiyaları davam etməkdədir. Təbii ki, aksiyaların geniş miqyas alması birbaşa xarici təsirlərlə sıx bağlıdır. Bu barədə gürcü liderlərinin bəyanatlarında da açıq-aşkar fikirlər səslənir.**

Ölkəni Avrointeqrasiya yolundan döndərmək ittiham edən Qərb əslində özlərinin üzdəniraq tələbləri ilə gürcü xalqının milli kimliyi və qürurunu, tarixini və min illərlə formalaşmış adət-ənənələrini arxa plana keçirmək və bunların əvəzinə, bu xalq üçün tamamilə yad olan LGBT və ifrat sağçı qüvvələri ön plana çıxarmaq istəyirlər.

Bunu başa düşən Gürcüstan hökuməti isə ölkəni və xalqı gözlənilən bəlalardan xilas etməyə çalışır. Təəssüf ki, hakimiyyəti nə yolla olur-olsun ələ keçirməyə can atan müxalif qüvvələr, eləcə də maliyyəsi ilə gürcü dövləti və QHT içərisində özünə dayaqlar qurmuş Qərb inadını yeritməkdə davam edir. Məhz bunun nəticəsidir ki, artıq beş gündən bəri səngimək bilməyən və ölkə prezidenti tərəfindən də dəstəklənən etirazlar vətəndaş müharibəsi həddinə çatıb. Bu isə etirazçı qüvvələri qəti narahat etmir.

**(ardı 4-cü səhifədə)**

## 5 Dekabr Qərbi Azərbaycanlıların Deportasiyasının Anım Günüdür

**Bu gün Bakıda Qərbi Azərbaycan İcmasının “Qayıdış hüququ – Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təşviqi” mövzusunda II beynəlxalq konfransı açılır.**

Son 2 əsrdə Qərbi Azərbaycanda soydaşlarımızın başlarına gətirilən faciələri və onların indiki nəslinin qayıdış hüququnu beynəlxalq aləmin diqqətinə çatdıran 2 günlük məclisə 51 ölkədən 100-dən çox xarici iştirakçı dəvət edilib.

XQ


Xalq qəzeti

Xalqın qəzeti!

№ 268 (30672) 5 dekabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Qərbi Azərbaycana Qayıdış soydaşlarımızın əzəli hüququdur



**Yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin prioritetləri sırasında Qərbi Azərbaycan məsələsi xüsusi yer tutur. Bu, Azərbaycanın müstəqil dövlətçiliyi baxımından təbii, normal və zəruri hadisədir.**

Prezident İlham Əliyev dəfələrlə müxtəlif kontekstlərdə azərbaycanlıların Qərbi Azərbaycan məsələsində əsaslı olaraq çox həssas olduqlarını və bunun dövlətçilik üçün strateji mahiyyət kəsb etdiyini ifadə edib.

Azərbaycan Prezidentinin Qərbi Azərbaycan strategiyası dərin düşünülmüş, tarixi, siyasi, geosiyasi, hüquqi, iqtisadi, mədəni, ideoloji və dövlətçilik məqamlarını sistemli şəkildə nəzərə alan yetkin konsepsiyaya əsaslanır. Burada Azərbaycan rəhbərliyi konkret tarixi faktlara söykənən məntiqi yanaşmanı həyata keçirir. Həmin yanaşmanın iki aspekti mövcuddur.

**(ardı 10-cu səhifədə)**

# Tacikistan Prezidenti COP29-un uğurlarını yüksək dəyərləndirib

**Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Telefon söhbəti zamanı Prezident Emoməli Rəhmon COP29-un uğurlu təşkilinə görə təbriklərini çatdırıb və onun nəticələrinin qlobal iqlim gündəliyinin irəli aparılması baxımından vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib, Emoməli Rəhmonun COP29-un Liderlər Sammitində iştirakını və bütövlükdə Tacikistan nümayəndə heyətinin müzakirələrə fəal töhfə verdiyini məmnuniyyətlə qeyd edib.

Telefon söhbəti zamanı ikitərəfli gündəliyə aid olan aktual məsələlər, həmçinin Tacikistanın MDB-də qarşıdan gələn sədrliyi çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

# Ucuz populizm

## *Yaxud erməni dövlətçiliyinin perspektivi ilə bağlı nağıl məntiqi*



**Yazımıza nə üçün bu başlığı seçdiyimizi sonda biləcəksiniz. İpucu baxımından onu bildirək ki, Ermənistanın baş naziri Nikol Paşinyanın, demək olar, bütün çıxışları ölkəsində hay-küy doğurur. Onun dediklərindən narazılar sıraya düzülüb Nikol əleyhinə hədyanlar yağdırırlar. Ancaq bu durumda ilahi ədalət payı var. Diqqətə çatdıracağımız ayrı-ayrı məqamlardan da belə qənaətə gəlmək mümkündür.**

Yəqin çoxları N.Paşinyanın müəlliminin Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan olmasından xəbərdardır. Əlbəttə, burada söhbət klassik müəllim-tələbə, yaxud müəllim-şagird münasibətlərindən getmir. Sadəcə, Nikol birinci prezidentin ideya və baxışlarının davamçısı obrazındadır. Ancaq Paşinyan pis tələbə və ya pis şagirddir. Fikrimizi onun ölkə parlamentində 2025-ci il dövlət büdcəsinin müzakirəsi zamanı irəli sürdüyü bəzi nüanslar kontekstində izah edəcəyik. Hələlik isə Ter-Petrosyanın vaxtilə bildirdiklərinə nəzər salaq.

Beləliklə, Ermənistanın birinci prezidenti 1996-cı ildə Milli Assambleyada çıxışı zamanı erməni dövlətinin qarşısında duran məsələlərdən söz açmış və iki vacib məqam üzərində dayanmışdı: “Birincisi, Dağlıq Qarabağ problemi, ikincisi, iki qonşumuzla münasibətlərin yoluna qoyulması. Mən Türkiyə və Azərbaycanı nəzərdə tuturam. Ona görə ki, dərin qənaətimə görə, bu münasibətlər qaydasına salınmayınca Ermənistanın müstəqil dövlət kimi mövcudiyyəti həmişə sual altında qalacaq”.

**(ardı 4-cü səhifədə)**

# COP29 prezidenti COP16 konfransında



**COP29-un “X” sosial şəbəkəsindəki hesabında verilən paylaşımda Ekologiya və təbii sərvətlər naziri, COP29 prezidenti Muxtar Babayevin COP16 prezidenti Abdel Rəhman Əl-Fadli, eləcə də Səudiyyə Ərəbistanının xarici işlər naziri və iqlim üzrə elçisi Adel Əl-Cubeyr ilə iqlim maliyyələşdirilməsini müzakirə etdiyi bildirilib.**

Xatırladaq ki, COP29 prezidentinin bu görüşü Ər-Riyadda keçirilən BMT-nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasının 16-cı Tərəflər Konfransı (COP16) çərçivəsində keçirilib. Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev səhralaşmaya qarşı mübarizə üzrə COP16 çərçivəsində keçirilən Maliyyələşmə üzrə Nazirlər Dialoqunda isə COP29 çərçivəsində torpaqların deqredasiyası, səhralaşma və quraqlıq problemlərinin həlli ilə bağlı mühüm irəliləyiş əldə olunduğunu vurğulayıb.

**(ardı 8-ci səhifədə)**

# “Şimal–Cənub” marşrutunda yaşıl işartı

## *Bu transmilli daşımaları ləngidən Tehrandır*



**“Şimal–Cənub” beynəlxalq nəqliyyat marşrutunun orta və uzunmüddətli perspektiv üçün inkişafı strategiyası tam başa çatdırılmayıb. Bu transmilli marşrutun bütün seqmentlərinin birləşdirilməsi və yük daşımalarının paylanması, əsasən, Rusiya ərazisində həyata keçiriləcək. Bu amili nəzərə alaraq, yerli dəmir yolu şəbəkəsində yenilənmə və modernləşmə kimi işlərin aparılmasına ehtiyac duyulur.**

Yüklərin Azərbaycan ərazisindən tranziti üçün xüsusilə vacib sayılan Dərbənd dəmir yolu keçid məntəqəsinin təkmilləşdirilməsi, eləcə də Samur II sərhəd stansiyasının tikintisi (2030-cu ilə qədər həyata keçirilməsi planlaşdırılır) kimi məsələlər öz həllini tapmalıdır. 2023-cü ilin statistikasına nəzər yetirək: Rusiya–Azərbaycan Samur–Yalama keçidindən 8 milyon ton yük, o cümlədən 43 min konteyner daşınıb. İrəlidə bu həcmin dəfələrlə artırılması perspektivi var. Deyəsən, Rusiya ona böyük gəlirlər vəd edən “Şimal–Cənub” beynəlxalq nəqliyyat marşrutunun işə salınması üçün qollarını çırmayıb.

**(ardı 5-ci səhifədə)**

# Azərbaycan futbolunun yönü hayanadır?



Səhifə ⇨ 14

# Prezident İlham Əliyev Türkiyənin sabiq xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edib.**

Mövlud Çavuşoğlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Mövlud Çavuşoğluna Qərbi Azərbaycan İcmasının Bakıda keçirəcəyi Beynəlxalq Konfransda iştirakına görə minnətdarlığını bildirərək, bu tədbirin əhəmiyyətinə toxundu.

Mövlud Çavuşoğlu da öz növbəsində bu konfransın önəmini vurğuladı və tədbirə dəvətə görə minnətdarlığını bildirdi.

O, Azərbaycanda bu il keçirilmiş parlament seçkilərində Yeni Azərbaycan Partiyasının qələbəsi münasibətilə təbriklərini çatdırdı. Eyni zamanda Azərbaycanın ev sahibliyi etdiyi COP29-un çox yüksək səviyyədə təşkil olunması ilə bağlı Prezident İlham Əliyevi təbrik edən Mövlud Çavuşoğlu bu tədbiri tarixi zirvə toplantısı kimi qiymətləndirərək, burada qəbul edilmiş qərarların böyük önəm daşıdığını vurğuladı.

Dövlətimizin başçısı da COP29-un yüksək səviyyədə təşkil olunduğunu və əhəmiyyətini qeyd edərək, Türkiyə Prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin həmin tədbirdə iştirakını bir daha yüksək qiymətləndirdi və bunun COP29-un önəminin daha da artırılması işinə töhfə verdiyini bildirdi. Prezident İlham Əliyev xeyli sayda dövlət və hökumət başçısının, qonaqların tədbirdə iştirakına toxundu və konfransın qərarların qəbul edilməsi baxımından çox uğurlu olduğunu, COP29-un Azərbaycanın potensialını və liderlik qabiliyyətini bir daha bütün dünyaya nümayiş etdirdiyini vurğuladı. Dövlətimizin başçısı bunun Türk dünyasının da növbəti bir uğuru olduğunu dedi.

Görüşdə ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi bildirilərək, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

***AZƏRTAC***

# Sahibə Qafarovanın Mövlud Çavuşoğlu ilə görüşü

**Milli Məclisin sədri Sahibə Qafarova Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin üzvü və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu ilə görüşüb.**

Görüşdə dost və qardaş ölkələrimiz, o cümlədən qanunverici orqanlarımız arasında münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluq ifadə edilib. Qeyd olunub ki, Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarına əsaslanan və bütün sahələri əhatə edən münasibətlərimiz dövlət başçılarımızın siyasi iradəsi və birgə səyləri sayəsində bu gün özünün ən yüksək səviyyəsinə yüksəlib.

Tərəflər yüksəksəviyyəli əməkdaşlıq əlaqələrinin parlamentlər müstəvisində də inkişaf etdirildiyini diqqətə çatdırıblar.

Mövlud Çavuşoğlu Azərbaycanda növbədənkənar parlament seçkilərinin uğurla keçirilməsi və yenidən Milli Məclisin sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik edib.



Söhbət zamanı Azərbaycanın ev sahibliyi ilə COP29-un çox yüksək səviyyədə təşkil olunması ilə bağlı da fikirlər səsləndirilib. Bu tarixi zirvə toplantısının ölkəmizin qlobal proseslərə növbəti töhfəsi kimi dəyərləndirilib.

Görüşdə, həmçinin regionda mövcud olan vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb. Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ – Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təşviqi" mövzusunda beynəlxalq konfransının əhəmiyyəti barədə fikirlər səsləndirilib.

**XQ**

# Aİ-nin ali nümayəndəsi XİN-də



**Dekabrın 4-də xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 31-ci iclasında iştirakı çərçivəsində Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə görüşüb.**

Görüşdə Azərbaycan və Aİ münasibətlərinin hazırkı durumu, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar, habelə ətraf mühitin qorunması istiqamətində əməkdaşlıq imkanları, regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol diqqətə çatdırılıb. Ölkəmizin COP29 Sədrliyi çərçivəsində xüsusilə maliyyə hədəflərinin artırılması daxil olmaqla, iqlim dəyişmələri ilə mübarizə sahəsində dönüş yarada biləcək tarixi razılıqların, eləcə də yaşıl enerji sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bu fəaliyyətə maneə törədən mina təhdidi, habelə Azərbaycanın Ermənistanla normallaşma gündəliyi barədə məlumatlandırıb. Ermənistanın ölkəmizə qarşı davam edən ərazi iddialarının sülh prosesinə maneə təşkil etdiyi qeyd olunub.

Avropa İttifaqının Ermənistandakı Missiyasının fəaliyyətinə toxunan Ceyhun Bayramov sözügedən Missiyanın bəyan edilmiş məqsədlərinə zidd olaraq ölkəmiz əleyhinə təbliğat kampaniyasının alətinə çevrilməsinin narahatlıq doğurduğunu diqqətə çatdırıb.

**XQ**

# "Heydər Əliyev: Müstəqilliyimiz əbədidir" təkrar nəşrinin 2-ci kitabı

**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 2-ci kitabı çapdan çıxıb.**




Çoxcildliyin 2-ci kitabına ulu öndər Heydər Əliyevin 1993-cü il noyabrın 2-dən 1994-cü il martın 9-dək keçirdiyi görüşlərə dair materiallar, çıxış və nitqlərinin, xalqa müraciətlərinin, bəyanatlarının mətnləri, müsahibələri, məktubları daxil edilib. O zaman Azərbaycan dövlət müstəqilliyini yenicə bərpa etmişdi və Ermənistanla müharibə şəraitində idi. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı 1993-cü il noyabrın 2-də ulu öndər Heydər Əliyev milli televiziya və radio ilə xalqa müraciət edib, ordu yaradılmasının vacibliyini vurğulayıb: "İndi bizim ordumuz yaranmalı və qurulmalıdır. Bir də qeyd edirəm, ordumuz ancaq Azərbaycanı müdafiə etmək məqsədi daşıyır. İşğalçılıq məqsədi daşımır. Bizim işimiz haqq işidir, gərək hər bir vətəndaş bunu özünün şərəfli borcu kimi qəbul etsin. Kim özü orduda qulluq edə bilirsə, qoy könüllü surətdə getsin. Kim özü qulluq edə bilmirsə, yanındakıları başa salsın ki, gedib orduda xidmət etmək lazımdır. Yaxud əgər özü orduda qulluq edə bilmirsə, fikirləşsin ki, orduya necə kömək etmək lazımdır. İndi bunların hamısı ən zəruri vəzifələrdir. Bütün xalqa, Azərbaycan vətəndaşlarına müraciət edirəm ki, bu tədbirlərin həyata keçirilməsində fəal iştirak etsinlər". Oxucular müraciətin tam mətni ilə çoxcildliyin bu kitabında tanış ola bilərlər.

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın xarici siyasətində sülhsevərliyi başlıca prinsip kimi müəyyən etmişdi. Dövlətlərarası münasibətə gəldikdə isə, Türkiyə ilə əməkdaşlığı xüsusilə diqqətdə saxlayır, eləcə də digər dövlətlərlə sıx əlaqələr qurulmasına önəm verirdi. 1994-cü il fevralın 9-da Türkiyədə səfərdə olduğu zaman Ankarada Hacəttəpə Universitetinin fəxri doktoru diplomunun təqdim olunması mərasimində çıxış edən ulu öndər Heydər Əliyev Azərbaycanın xarici siyasəti ilə bağlı da fikirlərini söyləmişdi: "Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir. Ölkəmiz bütün dövlətlərlə sülh və əmin-amanlıq əlaqələri yaratmaq istəyir. Azərbaycan dövləti öz xarici siyasətini məhz bu istiqamətdə yeridəcəkdir. Buna görə də Azərbaycan qonşu dövlətlərlə daha sıx əlaqələr yaratmağı xüsusilə önəmli hesab edir. Lakin burada bizim Türkiyə ilə əlaqələrimiz xüsusi yer tutur. Çünki Türkiyə ilə Azərbaycanın birgə tarixi keçmişi var. Xalqlarımız bir kökdəndir. Bizim mədəniyyətimiz də, tariximiz də, ənənələrimiz də birdir, dilimiz, dinimiz də birdir. Bütün bunlar əsrlər boyu bizi birləşdirmişdir".

Çoxcildliyin 2-ci kitabında yer alan materiallar oxucularda, tədqiqatçılarda, politoloqlarda dövrün ictimai-siyasi prosesləri haqqında geniş təsəvvür yaradır.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur. Çoxcildlik "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli sərəncamından irəli gələn vəzifələrin icrası çərçivəsində təkrar nəşr edilir.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# Vilayət Eyvazov Balakəndə vətəndaşlarla görüşüb və sıra baxışı keçirib



**Prezident İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov dekabr ayının 3-də və 4-də Balakən Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**



Nazir əvvəlcə ümummilli lider Heydər Əliyevin rayondakı abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Balakən Rayon Polis Şöbəsinin inzibati binasında Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ şəhər və rayonlarından qəbula gələn 194 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb. Nazir qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Zaqatalada yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb. Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. Vətən müharibəsinin 34 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 198 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**XQ**

# Qurtuluşdan Tərəqqiyə

**2003-cü ilin dekabrını heç vaxt unutmayacağam. O vaxt 7 yaşım vardı. Yadımdadır, ağ-qara televizorumuz günün müəyyən saatlarında göstərirdi. Atam AzTV-nin xəbərlərini heç vaxt diqqətindən qaçırmazdı. Həmin il dekabrın 12-də həmişəki kimi "Xəbərlər" proqramını diqqətlə izləyərkən nədənsə "səs salmayın, çıxın çöldə oynayın" demirdi. O, bütün günü gözlərini televiziyanın ağ-qara ekranından çəkmir, ətrafındakı səs-küyə məhəl belə qoymurdu. Hətta qonşumuzun haray-həşir salan, oyuncaqlara görə dalaşan uşaqlarını da sanki görmür, eşitmirdi. Onun ekrana dirənən baxışlarını, gözlərindən axan yaşları indiyədək unutmamışam. Kim nə yazırsa-yazsın, nə deyirsə-desin, nə düşünürsə- düşünsün – 7 yaşlı uşaq həmin gün dünyasını dəyişdiyi elan olunan ulu öndər Heydər Əliyev böyüklüyünü, Heydər Əliyev sevgisini, Heydər Əliyev həsrətini ilk dəfə məhz atasının gözlərindən axan yaşdan, məsum və titrək baxışlarından hiss etdi.**



İnsan yaddaşı eşitməkdən daha çox gördüklərini qavraya bilir. Sonralar daha yaxşı dərk etdim ki, ailədə, hələ uşaq ikən formalaşan dəyər, verilən tərbiyə, öyüd-nəsihətlər ağ vərəqə həkk olunan yazı kimi yaddaşın dərinliklərinə hopur. Ağlından yaddaşında möhkəmlənmiş dəyərlərin ziddinə bir fikir keçəndə belə ailədə təlqin edilmiş təlimlər səni çəkindirir, düz yola istiqamətləndirir.

Ulu öndərin növbəti anım günü ərəfəsində qələmə aldığım bu qeydləri hansısa bir tarixi nailiyyəti, yaxud hansısa önəmli tarixi hadisə ilə də başlaya bilərdim. Ümummilli liderin Azərbaycan üçün heç kimin görə bilmədiyi işləri görməsi, azadlığımızın onun müdirikliyi ilə əldə olunması, heç şübhəsiz ki, danılmaz həqiqətdir, tarixin şanlı səhifələrində öz yerini möhürləyib. Bunu hər kəs bilir. Ancaq atamın əsl Heydər Əliyev sevgisinin nədən qaynaqlandığını təkcə mən bilirəm. Atam vəzifə adamı olmayıb, zəhmətkeş kəndli olub. Fəqət siyasi proseslərdən kənarda qalmış kəndli belə çox yaxşı dərk edirdi ki, Azərbaycanın qurtuluşunun, tərəqqisinin memarı ancaq və ancaq Heydər Əliyev ola bilərdi. Gerisi təfərrüatdır…

Ucqar dağ kəndində böyümüşəm, bəzən informasiyanın azlığı, müəyyən çap məhsullarının gec çatması və ya heç çatmaması, internetin hər zaman əlçatan olmaması məktəb illərim üçün hardasa normal idi. Amma atamın sayəsində informasiya qıtlığını hiss etməmişəm. İndi nə qədər informasiya çox olsa da, atamın bildiyi və onun izah etdiyi kimi deyil. O, Heydər Əliyevin böyük şəxsiyyət olmasını deyib keçmirdi. Nə üçün böyük şəxsiyyət olmasını özünün məntiqi təfəkkürü ilə, sadə faktlarla izah edir, Ulu öndəri daha yaxından tanıdırdı.

### Atam deyirdi...

Xalqımızın lideri Heydər Əliyev aramızda olmasa da, onun siyasəti bizimlədir, mayak kimi yol göstərir. Heç şübhəsiz ki, keçən əsrin 90-cı illərinin əvvəllərində Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, Azərbaycan dövlətinin varlığından danışmaq mümkün olmayacaqdı. O, xalqın təkidi və istəyi ilə hakimiyyətə qayıtdı, hamını bir yumruq kimi birləşdirdi. Bu birlik Azərbaycanın düşdüyü ağır vəziyyətdən xilas olması, bir dövlət kimi müstəqilliyini daha da möhkəmləndirməsi ilə nəticələndi. Ölkəmizdə hökm sürən anarxiyanın qarşısı alındı, özbaşınalığa son qoyuldu.

Ümummilli lider nəinki Azərbaycanın, dünya tarixinin müdrik dövlət xadimi kimi qəbul və təqdir olunur. Onun mükəmməl diplomatiyası, dövlətçilik konsepsiyası, Azərbaycan naminə fövqəladə xidmətləri bu günümüzdə də müasir dövlətimizin inkişafına töhfə verir. Hələ keçmiş Sovet İttifaqı dövründə Azərbaycanda elə sahə tapılmazdı ki, Heydər Əliyevin qayğısından, diqqətindən kənarda qalsın. İqtisadiyyat, sənaye, kənd təsərrüfatı, ekologiya, elm, təhsil – bir sözlə, ölkə həyatının bütün sahələrində canlanma yarandı, Ulu öndərin parlaq zəkası ilə respublikaya yeni ruh gəldi.

Bu gün Heydər Əliyevin müdrik siyasi xəttini uğurla davam və inkişaf etdirən Prezident İlham Əliyev ölkəmizi böyük uğurlara çatdıra bildi. Bu, məhz Heydər Əliyevin daim uğur və qələbə vəd edən siyasətinin nəticəsi idi. Onun qoyduğu yolla nəinki sosial-iqtisadi nailiyyətlər qazanmaq, hətta 2020-ci ilin payızında Azərbaycanın əzəli torpağı olan Qarabağı Ermənistanın 30 illik işğalından azad etmək mümkün oldu. Bu, Azərbaycanın son 200 illik tarixində görünməmiş bir Qələbə idi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərrast sərkərdəlik qabiliyyəti və Milli Ordumuzun rəşadəti sayəsində bu parlaq Qələbəni cəmi 44 gün ərzində qazana bildik. Bu, Heydər Əliyev məktəbinin məzunu olmuş, Onun qələbə müjdəli siyasi xəttini dərindən öyrənmiş bir liderin şanlı Zəfəri idi. Axı Heydər Əliyev çıxışlarında əminlikdə deyirdi ki, Şuşaya qayıdacağıq! Əminliklə deyirdi ki, mənim yarımçıq qoyduğum işləri İlham Əliyev davam etdirəcək. "Biz Qarabağ məsələsini həll edəcəyik. Vaxt lazımdır. Heç kim torpaqlarını Azərbaycandan ala bilməz. İşğal olunmuş torpaqlarımız mütləq geri qaytarılacaqdır. Nəyin bahasına olursa-olsun" – söyləyən Ulu öndər sanki bu günləri əminliklə görərək danışırdı. O, əmin idi ki, ərazi bütövlüyümüz bərpa olunacaq, Qarabağ yağı düşmənə qalmayacaq. O səfalı yerlərin əsrarəngiz təbiəti, ətraf mühitimiz yağı düşmənin əsarətindən azad olunacaq. Təbii sərvətlərimizin talanmasının qarşısı alınacaq, ermənilərin ətraf mühitimizin çirkləndirilməsinə son qoyulacaq.

İlham Əliyev, sözün əsl mənasında, xoşbəxt övladdır – Ata vəsiyyətini yerinə yetirdi. 44 günlük müharibədə Ali Baş Komandanın rəhbərliyi altında Ermənistan üzərində tarixi Qələbə qazanan Azərbaycan Silahlı Qüvvələri ölkəmizin nüfuzunu daha da yüksəklərə qaldırdı. İstər döyüş, istərsə də informasiya meydanında uduzan düşmən rüsvaycasına məğlub oldu. Qisasımız döyüş meydanında alındı. Azərbaycan Ordusunun döyüş meydanında göstərdiyi şücaət, seçdiyi taktikalar, gedişlər, fəndlər, düşünülmüş döyüş planı, silah və texnikadan istifadə bacarığı, əsgər və zabitlərimizin cəsarəti yaxın-uzaq ölkələr tərəfindən böyük maraqla qarşılandı. Sonralar Prezident İlham Əliyevin özü də etiraf edirdi ki, Azərbaycan Ordusunun döyüş taktika və strategiyası hətta Qərbin ən inkişaf etmiş ölkələrinin orduları tərəfindən öyrənilir.

Bu Qələbə, əlbəttə, birdən-birə qazanılmadı. Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə təxminən 20-30 illik bir tərəqqi yolu keçdi. Bu yol da, şübhəsiz ki, Ümummilli liderimiz tərəfindən qoyulmuşdu və Azərbaycanı iqtisadi uğurlara aparırdı. Sosial-iqtisadi nailiyyətlərimiz isə son nəticədə Ordumuzun güclənməsinə, ən müasir silah-sursatla təchizatına, eləcə də döyüş qabiliyyətimizin yüksəlməsinə gətirib çıxarmışdı.

Bu müharibə üçün az qala 30 ilədək hazırlıq görüldü. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasından silah və texnikanın müasirləşdirilməsinədək əməli tədbirlər həyata keçirildi. Bu, peşəkarlıq idi. Geniş və çoxşaxəli düzgün strategiyanın nəticəsi idi. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar, məqsədyönlü xarici siyasət sayəsində nəinki Cənubi Qafqazda, dünyada sayılıb-seçilən bir dövlətə çevrilibsə, sözsüz ki, bunun əsasını Heydər Əliyev qoymuşdur.

"Elin gözü tərəzidir" ifadəsini boşuna deməyiblər. Xalq 2003-cü ildə Heydər Əliyev ideyalarına, Ulu Öndərin siyasətinə səs verdi. Azərbaycan xalqı çox yaxşı bilirdi ki, İlham Əliyevdən başqası bu siyasəti davam etdirə bilməyəcək. Əgər Heydər Əliyevin layiqli davamçısı proseslərdən kənarda qalsaydı, Azərbaycanın bugünkü müstəqilliyindən danışmaqda tərəddüdümüz olardı. Bunu tarix göstərdi, vədə yetdi və zaman öz sözünü dedi. Xalq seçimində yanılmamışdı.

### Xilaskarlığın Heydər Əliyev zirvəsi

Azadlıq hər bir xalqın arzusudur. Bizim də belə arzumuz olub və buna Heydər Əliyev siyasəti ilə çatacağımıza şübhə etməmişik. Azadlığın asan qazanılmadığını da bilirik. Dövlət müstəqilliyimiz, yadelli ağalığına birdəfəlik son qoyulması, ölkəmizdə demokratik konsepsiyanın əsası məhz Heydər Əliyevin müdrik fəaliyyətinin nəticəsi idi. Dövlət üçün onun müstəqilliyi, bayrağının zirvələrdə dalğalanması, xalqın firavan yaşaması kimi önəmli heç nə yoxdur. Ənənələrimizə sahib çıxmış uzaqgörən lider Azərbaycan tarixində şanlı yer tutmuş Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri bərpa etdirmiş, habelə, üçrəngli bayrağımız birdəfəlik ucaldılmışdır. Həmin bayraqdır ki, bu gün ölkəmizin bütün bölgələrində qürurla dalğalanır!

Dünyada 200-ə yaxın dövlət varsa, biri də bizim Azərbaycanımızdır. Bu, necə də vicdan rahatlığı, könül xoşluğudur. Bu xoşbəxtliyi bizə nəsib edən Heydər Əliyevin yeri, ən böyük abidəsi xalqın qəlbindədir.

Heydər Əliyevin bizə bəxş etdiyi azadlıq, öz Vətəninin vətəndaşı olmaq necə də şərəflidir. Ümummilli liderimizin birdəfəlik dalğalandırdığı, qürur mənbəyimiz olan üçrəngli Bayrağımız, Sən yüksəklərdə dalğalan! Yüksəklərdə dalğalanmağa, çoşmağa layiqsən. Bir daha enməyinə nəyin bahasına olursa-olsun, izin verməik! Bayrağım, səndə Zəfər nişanımız, azadlığımız, xalqın böyük oğlu Heydər Əliyev nəfəsi var.

Mərhum şairimiz Bəxtiyar Vahabzadə səni belə tərənnüm edirdi:

*...Bayraq mənliyimdir, bayraq kimliyim,*
*Bayraq öz yurduma söz hakimliyim.*
*Harda əcdadımın ayaq izi var,*
*Bu zəfər bayrağım orda dikəlsin.*
*Keçdiyi yerlərdə dağlar, yamaclar*
*Onun hüzuruna salama gəlsin.*
*...Daim ucalasan! Savaş günündə*
*Əsgər silahıyla səni tən görüm.*
*Yalnız zəfər çalmış şəhid önündə*
*Səni alqış üçün əyilən görüm.*

Təbii ki, bir qəzet yazısı Heydər Əliyevin fəaliyyətini tam əhatə edə bilməz. O, sözlə izah edilə bilməyəcək qədər çox böyük şəxsiyyət olub. İllər, əsrlər ötəcək, Heydər Əliyev sevgisi daha da artacaq, onun dəyəri qiyməti çoxalacaq. Azərbaycan üçün etdiyi təmənnasız xidmətlər, xalqımızın xilası naminə göstərdiyi fəaliyyət Günəş işığı kimi get-gedə daha da parlayacaqdır.

**Rizvan FİKRƏTOĞLU**
**XQ**

# "Qırmızı xaç" faktları və rəngləri təhrif edir



**Fəaliyyəti Azərbaycan ictimaiyyətinin hər zaman haqlı tənqidinə səbəb olan Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Ermənistandakı nümayəndəliyinin kommunikasiya proqramlarının rəhbəri Zara Amatuni növbəti dəfə etiraz doğuran açıqlama verib.**

İtkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirmək üçün BQXK-nın funksiyaları çərçivəsində atılan addımlarla bağlı ölkənin dövlət informasiya agentliyi – "Armenpress"in müxbirinin sualını cavablandıran xanım Amatuni deyib ki, Qarabağ münaqişəsi nəticəsində itkin düşənlərin problemi qurumun fəaliyyətinin prioritet istiqamətlərindən (?) biridir: "Qarabağ münaqişəsinə gəlincə, biz 30 ildən çoxdur ki, bu problemlə məşğuluq. Bu, müxtəlif istiqamətlərdə işləmək deməkdir. Söhbət ilk növbədə, mandatla təminat verilən, amma BQXK-nın öhdəliklərinə aid olmayan hüquqdan gedir. Hərbi əməliyyatlar nəticəsində itkin düşmüş şəxslərin ailələrinə məlumatların verilməsi beynəlxalq humanitar hüququn tələbidir. Biz bununla bağlı öhdəlikləri onlara xatırlatmaq üçün tərəflərin müvafiq orqanları ilə iş aparırıq. Çalışırıq ki, mandatımız çərçivəsində və mümkün qədər texniki təcrübəmiz, oxşar vəziyyətlərdə işləyərkən əldə etdiyimiz müəyyən bacarıqlarla onlara dəstək olaq".

Onun sözlərinə görə, BQXK-nın işinin ikinci mühüm istiqaməti itkin düşmüş hər bir şəxs haqqında ən dolğun və ətraflı informasiyaları təqdim etməkdən ibarətdir: "Ailələrin müraciətləri əsasında bölgədəki ofislərimiz vasitəsilə biz 90-cı (ötən əsr nəzərdə tutulur–S.H.), daha sonra isə 2020-ci və 2023-cü illərdə münaqişənin eskalasiyası (mövcud nisbətən sabit vəziyyətin gərginləşməsi–S.H.) nəticəsində itkin düşmüş hesab edilən, təxminən, 5 min şəxs haqqında məlumat topladıq. Onlardan 1000-ə yaxın BQXK-nın İrəvan və Qarabağdakı ofisləri vasitəsilə məlumatlarını topladığımız ermənilərdir".

Açıqlamada ilk olaraq diqqəti cəlb edən Z.Amatuninin keçmiş Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı indiki zamanda danışmasıdır. Belə təəssürat yaranır ki, sanki, o da Hayastanda münaqişənin həllini tapmadığı düşüncəsində olan qaragüruha qoşulub. Halbuki, münaqişə 2020-ci ildə baş verən İkinci Qarabağ münaqişəsi nəticəsində tam həllini tapıb. 2023-cü ildəki lokal xarakterli antiterror tədbirləri nəticəsində isə Azərbaycan özünün dövlət suverenliyini tam bərpa edib. Odur ki, Qarabağ münaqişəsi haqqında keçmiş zamanda danışılmalıdır.

Digər tərəfdən, BQXK-nın fəaliyyəti hər zaman ikili standartlar çərçivəsində olub. Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 min azərbaycanlının taleyi ilə bağlı edilən çoxsaylı müraciətlərə baxılmayıb. BQXK bu məsələni Ermənistan hakimiyyəti qarşısında qaldırmaq istəməyib. Azərbaycan işğala öz gücü hesabına son qoyduğu kimi, itkin düşmüş hesab edilən şəxslərin bir qismini də torpaqlarımız azad edildikdən sonra aparılan qazıntı işləri nəticəsində aşkarlayıb. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev 2024-cü il oktyabrın 2-də keçirilən "İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi" mövzusunda beynəlxalq konfransda çıxışında demişdir ki, bugünədək dövlət komissiyası tərəfindən işğaldan azad olunmuş ərazilərdə aşkarlanmış 18 kütləvi məzarlıqdan və görülmüş digər təxirəsalınmaz tədbirlər çərçivəsində 642 itkin şəxsə aid meyit qalığı ekshumasiya edilib.

Üstəlik, BQXK-nın 2023-cü ilin əvvəllərində Qarabağ ermənilərinə qaçaqmalçılıq yolu ilə müəyyən vasitələr çatdırdığı faktı da yaddan çıxmamalıdır. Bu faktın özü belə bir təşkilatın rəsmisinin fikirlərinin mötəbərlikdən uzaq olduğunu bəri başdan ortaya qoyur.

Z.Amatuni onu da bildirib ki, "1000 erməni itkin"in siyahısına müsbət DNT identifikasiyasına baxmayaraq, yaxınlarının müxtəlif səbəblərdən cavabları qəbul etməyən ailələr də daxildir: "Bu, həm də bizim üçün bir stimuldur ki, aidiyyatı orqanlarla işləməyə, sadəcə olaraq insanların bu nəticələri qəbul etmədiyi halları öyrənməyə çalışaq".

Beləliklə, aydın olur ki, bu, daha bir erməni hiyləgərliyidir. Qarşı tərəf statistikanı şişirtmək, sonra isə bu yalanı daha geniş ictimaiyyətə sırımaq istəyir. Ancaq itkin düşmüş azərbaycanlılarla bağlı işlər görmək üçün BQXK stimul tapmır. Daha doğrusu, onu heç axtarmırlar.

Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən **Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** bildirdi ki, biz BQXK-nın dünyanın müxtəlif yerlərində faktiki olaraq hansı işlərlə məşğul olduğunu görürük. Onun sözlərinə görə, komitə bəzən siyasətə qarışır, əksər hallarda xristianlığı müdafiə edir, müsəlman ölkələrinə gəldikdə isə hardasa ciddi ehtiyac olarsa, silahlı münaqişələr zamanı, yaxud ondan bir qədər sonra yardımlar edir. Ancaq ümumilikdə, biz görürük ki, qurum tərəf tutmaq üçün əlindən gələni edir: "Beynəlxalq Qırmızı Xaç Komitəsi mandatından kənar işlərlə məşğul olmamalı, kənar proseslərə qarışmamalıdır. Qurumun Ermənistan nümayəndəliyinin əməkdaşının səsləndirdiyi rəqəmlər də absurddur. Əgər söhbət itkin düşənlərdən, BQXK-nın öz funksiyasını düzgün şəkildə icra etməsindən gedirsə, hər kəsə məlumdur ki, 44 günlük müharibədən sonra Avropa İttifaqı Şurasının sabiq prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderləri arasında görüş keçirilmişdi. Həmin görüşdən sonra qəbul edilən bəyanatda bu barədə deyilirdi ki, məhz azərbaycanlı itkin düşənlərin də Ermənistan tərəfindən geri qaytarılması müzakirə edilib. Avropa İttifaqının özü də bu məsələni bir reallıq kimi qəbul etmişdi. Bu baxımdan ilk növbədə bu suala cavab verilməlidir ki, 1990-cı illərin əvvəllərində Qarabağ və Şərqi Zəngəzur ərazilərində müharibə vaxtı itkin düşən azərbaycanlıların aqibəti nə yerdədir? Əgər onlar həyatlarını itiriblərsə, meyitlərinin qalıqları, yaxud sağdırlarsa onların hazırkı fiziki durumu nədən ibarətdir və niyə hələ də qaytarılmırlar?"

Z.Məmmədov dedi ki, Ermənistan hökumətinin üzərinə öhdəlik götürməsinə baxmayaraq, Nikol Paşinyan bir neçə istiqamətdə cığallıq etdi: "Birincisi, basdırılmış cəsədlərlə bağlı düzgün məlumatlar vermədi. İkincisi, itkin düşənlərlə bağlı məsuliyyətdən qaçdı və rəqəmləri təhrif etməklə məşğul oldu. Buna görə də əgər Beynəlxalq Qırmızı Xaç komitəsi əsir və itkin düşmüş şəxslər problemi ilə həqiqətən də məşğul olmaq istəyirsə, bu hadisələrə sistemli, obyektiv yanaşmalı və ümumiyyətlə, retrospektivə (keçmişdə baş vermiş hadisələrə nəzər salmaq–S.H.) nəzər yetirərək hər iki tərəflə bağlı düzgün məlumatları qeyd etməyə çalışmalı, məsələləri birtərəfli şəkildə yozmamalıdır. Reallıq bundan ibarətdir".

Müsahibimiz bildirdi ki, mülki erməni əhalini tutmaq, cinayət törətməyənləri həbs etmək, təcridxanada saxlamaq, gizlətmək və sair kimi hallar heç vaxt Azərbaycan dövlətinin və azərbaycanlıların vəzifəsi olmayıb. Hətta, hərbi əməliyyatların getdiyi dövrdə də belə hallar baş verməyib. Ancaq Ermənistan nəinki Azərbaycan torpaqlarını işğal edib, eləcə də işğal dövründə azərbaycanlılara aman verməyib, divan tutub. Hər kəsə yaxşı məlumdur, eləcə də BQXK bunu bilməlidir ki, əgər Azərbaycan Ordusu 44 günlük müharibədə yaxşı silahlanmış erməni ordusu, onun Qarabağdakı keçmiş xunta rejiminin idarəçiliyinə verilmiş bölmələri ilə müharibə aparırdısa, Ermənistan Respublikası ötən əsrin 90-cı illərinin əvvəllərində azərbaycanlı mülki əhali ilə müharibə aparırdı. Ermənilər isə Birinci Qarabağ müharibəsində üstün olmalarına, torpaqlarımızı işğal etmələrinə baxmayaraq ki, sərt qış aylarında, şaxtada, qarda azərbaycanlılara paltarlarını götürməyə belə imkan verməyiblər. Soydaşlarımıza qarşı fiziki zorakılığın ən ağır formalarını törədiblər. Eyni zamanda, onların bir qismini Ermənistana apararaq onlara orada işgəncə verib, ağır fiziki işlərdə işləməyə məcbur ediblər: "Bu, reallıqdır. İşğalçı Ermənistan ordusunun hərbçiləri əliyalın azərbaycanlı əhaliyə – qadınlara, yaşlı insanlara və uşaqlara qarşı mübarizə aparırdı. Verilən işgəncələrlə bağlı Robert Koçaryan, Zori Balayan və Serj Sarkisyan açıqlama veriblər. Sarkisyan bu əməlləri ilə fəxr etdiyini etiraf edib. Azərbaycan tərəfinin isə nəinki sülh və insanlıq əleyhinə cinayət törətməsi, eləcə də kimlərinsə əsir götürülmələri ilə bağlı bir fakt belə yoxdur. Buna görə də bu gün biz Azərbaycan cəmiyyəti olaraq dünənimizi unutmamalıyıq. Unudarıqsa, gələcəkdə bu kimi hadisələr yenidən təkrarlana bilər. Həmin vaxt isə bizim köməyimizə nə BQXK, nə keçmiş ATƏT-in Minsk qrupu, nə də digərləri gələcək. Biz reallıqları soyuqqanlı şəkildə dərk edərək əsassız erməni iddialarının bölgəmizdə bir daha baş qaldırmaması üçün əlimizdən gələni etməliyik. Çalışmalıyıq ki, regiondakı reallıqlar əbədi olsun".

**Politoloq İlyas Hüseynov** isə bildirdi ki, BQXK-nın bölgədəki fəaliyyəti hər zaman şübhə doğurub, müəyyən suallar yaranıb. Biz münaqişənin 30 ili ərzində, eyni zamanda, Vətən müharibəsindən sonrakı dövrdə də qurumun Xankəndi ofisinin naməlum fəaliyyətini izləmişik. Onlar 2020-2023-cü illərdə bir sıra hallarda geniş ictimaiyyətin diqqətinə təhrif olunmuş məlumatlar çatdırıblar: "Bu gün də bir sıra rəqəmlər səsləndirirlər. Məlumdur ki, Birinci Qarabağ müharibəsindən sonra 4 minə yaxın azərbaycanlı itkin düşmüş hesab olunur. Xüsusilə vurğulamaq lazımdır ki, ərazi bütövlüyümüz və dövlət suverenliyimiz təmin edildikdən sonra bölgədə həm tikinti-quruculuq işləri, həm də təhlükəsizliyin təminatı üçün bir sıra fəaliyyətlər icra olunan zaman biz qazıntılar nəticəsində qalıqlar tapırıq. Aparılan DNT analizləri bu qalıqların həm mülki şəxslərə, həm də hərbçilərə aid olduğunu sübuta yetirir".

İ.Hüseynovun sözlərinə görə, lakin BQXK sanki bütün bunları görmür. Bununla bağlı açıqlamalar da müşahidə etmirik. Ortada hansısa bəyanatlar da yoxdur. Əksinə, Ermənistanda itkin düşmüş şəxslərdən danışılır: "Adətən, bəzi şişirdilmiş rəqəmlər sonradan statistik məlumatlara çevrilir. İllər ötdükdən sonra bunu bir mənbə hesab edirlər. Elə qondarma erməni soyqırımı, onun haqqında erməni tərəfinin açıqladığı rəqəmlər də buna bənzəyir".

Politoloq bildirdi ki, bu ikili standartlar qərəzin bariz nümunəsidir. Təəssüf ki, beynəlxalq təşkilatlar və digər qurumlar, institutlar da ikili standartların alətinə çevrilməkdə davam edirlər: "Digər tərəfdən ermənilərin itkin düşməsinin rəqəmlərdə ifadəsi və onun böyüdülməsi heç də təsadüfi deyil. Bunun üzərində sanki hansısa siyasi fəaliyyət icra olunur. Bu, müxtəlif siyasi texnoloqların işinə bənzəyir. Çünki uzun illər ərzində Ermənistana həm ərazilərin hansısa "minalardan təmizlənməsi", həm də Qarabağ ermənilərinə humanitar yardım adı altında milyonlarla vəsait ayrılırdı. Bu gün yeni geosiyasi reallıqlarda Qarabağ ərazisini könüllü tərk edən ermənilərin şəraitinin yaxşılaşdırılması, sosial vəziyyətlərinin daha münasib olması adı altında müxtəlif ianələr, maliyyə vəsaitlərinin ayrılması baş verir. Buna görə də rəqəmlər şişirdilir ki, maliyyə yardımları hansısa ad altında Ermənistana təqdim olunsun".

**Səxavət HƏMİD**
**XQ**

# Ucuz populizm



(əvvəli 1-ci səhifədə)

Göründüyü kimi, L.Ter-Petrosyan, kifayət qədər, rasional düşünmüşdü. Ancaq o, siyasi mübarizədə zəif çıxdı. Yəni, Ermənistan üçün tarixi sayıla biləcək addımı atmadı, yaxud ata bilmədi. Daha doğrusu, Qarabağ avantürasının heç bir nəticə verməyəcəyinə əmin olan birinci prezident həmin avantüradan daşınmaq məsuliyyətinin altına girmədi. Bəlkə də məsuliyyəti daşımağı bacarmadı.

Məsələ ondadır ki, 1996-cı ildən sonrakı iki il ərzində Azərbaycan-Ermənistan danışıqlarında müəyyən müsbət meyillər yaranmışdı. Lakin 1998-ci il fevralın 3-də proses pozuldu. L.Ter-Petrosyan baş nazir Robert Koçaryan, müdafiə naziri Vazqen Sarkisyan, habelə daxili işlər və milli təhlükəsizlik naziri Serj Sarkisyanla Qarabağ münaqişəsinin həlli ilə əlaqədar yaranmış narazılığa görə sonuncular tərəfindən istefa verməyə məcbur edildi. Prezidentin haqqında söz açdığımız zəifliyi məhz budur. O, saxta erməni milli identlikliyinə yenildi.

Ancaq, bir haşiyə çıxaq ki, Petrosyanın istefası Azərbaycan – Ermənistan danışıqlarının o zamana qədərki müsbət dinamikasını aradan qaldırmadı. Çünki həmin vaxt "Qarabağ klanı" yetərincə söz sahibi deyildi. Yəni, R.Koçaryanın prezidentliyi möhkəmlənməmişdi. Baş nazir V.Sarkisyan və Milli Assambleyanın sədri Karen Dəmirçyanın mövqeləri güclü idi. Hər şey 1999-cu ildə alt-üst oldu. Həmin ilin oktyabrın 27-də Ermənistan parlamentində qanlı terror törədildi. V.Sarkisyanın, K.Dəmirçyanın və onların tərəfdarı daha altı yüksək vəzifəli şəxsin qətlə yetirilməsindən sonra R.Koçaryanın başçılıq etdiyi klan gücləndi. Nəticə etibarilə, Ermənistan Rusiyanın birbaşa boyunduruğu altına düşdü və bu vəziyyət 19 il, yəni 2018-ci ildə N.Paşinyanın hakimiyyətə gəlişinədək davam etdi.

*

Bəli, məhz boyunduruq. Müstəqil dövlət kimi mövcud olmayan Ermənistan Qarabağ avantürasına "sadiqlik" kursu nümayiş etdirdi. Ölkənin beynəlxalq siyasəti tamamilə Moskvadan asılı hala düşdü. Xariclə münasibətlərə gəlincə, Qərb erməni amilini ehtiyat variant kimi saxladı. Ümid bəslədi ki, nə zamansa ondan Rusiyaya qarşı istifadə etmək məqamı yetişəcək. Paşinyanın iqtidara yiyələnməsi həm də məhz həmin məqamın yetişməsi idi.

Yəni, Rusiya kimi Qərb də Ermənistana müstəqil dövlət kimi yanaşmadı, düşündü ki, ermənilər, sanki, anti-Rusiya cəbhəsinin səngərində dayanmış əsgərlərdir. Deməli, Nikolun hakimiyyətə gəlməsi Ermənistanın müstəqil dövlət imicinin bərpası deyildi. Əgər belə olsaydı, Paşinyan seçki kampaniyası dövründə dediyi sözü yerinə yetirərdi. Axı o, Qarabağın Ermənistanın üzərindən asılmış ağır daş olduğunu və bu daşın atılmasının həyati əhəmiyyət daşıdığını dilə gətirmişdi. Hakimiyyət kreslosunda möhkəmləndikdən sonra isə bildirdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Daha sonra nələr yaşandı, 44 günlük müharibə nəticəsində Ermənistan hansı duruma, Paşinyan iqtidarı hansı rəzil vəziyyətə düşdü? Bunları yada salmaq istəmirik. Çünki hər şey bəllidir.

*

Amma Nikolun indi ölkə parlamentində çıxışı zamanı iki il əvvəl həmin məkanda dediklərini yada salmasının səbəbləri heç bəlli deyil, hətta anlaşılmazdır. Çünki L.Ter-Petrosyanın 1996-cı ildə diqqətə çatdırdığımız fundamental mahiyyətli fikirlərinə nəzərən baş nazirin pozitiv düşünməsinə heç bir əsas yoxdur. Ancaq düşünür. Necə deyərlər, utanmasan, oynamağa nə var. Hərçənd, məsələ utanmazlıq prizmasından uzaqdır. Nikolun söylədiklərində daha çox həyasızlıq elementləri var.

Beləliklə, Paşinyan ölkə parlamentində çıxışı zamanı iki il əvvəl həmin tribunada olarkən bildirdiklərini xatırladıb. Söhbət Nikolun Ermənistan dövlətinin perspektivi xüsusunda dilə gətirdiklərindən gedir. O demişdi ki, əgər biz 1-2 il dövlətçiliyimizi qoruyub saxlaya bilsək, bu, o deməkdir ki, real dövlət yaratmışıq və yaradırıq. Elə bir dövlət ki, növbəti əsrdə mövcudiyyət imkanı qazanacaq: "İndi, iki ildən sonra mən Ermənistan Respublikasının baş naziri kimi Ermənistan Respublikası parlamentinin tribunasında dayanıram və bəyan etməliyəm ki, ortamüddətli perspektivdə bizim əbədi və strateji problemimiz həll olunub. Lakin bir saniyə belə ehtiyatımızı əldən verə bilmərik. Çünki iki il əvvəl yaşadığımız problemlər, onların bəziləri əhəmiyyətli dərəcədə idarəolunan hala gəldi. Amma yeni problemlər ortaya çıxdı ki, onları müəyyən şəkildə idarə etmək lazımdır. "Məzlum millət" və "ordu millət" düsturlarını aşmalıyıq. Yeganə vəzifəmiz öz ərazimizdə vətəndaşların təhlükəsizliyini və rifahını təmin etmək olan sadə, birbaşa dövlət kimi daha möhkəm dayanmaqdır. Biz bu konsepsiyanın əsasında güclənib, "minalanmış sahəni" və ətraf mühiti addım-addım, diqqətlə dəf edərək o mərhələyə çatmalıyıq. "Növbəti əsrdə dövlətimizin mövcudluğuna zəmanət vermişik" deyə biləcəyimiz zamandır".

*

Görəsən, Paşinyan hansı zəmanətdən danışır? Axı Azərbaycan və Türkiyə ilə münasibətlər qaydasına salınmayıb. L.Ter-Petrosyan 1996-cı ildə fikirlərini həmin vaxtadək Qarabağ danışıqlarındakı tendensiyaları təhlil edərək səsləndirmişdi. Onun müşaviri olmuş, hazırda ABŞ-da pedaqoji fəaliyyətlə məşğul olan Jirayr Liparidyan 44 günlük müharibə müddətində həmin tendensiyalara, kifayət qədər, geniş aydınlıq gətirmişdi. Liparidyan bildirmişdi ki, dünyanın heç bir ölkəsi Qarabağı Ermənistan ərazisi kimi tanımırdı və bu cəhət rəsmi İrəvanı nizamlama prosesində zəif salmış və müvafiq olaraq, güzəştlər qaçılmaza çevrilmişdi.

L.Ter-Petrosyan da yuxarıda diqqətə çatdırdığımız fikirlərini məhz güzəştlərin qaçılmazlığı məntiqini əsas götürərək səsləndirmişdi. Görəsən, nəyə görə Paşinyan müəlliminə qulaq asmadı? Qulaq asmadı bir yana, nə üçün özünün seçki kampaniyası dövründəki tezislərinə xilaf çıxıb Qarabağ kimi "ağır daşı" ölkəsinin "çiynindən" atmaq istəmədi? Məgər bilmirdimi ki, bölgəyə sahiblənmək əzmi varsa, bu, müstəqil dövlət düşüncəsindən qaynaqlana bilməz? Bəlkə də bilmirdi, amma...

Əmması budur ki, Nikol erməni dövlətçiliyini və onun gələcək mövcudiyyətini düşünmədi. "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı bunun ən bariz sübutudur. Paşinyan qlobal güclərin, onu hakimiyyətə gətirənlərin anti-Azərbaycan sifarişlərini yerinə yetirərək "yeni ərazilər uğrunda yeni müharibə!" şüarını irəli sürdü. Məqsəd bəlli idi: Azərbaycanı işğal etmək, onun müstəqil siyasət yeridən qanuni hakimiyyəti devirmək və Qərbin dəstəkləyəcəyi marionet hökumətin formalaşdırılmasını savaş yolu ilə təmin etmək. Çünki Qərb ölkəmizin iqtidarını siyasi səhnədən başqa cür uzaqlaşdırmağın mümkünsüzlüyünü dərk etmişdi. Yaxşı anlamışdı ki, xalq Azərbaycan hakimiyyətini dəstəkləyir. Qərbin hesablamadığı iki xüsus var idi. Birincisi, Azərbaycan xalqının müharibə zamanı da öz iqtidarı ilə həmrəy olacağı. İkincisi, Rusiya. Qərb Moskvanın "erməni sevdasının" kara gələcəyinə siyasi sərmayə yatırdı. Hesab etdi ki, 2018-ci ildə Ermənistanı əldən çıxarmış Kreml müharibədə İrəvana dəstək göstərməklə özünü Paşinyan hakimiyyətinə, necə deyərlər, şirin satacaq. Şirin satacaq ki, yenidən Ermənistandakı mövqelərini geri alsın. Əgər Qərb məqsədinə nail olub həm də Rusiyanın əli ilə Azərbaycanı məğlubiyyətə uğratsaydı, əlbəttə ki, növbəti addım Paşinyanın Moskvaya tam arxa çevirməsi olacaqdı. Necə deyərlər, it başqasının kölgəsində yatır, elə zənn edir ki, öz kölgəsində yatır.

Bəli, Azərbaycan 44 günlük müharibədəki Zəfəri ilə bir çox planları alt-üst etdi. 2020-ci ildən sonra yaşananlar da iki yüz il ərzində erməni amili üzərinə qurulan "ssenarilərin" pozulması idi. Qarabağda separatizm üzərində qərarlaşmış avantürizmin sona çatması da həmçinin. Paşinyan isə heç nəyi öz xoşuna etmədi, ondan hər şey zor gücünə qoparıldı. Nəzərə alsaq ki, T. Petrosyan 1996-cı ildə güzəşt ritorikasından söz açmışdı, Nikol 24 il sonra kompromisdən uzaq məntiq üzərində dayanmaqla yeni düzən formalaşdırmağa cəhd göstərdi. Söhbət, bütövlükdə, Cənubi Qafqazın Qərbin təsiri altına düşəcəyi düzəndən gedir. O, özünü saxta erməni demokratiyasının "qladiatoru" sandı və hesab etdi ki, istədiyini gerçəkləşdirməyi bacaracaq. Ancaq...

Bu gün də Paşinyan Cənubi Qafqazda baş verənlərin mahiyyətini anlamır. Yenə Ermənistanı alət kimi ortaya atır. Sadəcə, İrəvan əvvəl Rusiyanın forpostu idisə, indi Qərbin bloqpostudur. Deməli, müstəqil erməni dövlətçiliyi deyilən şeydən əsər-əlamət yoxdur. Belədə, baş nazirin "Məzlum millət" və onun məntiqi nəticəsi olan "ordu millət" düsturlarından kənar durulmasının vacibliyindən söz açması, dərsi yarımçıq mənimsəyən tələbənin sərsəmləməsi təsirini bağışlamaqdadır. O cümlədən, Nikolun "Real Ermənistan" söz açması da. "Real Ermənistan" o halda mövcud ola bilər ki, rəsmi İrəvan Azərbaycanın bütün tələblərini yerinə yetirsin, səmimi şəkildə iddialarından uzaq dayansın, sülh yolu tutsun. Bu durum yaranmayıbsa, deməli, Paşinyanın erməni dövlətçiliyinin perspektivindən danışması əbəsdir, yalnız və yalnız ucuz populizmdən.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Gürcüstanda "Maydan" ssenarisi iflasa uğradı

## *Bu, xarici maliyyə ilə hərəkətə gətirilən oyundur*

(əvvəli 1-ci səhifədə)

Bu gün Gürcüstanda açıq şəkildə bildirilir ki, QHT fəallarından ibarət manqurt dəstələr, LGBT və ifrat liberal sağçı düşərgələr Qərbin maliyyəsi ilə məqsədli şəkildə yaradılıb. Cəmiyyəti QHT-lər vasitəsilə manqurtlaşdırmaq meyilləri ortadadır. Amma aldıqları əmri kortəbii şəkildə yerinə yetirən etirazçı qüvvələr bu gün ölkəni narahat edən ən vacib problemlər, eləcə də Gürcüstanın ərazi bütövlüyü, itirilmiş torpaqların geri qaytarılması haqqında siyasi müzakirələr aparmaq niyyətindən uzaqdırlar.

Bu etiraz aksiyaları və oradakı iştirakçıların tərkibi belə qənaətə gəlməyə əsas verir ki, Gürcüstanda 2014-cü ilin Ukrayna ssenarisinin təkrarı hazırlanır, Tbilisinin, Kutaisi və Batumi kimi iri şəhərlərin küçələrinin döyüş meydanına çevrilməsi, polisə qarşı zorakılıq aktları, hətta dünən aksiya iştirakçılarından birində "Molotov kokteyli"nin aşkarlanması məhz bundan xəbər verir. Bu gün Gürcüstan mitinqlərinə Balkan ölkələrindən, Şərqi Avropa və əsasən də Baltik ölkələrindən çoxlu sayda təxribatçıların gətirildiyi barədə məlumatlar yayılır. Baltikyanı ölkələr Gürcüstanın rəsmi şəxslərinə qarşı sanksiyalar tətbiq edəcəklərini bəyan edirlər. Bununla əlaqədar Estoniya, Litva və Latviyanın Gürcüstan paytaxtındakı diplomatik nümayəndələri XİN-ə çağırılıblar və onlarla geniş söhbət aparılıb.

Hazırda Gürcüstan hökuməti çalışır ki, aksiyalar qanunlar çərçivəsindən kənara çıxmasın, Ukraynada olduğu kimi, silahlı təxribatçılar tərəfindən insanlara atəş açılaraq və sonra bunun məsuliyyəti Gürcüstan hökumətinin üzərinə atılaraq, vəziyyətin dramatikləşməsinə yol verilməsin.

Bu aksiyalar çərçivəsində Avropa İttifaqının Gürcüstandakı səfiri faktiki olaraq özünü canişin kimi aparır. Qərb səfirləri və ölkələri demokratik seçilmiş hökumətə qarşı hibrid müharibə aparırlar. Gürcüstanda formalaşdırılmış şəbəkə ayağa qaldırılıb, Avropadan gələn emissarlar bilavasitə prosesə nəzarət edir və vəziyyəti gərginləşdirmək üçün əllərindən gələni edirlər. Bu gün Çini, Rusiyanı və digər ölkələri hibrid müharibələrdə günahlandıran Qərb özü Gürcüstanın daxili işlərinə qarışır. Baş verən hadisələr birmənalı olaraq Gürcüstanın daxili işidir və kənar qüvvələr və ölkələr bu prosesə müdaxilə etməməli, demokratik əsaslarla keçirilmiş seçkilərin nəticələrinə hörmətlə yanaşmalıdırlar. Gürcü xalqı Qərbin və xüsusən də Fransa prezidenti Makronun agenti olan prezident Salome Zurabaşvilinin kaprizləri ilə oynamaq zorunda qalıb. Zurabişvili vaxtilə Fransa vətəndaşı olub və Fransa XİN-də çalışıb.

Dünən Baş nazir İrakli Kobaxidze də ölkədə aksiyaların ciddi qarşıdurmalara çevrilməsinin qarşısının alındığını bəyan edərək deyib ki, Qərb ölkədə Ukraynadakı kimi "Maydan" yaratmaq istəyib, ancaq bu ideya iflasa uğrayıb, hər şey nəzarət altındadır. "Rustavi 2" telekanalının məlumatına görə, Kobaxidze deyib: "Bunlar xaricdən maliyyə vəsaiti cəlb edilməklə əlaqələndirilmiş və əvvəlcədən planlaşdırılmış təxribatlardır. Amma ölkənin milli maraqları sona qədər qorunacaq".

Kobaxidze qeyd edib: "Son dörd il ərzində biz üç dövlət çevrilişinə cəhdin şahidi olduq, təəssüf ki, bunların hamısı xaricdən maliyyələşdirilib. Ölkəmizə bu cür yanaşma qəbuledilməzdir".

Baş nazir onu da əlavə edib ki, ölkədə etirazları dəstəkləyən prezident Salome Zurabişvili "iki həftə ərzində iqamətgahını tərk etməli olacaq", çünki onun səlahiyyətləri başa çatacaq, dekabrın 14-də ölkədə yeni prezident seçkiləri keçiriləcək.

Bu gün qonşu ölkədə siyasi təhlilçilər bəyan edirlər ki, Qərb Ukrayna xalqını müharibəyə sürüklədiyi kimi, Gürcüstan üçün də eyni ssenariləri cızır. Gürcü xalqı müdriklik nümayiş etdirməli və heç bir xarici qüvvənin əlində alət olmamalıdır. Eyni zamanda, Qərbin Gürcüstanı qeyri-sabitliyə sürükləməsi bütün Cənubi Qafqazda təhlükəsizliyi və sabitliyi poza bilər. Bunu isə regionun hər üç ölkəsində istəmirlər. Cənubi Qafqaz münaqişə və müharibələrdən, siyasi kataklizmlərdən yorulub və sülh istəyir, yalnız sülh. Çox-çox təəssüflər ki, bunu Qərbdə istəmirlər. Buna görə də Gürcüstanı etiraz aksiyaları, Ermənistanı isə revanşizm ideyaları ilə qarışdırmaq, bulanıq suda balıq tutmaq istəyirlər. Qərb, nəhayət ki, Cənubi Qafqazda bu oyunlarına son qoymalıdır. Elə gürcü xalqı da necə bir bəla ilə üz-üzə qaldığını başa düşməli və bu oyuna getməməlidir.



Küçələrdə etirazçıların aqressiv davranışı da iştirakçıların Qərbə arxayın olması ilə bağlıdır. Onlar hər gün Tbilisinin Rustaveli prospektində, Gürcüstan parlamenti binasının əsas girişində keşik çəkən xüsusi təyinatlılara hücum edir, onlara daş və digər əşyalar, pirotexniki vasitələr atırlar. Gürcüstan DİN aşkarlayıb ki, etirazçıların böyük bir qismi xarici ölkələrin vətəndaşlarıdır. Bu barədə "Gürcü Arzusu – Demokratik Gürcüstan" partiyasının icraçı katibi Mamuka Mdinaradze də bu günlərdə keçirdiyi brifinqdə bildirib: "Tbilisidə etiraz aksiyaları zamanı saxlanılanların 30 faizi xarici ölkələrin vətəndaşlarıdır".

Onun sözlərinə görə, təkcə bir gecədə saxlanılan 10 nəfərdən 8-i xarici ölkə vətəndaşlarıdır. Saxlanılanlar arasında Rusiya, ABŞ, Böyük Britaniya və Niderland vətəndaşları var.

Mdinaradze deyib: "Ən radikal etirazçılar arasında xarici vətəndaşlardan əlavə, keçmiş baş nazir Giorgi Qaxariyanın "Gürcüstan üçün" və "Birləşmiş Milli Hərəkat" partiyasının fəalları da olub".

Siyasətçi qeyd edib ki, hər axşam parlamentin yaxınlığında minlərlə insan toplaşır, onlardan bəziləri infrastruktura ziyan vurur, polisə və xüsusi təyinatlılara daş, butulka, dəmir və digər əşyalar, o cümlədən "Molotov kokteylləri" atır, pirotexniki vasitələrdən atəş açırlar. Polis isə təzyiqli su, gözyaşardıcı qaz və digər vasitələrlə cavab verir.

Gürcüstan Səhiyyə Nazirliyindən verilən son məlumata görə, dekabrın 4-dək aksiya iştirakçıları, jurnalistlər və Daxili İşlər Nazirliyinin əməkdaşları da daxil olmaqla, 162 nəfər tibb müəssisələrinə yerləşdirilib. Bundan əlavə, DİN-in məlumatında deyilir ki, 143 polis əməkdaşı ağır yaralanıb. Etirazçılardan 300 nəfər saxlanılıb, onlardan yalnız 6 nəfəri cinayət məsuliyyəti daşıyır, qalanları isə polisə tabe olmama və xırda xuliqanlıq faktlarına görə inzibati qaydada həbs ediliblər.

Gürcüstan Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı bəyanata görə, əsas məqsədi hakimiyyəti güc yolu ilə ələ keçirmək olan konkret partiyalar və qeyri-hökumət təşkilatları rəhbərlərinin başçılığı altında müəyyən qruplar dağıdıcı və zorakı ssenarilər hazırlamaq üçün təxribatlar təşkil etməyə çalışırlar. Ancaq bütün təxribat cəhdlərinin qarşısı qanunlar çərçivəsində və peşəkarlıqla alınır...

Beləliklə, hökumətin Avropaya inteqrasiyanın dayandırılmadığı, əksinə, prioritet olduğu, ölkənin 2030-cu ildə Aİ-yə daxil olmaq üçün 2028-ci ilin sonuna qədər danışıqlara lazımınca hazırlaşacağı barədə izahatlarına baxmayaraq, etiraz aksiyaları davam edir. Hətta baş nazirin belə bir bəyanatına da məhəl qoyulmur ki, əgər Aİ danışıqlara başladığını elan etsə, Gürcüstan istənilən dəqiqə prosesə qoşulmağa hazırdır.

*Paşa ƏMİRCANOV*
*XQ*

# "Nəlbəkidə fırtına yaradanlar"ın arzusu ürəyində qalır

## *ABŞ-nin "dirijor çubuğu"nu Avropada qələmlə sındırırlar*

*Əgər Qərbdə kimsə düşünür ki, hökumət rəsmilərini təhqir etməklə, böhtan və şayiələr yaymaqla Azərbaycanda ictimai rəyə təsir göstərə bilər, unutmasınlar ki, həmin təsir onların görmək istədiyi istiqamətdə olmayacaq. Əksinə, Azərbaycan cəmiyyəti daha da həmrəy olur, çünki biz görürük ki, bu, ədalətli deyil. Biz 30 il işğala məruz qalmışıq və Qərbdə Ermənistan işğalını pisləyən olmadı.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*




**Bir müddət əvvəl Azərbaycan jurnalistləri yazmışdılar ki, OCCPR deyilən təşkilat – Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı layihəsi feyk qurumdur. Feyk olması cəhənnəmə, yaradıldığı gündən bəri Azərbaycana düşmən münasibəti ilə seçilən dairələrin əlində alətə çevrilmişdir. Yəni təmtəraqlı adı olan bu qurumdan ölkəmizə qarşı informasiya müharibəsində bir vasitə kimi istifadə olunur.**

Son zamanlar isə Avropanın kütləvi informasiya vasitələri yazırlar ki, Fransanın "Mediapart", İtaliyanın "Il Fatto Quotidiano", Yunanıstanın "Drop Site" və "Reporters United" nəşrlərinin birgə araşdırmasında Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsi – OCCPR-nin kimə mənsub olduğu, maliyyə mənbələri, əsl məqsəd və məramı ifşa edilib. Konkret olaraq göstərilir ki, bu qurum ABŞ tərəfindən Ağ evin rəqiblərinə qarşı silah kimi istifadə edilir.

Maraqlı məqamlardan biri də odur ki, ABŞ-nin "gizli silah"ını ifşa edənlərdən biri elə Birləşmiş Ştatlar kimi anti-Azərbaycan mövqedə dayanan Fransanın təmsilçisidir. Bu sətirləri qələmə almaq üçün "Mediapart"ın bəzi araşdırmalarına baxmaq istədim. Məlum oldu ki, 2008-ci ildə Fransua Bonne, Jerar Deporta, Lorana Modyui və Edvi Plenel ad-soyadlı dörd fransız jurnalistinin yaratdığı bu internet nəşr, sözün həqiqi mənasında, özünün siyasi tədqiqatları ilə məşhurdur.

Politoloq Pyerra –Andre Tağıyevanın fikrincə, fransız, ingilis və ispan dilində yayılan bu nəşr Fransa siyasətçiləri üçün qara kabusa çevrilmişdir. Onlar, həqiqətən, Fransa rəhbərliyinin çox ciddi siyasi skandallarının üstünü açaraq cəmiyyətə təqdim etmişlər. Məsələn, onlar sübut ediblər ki, Fransanın keçmiş prezidenti Nikolya Sarkozi 2007-ci ildə Liviya lideri Müəmmar Qəddafidən, guya, seçkidəki təbliğatını təşkil etmək üçün 50 milyon avro vəsait almışdı. "Mediapart" soruşurmuş ki, demokratik ölkədə xalqdan gizli halda xaricdən alınan həmin vəsait hara getdi?

Yaxud bu sayt dövlət rəsmilərinin bir-birinin telefon danışıqlarını dinləməsi, eləcə də keçmiş nazir Jerom Kayuzakın ciddi korrupsiya əməlləri və İsveçrə bankındakı vəsaiti barədə olduqca əhətəli faktlar ortaya qoymuşdu. Belə olan halda "Mediapart"ın "OCCPR ABŞ-nin əlində silahdır" qənaətinə inanmayan qalarmı? Bizcə yox. Üstəlik, fransız jurnalistlər bu tədqiqatları Avropanın bu qəbildən olan digər nəşrləri ilə birlikdə aparıb və yekunlaşdırıblar.

Əslində, OCCRP-in feyk qurum olduğunu, Azərbaycana düşmən münasibəti ilə seçilən dairələrin ölkəmizə qarşı informasiya müharibəsində bir vasitə kimi istifadə edildiyini biz hamıdan, hətta fransız həmkarlarımızdan da yaxşı bilirik. Çünki Azərbaycanın beynəlxalq aləmdəki istənilən uğurundan dərhal sonra bu qurum vay-şivən qoparır ki, bu Cənubi Qafqaz respublikasında korrupsiya halları baş alıb gedir. Sonra məlum olurdu ki, korrupsiya halları ABŞ və Avropa ölkələrində istənilən MDB ölkəsindəkindən qat-qat artıqdır.

Məlum məsələdir ki, ABŞ-dakı korrupsiyanın və rüşvətxorluğun ağır fəsadlarını ən çox hiss edən ölkələrdən biri Azərbaycandır. Heç kəsin yadından çıxmayıb. Ötən əsrin doxsanıncı illərində işğalçı Ermənistan Azərbaycan ərazilərinin xeyli hissəsini qəsb edəndə ABŞ rəhbərliyi işğala məruz qalmış Azərbaycanı "Azadlıq aktına 907-ci düzəliş" adlı saxta sənədlə cəzalandırmış, Ermənistana isə hərbi, texniki, maddi yardım göndərmişdi. Bu ədalətsizlik, haqsızlıq göydən düşmüşdümü?. Yox! Bu haqsızlıq ABŞ-dakı erməni diasporunun və lobbisinin vəsaiti ilə satın alınmış insanlar tərəfindən törədilmişdi. Yəni öz nəfsinə sahib çıxa bilməyərək rüşvət alan, bütün dünyanın gözü qarşısında olan "ağa qara deməyi" vicdanına sığışdıran insanlar hansı üzlə "Azərbaycanda korrupsiya faktları var" deyə bilirdilər?

Yaxud, bu satılmışlar Azərbaycanda hansısa at oğrusunun, məişət zəminində kimisə döyən, öldürən şəxsin cəzalandırılması zamanı dərhal vay-şivən qaldırırlar ki, insan hüquqları pozuldu. Ancaq dövlət səviyyəsində vəhşilik edərək Xocalı soyqırımı törədiləndə, yaxud İrəvanın mərkəzində parlament binası güllələnən ediləndə insan hüquqları Qərbdə heç kəsin yadına düşmür. Çünki dilləri qısadır. Satılıblar. Erməni diasporu bəzi ABŞ və Qərb siyasətçilərini mal bazarından qoyun-keçi kimi nəğd pulla alır. Elə isə korrupsiya əməlləri kimdədir?

Yeri gəlmişkən, bu ilin yayında ABŞ-də korrupsiyada təqsirli bilinən ermənipərəst senator Bob Menendes müstəqil namizəd kimi seçkidən çəkildiyini və siyasi karyerasına son qoyduğunu bildirmişdi. Xatırladaq ki, bu adam ömrü boyu rüşvətxor və korrupsioner olsa da, axır ki, bu il çökdürüldü. Nyu-York Məhkəməsi onu qəsbkarlıqda, ədalət mühakiməsinə mane olmaqda, Misir və Qətərlə əlaqəsi olan iş adamlarından xidmət müqabilində rüşvət almaqda təqsirli bilib. Onun Nyu-Cersidəki evində axtarış zamanı Federal Təhqiqatlar Bürosunun agentləri evdə gizlədilən təxminən yarım milyon dollar məbləğində nağd pul, həmçinin təxminən 150 min dollar dəyərində qızıl külçələr və dəbdəbəli "Mercedes-Benz" kabrioletini istintaqa təqdim etmişdilər. İndi təkrarən soruşuruq, korrupsiya hansı ölkədədir?

Qoy danışsınlar. Ölkəmizə qarşı hansı iftiranı, cəfəngiyyatı səsləndirirlərsə, səsləndirsinlər. Onsuz da atdıqları bütün oxlar indiyədək olduğu kimi, bundan sonra da daşa dəyəcək. Çünki onların əzmək istədikləri Azərbaycan otuz il əvvəldə qalıb. Azərbaycana qarşı hürən çox olsa da, indi heç kəs bizimlə diktə ilə danışa bilməz.

Bu məqamda başqa bir faktı da yada salaq. Söhbət könüllü olaraq erməni nökərinə çevrilmiş ABŞ konqresmeni Frank Peloninin Bakıdan qaçmasından gedir. Bizim Bakıda keçiriləcək COP29 tədbirinə dünyanın hər yerindən qonaq dəvət etməyimizdən həvəslənərək, Azərbaycana gələn Frank Peloni noyabrın 18-dən COP29-da iştirak etməyi, Bakıda çoxsaylı görüşlər keçirməyi planlaşdırırmış.

Lakin Bakı Hava Limanında Azərbaycan mediasına yaxalanan Frank Peloni jurnalistlərin suallarını cavablandırmayıb. Yəni öz ölkəsində oturub xalqımızı təhqir etməsi az imiş kimi, paytaxtımızda da bizə qarşı hörmətsizlik edədi. Ona görə də yerli QHT rəhbərləri və ictimai fəallar bu erməni nökərinin qalacağı hotelin qarşısına toplaşdılar. Onların dağılışmasını gözləmək üçün ABŞ konqresmeni maşrutunu dəyişərək, otelə getməyib, qəfil COP29-da görünüb. Burada da yerli media ondan Azərbaycana qarşı iftira kampaniyaları üçün hər ay erməni lobbi təşkilatlarından nə qədər vəsait alması, lobbiçilik xidmətləri üçün tariflərinin neçə dollar olması ilə maraqlanıb. F.Peloni sualları cavablandırmadan COP29-un arxa otaqlarında jurnalistlərdən gizlənməyə çalışıb. Üstəlik, ABŞ-nin qanunvericilik orqanından olan təmsilçilərin iştirakı ilə COP29-da keçirilən brifinqdə iştirak təklif olunsa da, ora da gəlməyib. Azərbaycanın bir qrup qəzəbli QHT rəhbəri və ictimai fəallarının "Pellone, rədd ol!", "Azərbaycan xalqından üzr istə!" şüarları ilə üzləşən ABŞ konqresmeni otelə mühafizəçilərinin və yerli hüquq-mühafizə orqanlarının köməyi ilə daxil olub bilib və bütün görüşlərini ləğv edərək, xəlvəti şəkildə Bakıdan qaçıb. Həmin gün həmkarlarımızdan biri yazmışdı: "Rüşvətxorluğun, satılmağın nəticəsi budur, Peloni!"

Yəni Azərbaycana qarşı danışanlara dövlətimiz də, Prezidentimiz də, xalqımız da necə lazımdırsa, o şəkildə cavab verir. O ki qaldı xaricdəki bədxahlarımıza içəridən xəbər göndərən, məlumat ötürən "özümüzünkülərə" – onlara adamın yazığı gəlir. Məsələn, Xədicə İsmayıl adlı bir "xəbərçi" var. Aman Allah, bir adama necə milyon soydaşı nifrət edə bilər? Bu adam, sözün həqiqi mənasında, bədbəxtdir. Uzun illər onunla eyni "cəbhədə" olanların hamısı artıq xeyli müddətdir ki, haqqın, ədalətin harada olduğunu görüb, öyrəniblər və dəstəkləyirlər. Xədicə isə hələ də bataqlıqdan çıxa bilmir.

Sonda xatırladaq ki, dünya səviyyəli fırıldaqçı, Azərbaycanda özəl maraqları olan və məqsədlərinə çata bilməyən Corc Soros, erməni fondları və s. bu kimi dairələr tərəfindən maliyyələşdirilən, qeyri-şəffaf və bəlli məqsədlər üçün yaradılmış "The Organized Crime and Corruption Reporting Project" (OCCRP) təşkilatının – yuxarıda onun azərbaycancasını da yazmışıq – adından verilən feyk hesabatlara uyaraq ölkəmizə qarşı aparılan şər-böhtan kampaniyalarında bilavasitə iştirakçı qismində çıxış edən bəzi KİV-lər Azərbaycan haqqında ortaya atılmış yalan iddiaları tirajlamaqla hansı ünvanlara "xidmət göstərdiklərini" gizlədə bilmirlər.

Hamıya gün kimi aydındır ki, OCCRP-nin büdcəsinin Avropa İttifaqı, Avropa ölkələri, xüsusilə ABŞ-dan aldığı vəsait hesabına formalaşdırılır. Yaydığı materiallar isə ABŞ kəşfiyyatı tərəfindən "kəşf edilir". Yəni bizim üçün gizli qalan heç nə yoxdur.

**İttifaq MİRZƏBƏYLİ**

# "Şimal–Cənub" marşrutunda yaşıl işartı

**(əvvəli 1-ci səhifədə)**

Kremlin rəsmi məlumatına görə, Prezident Vladimir Putin beynəlxalq marşrutun inkişafına nəzarəti Baş nazirin müavini Vitali Savelyevə həvalə edib. O, Qazaxıstana dövlət səfəri ərəfəsində Savelyevi özünün "Şimal–Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişafı üzrə xüsusi nümayəndəsi təyin edilməsi haqqında sərəncam imzalayıb. Digər sərəncamla nəqliyyat dəhlizinin idarəetmə strukturu kimi inkişafı üçün xüsusi işçi qrupu yaradılıb. Deyilənə görə, Vitali Savelyev Rusiya "nəqliyyat şəbəkəsinin" ən nüfuzlu simalarından biri sayılır. Hər halda, onun Rusiya iqtisadiyyatının bu seqmentində təsiri kifayət qədər böyükdür. Bu təsirin dairəsi mülki aviasiyadan dəmir yolu sisteminə qədər uzanır. Yəni, onun prezidentin xüsusi nümayəndəsi kimi "Şimal–Cənub" layihəsini "durğunluq nöqtəsindən" tərpədəcəyinə ümidlər yaranıb.

**ARAYIŞ:** *1990-1996-cı illərdə Vladimir Putin Sankt-Peterburq meriyasında xarici əlaqələr komitəsinin sədri olduğu zaman V.Savelyev SSRİ–Amerika birgə "Dialoq-İnvest" müəssisəsinə, 2009-2020-ci illərdə isə "Aeroflot" aviaşirkətinə rəhbərlik edib. V.Savelyevin rəhbərliyi dövründə "Aeroflot" dünyanın ən böyük 20 hava daşıyıcısı sırasına daxil olub. Sonra o, Rusiya Nəqliyyat Nazirliyinə rəhbərlik edib. 2024-cü ilin mayında V.Putinin fərmanı ilə Rusiya Federasiyası Baş nazirinin müavini təyin edilib. Cari ilin iyun ayından isə V.Savelyev həm də "Rusiya Dəmir Yolları" ASC İdarə Heyətinin sədri statusundadır.*

Aydın məsələdir ki, belə təsiredici "baqajla" V.Savelyev üçün "Şimal-Cənub" marşrutunun inkişafı ilə bağlı əsas fiqurlarla, ilk növbədə, Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan prezidentləri və bu dövlətlərin iqtisadi və nəqliyyat blokunun nazirləri ilə ünsiyyət qurmaq asan olacaq. V.Savelyevin rəhbərlik etdiyi işçi qrupunun tərkibinə Rusiyanın Nəqliyyat naziri Roman Starovoyt, Prezidentin müşaviri İqor Levitin (keçmiş nəqliyyat naziri), "Rusiya Dəmir Yolları"nın baş direktoru Oleq Belozerov və nəqliyyat nazirinin müavini Dmitri Zveryev daxildirlər.

***

Bir sözlə, "Şimal–Cənub" layihəsi, nəhayət, Moskva üçün icra strukturları və koordinasiya mərkəzləri üzərində idarəetmənin üst strukturu rolunu oynayacaq kifayət qədər ciddi alətə çevrilir.

**Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov mövzu ilə bağlı qəzetimizə danışarkən** Kremlin yeni təyinatının Rusiya hökumətinin "Şimal–Cənub"



marşrutuna diqqətinin və bu qovşağın əhəmiyyətinin göstəricisi olduğunu vurğuladı: "Doğrudur, Vitali Savelyevin səlahiyyətləri Rusiya ərazisinə aiddir. Yəni, beynəlxalq nəqliyyat dəhlizinin Rusiya ərazisindən keçən hissəsində mövcud yolun təkmilləşdirilməsi, ikinci, üçüncü xətlərin çəkilməsi planları var. Texniki modernləşdirmə kimi məsələlərin operativ həlli üçün məhz Baş nazirin müavininin Prezident Vladimir Putinin xüsusi nümayəndəsi təyin edilməsi faktının özü çox şey deyir. Bu beynəlxalq marşrutun Azərbaycan ərazisindən keçən hissəsində heç bir problem yoxdur. Biz bütün işləri layihədə göstərilən müddəti qabaqlayaraq həyata keçiririk. Onu da nəzərə çatdırım ki, Azərbaycan İran Astarasına qədər yolları çəkib, körpüləri, terminalları da inşa edib. Əsas problem İran tərəfindədir. Rəsmi Tehranın Rəşt–Astara yolunun inşasını ləngitməsi marşrutun işə düşməsini də uzadır. Məhz İranın təqsiri ucbatından bu strateji layihə illərlə süründürməçiliklə müşayiət olunur. İndi Vitali Savelyevin işi sürətləndirmək üçün İranlı həmkarlarına nə dərəcədə təsir göstərə biləcəyini deyə bilmərik. Əlbəttə, burada həm də Prezidentin xüsusi nümayəndəsinin nüfuzundan söhbət gedir. Bütün hallarda Rusiya hökumətinin bu marşruta artan diqqəti ondan xəbər verir ki, Şimal–Cənub onun üçün çox vacib layihədir. Bu nöqteyi-nəzərdən, Moskva Bakı ilə əməkdaşlığı daha da möhkəmləndirmək niyyətindədir".

R.Musabəyov Rusiya və Azərbaycanın birgə səyi ilə İran ərazisində inşaat işlərinin sürətləndirəcəyinə ümid etdiyini dilə gətirdi: "Layihə təkcə Rəşt–Astara marşrutunun çəkilməsi ilə bitmir. Axı, oradan Əmirabad limanına kimi olan mövcud yolların da yenilənməyə ehtiyacı var. Rusiya burada çalışır ki, həmin ərazidən keçən yollar daha geniş və sürətli olsun. Yəni, qatarlar Rusiyadan Azərbaycan ərazisindən keçərək qısa vaxtda İranın müvafiq limanlarına və Fars körfəzinə çatsın. Bir daha demək istərdim ki, bu məsələlər öz həllini İran ərazisində tapmalıdır. Bu işlərin öhdəsindən gəlməkdə Savelyevə uğurlar diləmək istərdik. Azərbaycana gəldikdə isə Zəngəzur dəhlizinə alternativ olacaq Araz boyu dəmir və avtomobil yolunun inşası yekunlaşmaq üzrədir. Sadəcə, Tehran artıq sözdən konkret əmələ keçməlidir. Əsas məsələ bundan ibarətdir".

Şimaldan Cənuba uzanacaq dəmir və avtomobil yolları üzərində yaşıl işığın görünməyə başladığını söyləyə bilərik. Bu qlobal layihə Rusiyanın iqtisadi fəaliyyətindən kənara çıxan, onun müttəfiqləri və tərəfdaşlarını birləşdirəcək kəmərin bir hissəsi olan, onların da məsuliyyət dairəsini müəyyən edən böyük işlərin icrasını nəzərdə tutur. "Şimal–Cənub" beynəlxalq nəqliyyat marşrutunu reallaşdıracaq inkişaf qrupu bir neçə istiqamətdə hərəkət etməlidir. Bu beynəlxalq layihəyə Azərbaycan dəmir yolu seqmenti üçün marşrutu həyata keçirməkdən ötrü tamhüquqlu texniki-iqtisadi əsaslandırmanın işlənib hazırlanması, həmçinin Şimal istiqamətini inkişaf etdirən tikinti və strukturların konsorsiumunun formalaşdırılması üçün lazımi addımların atılması daxildir.

Bundan əlavə, "Şimal–Cənub"un iqtisadi zonasında infrastruktur təminatı və logistik mühitin inkişafı problemləri də həll edilməlidir. Mövcud büdcə vəsaitləri daxilində, bəzi hallarda isə özəl biznes səbəkəsinin iştirakı ilə mövcud yük axınlarının monitorinqi və darboğazlığın aradan qaldırılmasının sistemli təhlili aparılmalıdır.

***

Avrasiya İnkişaf Bankının analitik monitorinq məlumatlarında göstərilir ki, 2023-cü ildə Azərbaycan ərazisi vasitəsilə Rusiyadan İrana 0,52 milyon tondan çox yük və 1,7 min konteyner daşınıb. Bu zaman üç avtomobil keçid məntəqəsi – Yaraq– Qazmalar, Tagirkent–Qazmalar və Novo-Filyadan istifadə olunub. Bu göstərici 2020-ci illə müqayisədə üç dəfə artım deməkdir.

**Rusiyanın "Şimal–Cənub" layihəsini uzunmüddətli nəqliyyat qovşağı kimi nəzərdən keçirdiyinə diqqəti yönəldən siyasi analitik Fərhad Məmmədov** Moskvanın qarşıdakı on-on beş il ərzində Qərblə münasibətlərini normallaşdırmasının real olmadığını bildirdi: "Rusiya Cənubun nəhəng bazarlarına çıxmaqdan ötrü quru yollardan yararlanmağı və bu zaman "Şimal–Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinə xüsusi önəm verir. Həmin dəhlizin iki qolu Cənubi Qafqaz bölgəsinə düşür. Söhbət Dərbənddən Azərbaycana, buradan İran ərazisinə



keçəcək dəmir yolundan gedir. İkinci qol Abxaziyadan Gürcüstana, oradan Ermənistana, daha sonra İrana aparan marşrutdur. Bu layihələrin reallaşması qarşısında iki problem durur. Birinci problem Abxaziya ərazisindən yolun həlelik bağlı olmasıdır. İkinci isə Azərbaycanla Ermənistana bağlı məsələdir ki, burada da problem öz həllini gözləyir. Avtomobil yoluna gəldikdə isə Gürcüstana Yuxarı Larsdan marşrut mövcuddur. Sonra marşrut yenə Azərbaycan ərazisindən keçir. Yəni, Cənubi Qafqaz Rusiyanın transmilli "Şimal–Cənub" layihəsində iki seqment üzrə mövqeyə malikdir. Alternativ dəmir yolunun yaxın gələcəkdə işə düşəcəyi real görünmür. Avtomobil yolu dediyimiz marşrut üzrə fəaliyyət göstərə bilər. Lahiənin növbəti halqası Xəzər dənizi vasitəsilə İrana çıxışdır. Bu plan Rusiyanın dəniz limanlarının inkişafı strategiyasında öz əksini tapıb. Amma bunun üçün təkcə Rusiya ərazisində yox, eyni zamanda, İranın limanlarına da külli miqdarda sərmayə qoymaq lazımdır. Bu vəsaitin hansı mənbələrdən əldə ediləcəyi ərtafında müzakirələr hələ də davam edir".

Xəzərin Şərq sahilində də maraqlı prosesləri getdiyini qeyd edən F.Məmmədov hazırda Qazaxıstan və Türkmənistan ərazilərindən dəmir yollarının çəkilişinin aktual olduğunu dedi: "Burada əsas məqamlardan biri bu yolun Özbəkistandan keçməklə, Əfqanıstana çıxış əldə etməsidir. Maraqlıdır ki, keçən həftə Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu Kabula səfərində bu barədə danışıqlar aparıdı. Nümayəndə heyətinə, bizim yaxşı tanıdığımız, baş nazirin müavini Overçuk da daxil idi. Bu, Moskvanın Talibanla münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Dövlət Dumasında Talibanın terrorçu təşkilatlar siyahısından çıxarılması məsələsinin gündəliyə salınması təsadüfi sayıla bilməz. Danışdığımız layihələr fonunda iqtisadi yanaşmadan savayı, həm də siyasi səylər göstərmək lazımdır. Rusiya Mərkəzi Asiyaya, oradan Hindistana çıxışda siyasi çətinliklə üzləşməyəcək. Amma sərmayə baxımından Moskvanın Çin kimi nəqliyyat infrastrukturuna çoxmilyardlıq maliyyə yatırımaq imkanı yoxdur. Onun üçün ən optimal variant layihələrə cəlb olunan ölkələr də reallaşmada iştirak etsinlər. Məhz bu müstəvidə ən məqbul vəziyyətdə olan ölkə Azərbaycandır. Çünki öz ərazisindən keçəcək yollara öz sərmayə qoyur. Bununla da beynəlxalq nəqliyyat marşrutlarında rəqabətə dözümlü tərəf Azərbaycan sayılır".

***

Hazırda Rusiya–Azərbaycan nəqliyyat infrastrukturu ildə 9-12 milyon ton həcmində yük axını və tranzitdaşıma qabiliyyətinə malikdir. "Şimal–Cənub" beynəlxalq dəhlizi vasitəsilə yük daşımalarının artımını qorumaq üçün "Rusiya Dəmir Yolları" ASC müəyyən yüklərin daşınması üçün tətbiq etdiyi güzəştlərin müddətini 2025-ci ilə qədər uzadıb. O cümlədən qara metalların Azərbaycanla sərhəddə yerləşən Samur sərhəd-keçid məntəqəsi və daha sonra Azərbaycan–Gürcüstan sərhədindəki Böyük Kəsik–Qardabani sərhəd keçid məntəqəsi vasitəsilə daşınmasına 50 faiz endirim tətbiq edilib. Hazırda Azərbaycan Rusiya ilə sərhəd zonasında marşrut xəttinin yenidən qurulması, Rusiya isə Dərbənd–Samur hissəsində və Dərbənd sərhəd-keçid məntəqəsində layihə-axtarış, tikinti-quraşdırma işlərini həyata keçirir. Marşrutun yükkeçirmə qabiliyyətinin 2027-ci ilin sonuna kimi 20 milyon tona çatdırılması planlaşdırılır.

Beləliklə, Şimaldan Cənuba yüklərin Azərbaycan vasitəsilə daşınması reallaşmağa doğru gedir. Qalır Tehranın bu beynəlxalq haba qoşulması...

**İmran BƏDİRXANLI**
**XQ**

# AMEA-nın İnkişaf Konsepsiyası və "Yol xəritəsi"

## II MƏQALƏ

AMEA üçün beynəlxalq uğurlu təcrübə çox maraqlıdır. İşçi qrupunun ilk tədbirində müxtəlif dövlətlərin inkişaf konsepsiyaları müqayisəli müzakirə edilmişdir. Müzakirələr ABŞ, Çin, Rusiya və Türkiyədə hazırlanmış inkişaf konsepsiyalarının müqayisəli təhlilləri üzərində qurulmuşdu.

Burada daha geniş əhatədə seçim etmək olardı. Ancaq vurğulanan dövlətlərin hər birinin müasir mərhələdə elmlə bağlı inkişaf konsepsiyaları bütün tendensiyaları özündə ehtiva edir. Xüsusilə, ABŞ və Çin elmə iki fərqli və aparıcı yanaşma ünvanlarıdır.

### ABŞ təcrübəsi

Amerika elm sahəsində çox böyük uğurlar qazanmış və indi də həmin istiqamətdə yoluna davam edən ölkədir. Amerikalılar dünya miqyasında istedadlı alimləri işə cəlb edə bilir və onların yaradıcılıq potensialından maksimum dərəcədə yararlana bilirlər. İndi Nobel mükafatı laureatlarının əksəriyyətinin ABŞ-də yetişdiyini az qala aksiomatik bir fakt kimi qəbul edirlər. Bu prosesdə, təbii ki, elmin inkişaf konsepsiyası məsələsi də aktualdır. Lakin Amerikada bu problem fərqli həll edilir.

İşçi qrupuna təqdim edilən məruzədə göstərilmişdir ki, ABŞ çox fərqli mövqelərdən elmin inkişaf konsepsiyasına yanaşır. Orada yekun baxış müxtəlif yanaşmaların sintezində formalaşır. Ona görə də hər bir təşkilatın öz inkişaf konsepsiyası ola bilər. Bu, Amerika təcrübəsini iki aspektdən Azərbaycan üçün əhəmiyyətli edir.

Birincisi, elmin strateji inkişafına müxtəlifliyin sintezində yanaşma kimi bir təfəkkür üsulu formalaşır.

İkincisi, elmi fəaliyyətin özü fənlərarası (interdisiplinar) yaradıcılıq üsuluna öncədən üstünlük verməyə əsaslanır. Bu tendensiya hazırda dünya elmində aparıcı yanaşma hesab olunur. Deməli, Azərbaycan üçün burada təcrübə mübadiləsi baxımından kifayət qədər geniş informasiya bazası mövcuddur.

### Çin təcrübəsi

Çin təcrübəsi işçi qrupunda dinlənilən məruzəyə görə, iki cəhətdən Azərbaycan üçün əhəmiyyətlidir. Birinci cəhət ondan ibarətdir ki, Çində akademik elmi təşkilatlanma kifayət qədər inkişaf etmişdir. Hətta hazırda Çin Elmlər Akademiyası dünya reytinqində bir sıra faktorlara görə liderdir. Məsələn, 2022–2024-cü illərdə "Nature" jurnalında yeniliyi olan məqalələrin dərcinə görə reytinqdə Harvard kimi universiteti və İBM şirkətini qabaqlayaraq birinci yerə çıxmışdır. Başqa nümunələr də vardır.

AMEA isə Çinlə əməkdaşlığı getdikcə genişləndirir və inkişaf etdirir. 2024-cü ildə AMEA rəhbərliyi Çinin Hebey Sosial Elmlər Akademiyası ilə əməkdaşlıq sənədi imzalamışdır. Bütövlükdə isə əməkdaşlıq Çinin bir neçə elm və təhsil müəssisələrini əhatə edir.

Çinin elm sahəsində sürətli yüksəlişi fonunda AMEA-nın əməkdaşlığı genişləndirməsi və dərinləşdirməsi 2025–2030-cu illərdə Çin təcrübəsində elmi fəaliyyətin təşkili və elmi yaradıcılığın fənlərarası metodologiyasının inkişafı baxımından vacib məqamlardan bəhrələnməyə imkan yaradar.

Çin təcrübəsinin başqa bir mühüm cəhəti bu ölkənin artıq elmi ideyalar yaradan olması ilə bağlıdır. Bizim üçün daha aktual olan amil isə Çində akademik sistemin çox uğrulu olmaq təcrübəsinin mövcudluğudur.

Bütün bunlara görə, qarşılıqlı təcrübə mübadiləsi AMEA-nın qarşıdakı 5 il müddətində yeni səviyyədə elmi ideya yaradan təşkilata çevrilməsi (çünki AMEA ənənəsində yeni elmi ideyalar yaratmaq nümunəsi mövcuddur) üçün çox faydalı ola bilər. AMEA qarşıdakı beş ildə bu prosesi genişləndirərək, bütövlükdə, Azərbaycanın elmi ideyalar yaradan ölkəyə çevrilməsi üçün geniş imkanlar əmələ gətirə bilər.

Onu vurğulayaq ki, məhz bu məqamda AMEA-nın İnkişaf Konsepsiyasının ölkənin digər elmi və təhsil müəssisələri ilə əlaqələri aktuallıq kəsb edir. Bəlkə, indiki mərhələdə Azərbaycan elmi üçün bunun strateji əhəmiyyəti müqayisə edilməz dərəcədə böyükdür.

### Türkiyə təcrübəsi

AMEA üçün Türkiyə təcrübəsinin anlamı başqa təcrübələrdən fərqlənir. Burada həm konkret elmin inkişaf konsepsiyasının məzmununun müəyyən edilməsi, həm də türk dövlətlərinin elmi təşkilatlarının əməkdaşlığının səmərəli qurulması məqamları mövcuddur. İşçi qrupu problemi bu iki istiqamətin qarşılıqlı əlaqəsində müzakirə etmişdir. Türkiyənin elmi mərkəzlərinin müxtəlif sahələrdə inkişaf konsepsiyasının ümumi yanaşma prizmasında təhlili göstərmişdir ki, qardaş ölkədə də elmin strateji inkişaf konsepsiyasında müxtəlifliyin vəhdəti üstünlük təşkil edir. Burada əsas uğur Türkiyədə nəzəri elmi kəşflərin çevikliklə praktiki tətbiqinin tərəqqi etməsi ilə bağlıdır. Azərbaycan bu aspektdə Türkiyə təcrübəsindən yararlana bilər.

### Rusiya təcrübəsi

Rusiya ilə Azərbaycanın son 300 ildə eyni sosial-mədəni və elmi mühitdə olmaları təcrübə məsələsində özəl situasiya yaradır. Edilən məruzədən aydın oldu ki, Azərbaycan Rusiyada elmin inkişafı konsepsiyası kontekstində daha çox ümumi yanaşma, elmi fəaliyyətin təşkili və alınan nəticələrin çevik tətbiqi imkanları istiqamətlərində təcrübə mübadiləsi apara bilər. Hələlik bu aspektdə Rusiyanın tərif ediləcək bir uğuru olmasa da, ümumi inkişaf tendensiyası və imkanların genişlənməsi baxımından Azərbaycan üçün maraqlı olan fikirlər kifayət qədərdir.

### Beynəlxalq təcrübə

Belə aydın olur ki, AMEA bir sıra aparıcı elmi inkişaf konsepsiyalarının müqayisəli təhlilini aparmaqla 2025-2030-cu illərdə elmin inkişaf konsepsiyası üçün əhəmiyyəti olan məqamları müəyyən edə bilər. Xarici ölkələrin təcrübəsi həm də ona görə maraqlıdır ki, onlar keçdikləri yolda müəyyən nəticələr əldə etmişlər. Məsələn, Azərbaycan da müxtəlif elmi inkişaf konsepsiyalarını yaratmalı və onların sintezində yekun konsepsiya hazırlamalıdırmı? AMEA beynəlxalq təcrübəni öyrənərək hansı seçimə üstünlük verməlidir?

Bu suala indi tam cavab vermək mümkün deyildir. Çünki AMEA Azərbaycanda elmi təcrübənin inkişaf konsepsiyası kontekstində detallı tədqiqini aparmalıdır. Təbii ki, burada boşluq yoxdur, lakin inkişaf konsepsiyası məsələsi xüsusi yanaşma və təhlil metodunun tətbiqini tələb edir. Buradan AMEA-nın ölkənin müxtəlif elm və təhsil strukturları ilə inkişaf konsepsiyası aspektində əlaqələrinin əhəmiyyəti önə çıxır.

### Elm və təhsilin inteqrasiyası

Azərbaycanda elmlə təhsilin inteqrasiyası hazırda aktual məsələlərdən biridir. Doktorantura vasitəsilə AMEA birbaşa təhsillə əlaqəlidir. Bundan başqa, Elm və Təhsil Nazirliyi ilə əməkdaşlıq strateji əhəmiyyət kəsb edir. AMEA-nın İnkişaf Konsepsiyasında elmlə təhsilin inteqrasiyası məsələsi bu məqamlar nəzərə alınaraq hazırlanır.

Doktorantura pilləsinin təkmilləşdirilməsi inkişaf konsepsiyasında ayrıca yer tutur. O cümlədən, yüksək ixtisaslı kadr hazırlığı elmlə təhsilin hansı məzmunda inteqrasiya olunacağından birbaşa asılıdır. Ayrılıqda elm və təhsil sferalarında yüksək ixtisaslı kadr hazırlığı real görünmür. AMEA-da doktorantura sisteminin təkmilləşdirilməsi zərurəti bu ehtiyacla bağlıdır. AMEA bu məqsədə dünyanın aparıcı ölkələrinin təcrübələrinə dərindən bələd olmaqla çata bilər.



Eyni zamanda, bu istiqamətdə beynəlxalq təcrübə ilə yerli təcrübənin sintezi məsələsi ön plandadır. Burada əsas məqsədlərdən biri elmi yaradıcılığın nəticələrinin praktiki tətbiqini aparıcı ölkələrin standart və normalarına uyğunlaşdırmaqda elmlə təhsilin inkişaf kurslarının harmoniyasına nail olmaqdan ibarətdir.

Bundan başqa, işçi qrupunda elmlə təhsilin inteqrasiyası kontekstində belə bir fikir vardır ki, ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların təsnifatı nəzəri aspektdə interdisiplinar metodologiyanın əsas götürülməsi şərti ilə yeniləşməlidir. Burada əsas ağırlıq doktorantın fənlərarası yaradıcı təfəkkürünün inkişafına yönəldilməlidir. Doktorant hazır biliyə deyil, daim yeniləşə bilən biliyin necə yaradılmasına istiqamətlənməlidir.

Başqa bir aktual məqam doktorantların azərbaycançılıq məfkurəsi kontekstində Azərbaycan cəmiyyətinin bütün sferalarını əhatə edən sosial, siyasi, humanitar, ictimai, fəlsəfi, filoloji, kulturoloji, mənəvi, əxlaqi, mədəni və digər mövzuları tədqiq etmələri gərəkliyi ilə bağlıdır.

### Yekun mənzərə

AMEA-nın 2025-2030-cu illəri əhatə edən İnkişaf Konsepsiyası ilə bağlı yuxarıda vurğuladığımız xüsusiyyətlər onu göstərir ki, bu sənədə ciddi ehtiyac vardır. AMEA rəhbərliyi həmin məqama ayrıca həssaslıqla yanaşır və o istiqamətdə nəticəverici fəaliyyətə başlamışdır. Bunun üçün təşkilatda formalaşdırılmış fəaliyyət qrupu sistemli və davamlı olaraq konsepsiyanın ərsəyə gəlməsinə çalışır.

Bu vəzifənin öhdəsindən gəlməklə Azərbaycan Milli Elmlər Akademiyası bir neçə istiqamət üzrə motivedici təsir göstərə bilər. Hər şeydən öncə, AMEA özünün yeniləşmə kursu çərçivəsində qarşıdakı beş il müddətində konkret fəaliyyət planını müəyyən etmiş olur. Ölkənin baş elmi təşkilatının yeniləşmə kursu ilə elmin inkişaf konsepsiyası və "Yol xəritəsi"ni sıx qarşılıqlı əlaqə halına gətirə bilməsi xüsusi əhəmiyyəti olan prosesdir.

Digər tərəfdən, AMEA-nın İnkişaf Konsepsiyası və "Yol xəritəsi" ilə Azərbaycanın bütövlükdə elm və təhsil sisteminin inkişafına yeni təkan verə bilər. Çünki AMEA elə bir təşəbbüs irəli sürür ki, ölkənin strateji inkişaf kursu kontekstində son dərəcə vacib məsələlərin həlli zərurətini ortaya çıxarır. Bununla, sözün həqiqi mənasında, müstəqil dövlətçiliyin inkişafı baxımından AMEA strateji dövlət qurumu statusunu həm təsdiq edir, həm də çox məsuliyyətli, işgüzar və strateji düşüncəyə əsaslanan mövqe tutduğunu göstərir.

Əlbəttə, AMEA-nın İnkişaf Konsepsiyası və "Yol xəritəsi" üzrə müzakirələr davam edir və onun yeni məzmun çalarları müəyyən olunmaqdadır. Ancaq indidən aydındır ki, bu proses Azərbaycanın strateji inkişaf kursu kontekstində ölkə elminin perspektivi baxımından yeni bir mərhələnin əsasını qoya bilər. O mərhələ Türk dünyasında və MDB-də ölkənin strateji inkişaf xətti ilə elmin inkişaf strategiyasını uyğunlaşdırmaq istiqamətində nümunə ola bilər. Zira, məsələnin bu aspekti daha dərin və əhatəli araşdırma tələb edir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Beynəlxalq Könüllülər Günü**

# Ürəklərin hökmü ilə...

**Könüllülük qanunvericiliklə qadağan edilməyən işlərin, xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyətdir. Bu, həm də öyrənmək, başqalarına kömək etmək və şəxsin komfort zonadan kənarda tapa biləcəyi bacarıqları aşkara çıxarmaqdır.**



XX əsrin ikinci yarısından etibarən könüllülük, həmrəylik, sosial məsuliyyət kimi ali dəyərlər sistemləşdirilərək, koordinasiya olunmağa başlayıb və beləliklə, könüllülük dünyada kütləvi bir sosial fəaliyyətə çevrilib. 1985-ci ildə iqtisadi və sosial inkişaf naminə hər il dekabrın 5-nin BMT-nin Baş Məclisi tərəfindən Beynəlxalq Könüllülər Günü kimi qeyd edilməsi barədə qərar verilib.

Müasir Azərbaycanda könüllülük sahəsində real inkişaf ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlayıb. Bu prosesə insanların könüllü şəkildə cəlb edilməsi, onların sahə təcrübəsindən yararlanmağa mühüm önəm verilib. Beləliklə, 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi (indiki Gənclər və İdmanNazirliyi), BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başlayıb. 1998–2000-ci illərdə bu proqramın nəticəsi olaraq ölkədə genişşəbəkəli könüllü komandası yaradılıb və bu prinsiplərinin böyük auditoriyaya təbliğinə start verilib.

Azərbaycanda könüllülük fəaliyyətinin yeni inkişaf mərhələsində təkanverici rolu 2009-cu ildə Milli Məclisin qəbul etdiyi "Könüllü fəaliyyət haqqında" Qanun təşkil etdi. 10 maddədən ibarət bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu. 2013-cü ildə Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yanında aktiv könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı (AKT) yaradıldı.

Ölkəmizin güclü bir dövlətə çevrilməsində, insanların rifahının getdikcə yaxşılaşmasında könüllülər də mühüm rol oynayırlar. Xüsusilə son illərdə bu hərəkat daha da genişlənib. Belə ki, ölkəmizin ev sahibliyi etdiyi "Eurovision-2012" mahnı müsabiqəsi, 2015-ci ildə birinci Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, "Formula–1", bu il keçirilən COP29 və digər irimiqyaslı tədbirlərə on minlərlə könüllü cəlb olunub.

Prezident İlham Əliyevin 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında sərəncamı onlara diqqətin bariz nümunəsidir. Sərəncamın məqsədi gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etməkdir.

Həmsöhbət olduğum könüllülər də bu fəaliyyətin onların şəxsi, sosial və iş həyatında önəmli başlanğıc olduğunu qeyd etdilər. 4 ildən çox könüllü olmuş **Azərbaycan dili və ədəbiyyatı müəllimi Səbinə Alızadə bildirdi ki,** bu fəaliyyət şəxsi inkişaf, təcrübədir, uğurlu karyeranın başlanğıcıdır:

– Könüllü olanda insan özünü yenidən kəşf edir, görmədiyi uğurlu tərəflərini təhlil edir. Könüllülük mənə yeni dostlar qazandırıb və onlarla birgə inkişaf etmişəm. Nitqimin inkişafı, dünyagörüşümün artması, məlumatlı olmağım könüllülük fəaliyyətimin nəticəsindədir. DOST, ASAN xidmətlərdə, bir sıra nazirliklərdə könüllü fəaliyyətim zamanı qazandığım təcrübə karyera inkişafıma kömək olur.

**6 ildən bəri müxtəlif dövlət qurumlarında könüllü fəaliyyət göstərən Azərbaycan Dövlət İqtisad Universitetinin 3-cü kurs tələbəsi Nəzirə Rəhimli dedi ki,** onun üçün könüllülük Vətənə, dövlətə, xalqa xidmətin əməllə sübutudur:

– Fövqəladə Hallar, Elm və Təhsil nazirliklərində, Prezident Administrasiyasında, Medianın İnkişafı Agentliyi və digər dövlət qurumlarında könüllülük fəaliyyətim var. Eləcə də COP29 kimi beynəlxalq tədbirlərdə də könüllü olmuşam. Bu gələcək həyatımın kilometrlərlə məsafəsinin başlanğıcıdır. Ölkəmizdə olan könüllü təşkilatların fəalları olaraq, Müzəffər Ali Baş Komandanımızın ətrafında sıx birləşərək, bu hərəkatın daha çox insana çatması və geniş vüsət alması üçün əlimizdən gələni əsirgəməyəcəyik. Amalımız Vətənimizə xidmətdir.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

---

**Bələdiyyə seçkisi**

# Namizədlər 7 gün müddətində qeydə alınırlar



**Gələn il yanvarın 29-na təyin edilən bələdiyyə seçkiləri ilə əlaqədar namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin dairə seçki komissiyasına təqdim edilməsi müddəti məlum olub. Bu, Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planında əksini tapıb.**

Seçki Məcəlləsinin 58.1, 94.3.1-ci maddələrinə əsasən, namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18:00-dək namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərini dairə seçki komissiyasına təqdim etməlidir. Bələdiyyə seçkiləri ilə əlaqədar bu müddət 2025-ci il dekabrın 10-da başlayıb, dekabrın 30-u saat 18.00-dək davam edəcək.

Namizədin qeydə alınması isə Seçki Məcəlləsinin 60-cı maddəsi ilə tənzimlənir. Bu maddəyə əsasən, müvafiq seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra 7 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməli, namizəd qeydə alındıqda müvafiq seçki komissiyası qeydiyyat barəsində qərarında onun müvafiq siyasi partiya, siyasi partiyaların bloku tərəfindən irəli sürüldüyünü göstərməlidir. Qeydiyyat barədə qərarda onun qəbul olunduğu tarix və vaxt da göstərilir.

Namizədin qeydə alınması barədə qərarın surəti müvafiq seçki komissiyası tərəfindən həmin qərarın qəbul edildiyi gündən etibarən bir gün müddətində namizədə, namizəd irəli sürmüş siyasi partiyanın və ya siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə verilir. Namizədə isə qeydiyyat vəsiqəsi verilir. Onlar barədə məlumatlar qeydiyyatdan sonra 24 saat müddətində media subyektlərinə təqdim edilir. Seçki komissiyaları qeydə alınmış namizədlər barədə məlumatları səsvermə gününə ən azı 15 gün qalmış seçki komissiyasının otaqlarında, məlumat lövhələrində yerləşdirilir.

Yeri gəlmişkən, bələdiyyələr 5 il müddətinə seçilir və bundan öncəki bütün bələdiyyə seçkiləri bu müddətin tamamında və bir qayda olaraq dekabr ayında keçirilib. Budəfəki seçkilər həmin müddətdən bir ay sonraya təsadüf edəcək və beləliklə, 2019-cu ilin dekabrında seçilən bələdiyyələr bir ay artıq fəaliyyət göstərmiş olacaqlar.

***PÜNHAN***
***XQ***

## Bələdiyyə torpağına dair müsabiqə ləğv edilib

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin dekabrın 19-na təyin etdiyi bələdiyyə torpağına dair müsabiqə ləğv edilib. Bu barədə quruma istinadən xəbər verilirr.**

Məlumata görə, bununla bağlı qərarı noyabrın 27-də Göygöl Rayon Məhkəməsi qəbul edib. 16 (066)-34/2024 nömrəli qərardada əsasən Göygöl rayonu Üçtəpə bələdiyyəsinin mülkiyyətində olan 1 200 kvadratmetr torpaq sahəsinin mülkiyyətə verilməsi məqsədilə keçiriləcək müsabiqə dayandırılıb.

***XQ***

# İşığımız sönməsin!

## *Təchizatın dayanıqlığı enerji xidmətinin əsas hədəfidir*

**Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin mühüm tərkib hissələrindən biridir. Enerji təhlükəsizliyi dedikdə, bütün ölkənin, vətəndaşların, cəmiyyətin, iqtisadiyyatın yanacaq və enerji təchizatı ilə təmin olunması, kifayət qədər enerji tədarükünün əldə edilməsi vasitəsilə bu sahədə xarici və daxili təhdidlərdən müdafiəsi nəzərdə tutulur.**

Ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhalinin və iqtisadiyyatın enerji daşıyıcıları ilə etibarlı təminatı, yanacağın və enerji növlərinin şaxələndirilməsi, bərpaolunan enerji mənbələrindən istifadə ilə yanaşı, enerji resurslarından səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, enerjinin səmərəliliyi enerji təhlükəsizliyinə nail olunmasında əhəmiyyətli rol oynayır. Bu baxımdan enerji resurslarından səmərəli istifadə edilməsi dayanıqlı enerji siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib.



Enerji təhlükəsizliyinin təmin edilməsində əhali və qeyri-əhali qruplarının enerji daşıyıcıları ilə etibarlı təminatı, enerji növlərinin şaxələndirilməsi, mövcud enerji resurslarından səmərəli istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Yeri gəlmişkən, qeyri-əhali istehlakçısı dedikdə, elektrik enerjisini müqavilə əsasında satın alan və ondan elektrik qəbulediciləri vasitəsilə istifadə edən hüquqi və ya fərdi sahibkarlıqla məşğul olan fiziki şəxs nəzərdə tutulur.

**Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşı, iqtisadçı-ekspert Yalçın Köçərlinin** "Enerji təhlükəsizliyi: əhali və qeyri-əhali qrupların enerji istehlakının əsas göstəriciləri" adlı məqaləsi də bu barədədir. Məqalə müəllifi yazır:

– Azərbaycanın enerji sektorunda texnoloji inkişafı təşviq etməklə beynəlxalq enerji bazarlarında daha geniş iştirak imkanı yaradan innovativ enerji layihələrinin reallaşdırılması beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıqdan irəli gəlir. Hazırda təbii yanacaq ehtiyatlarının azalması, enerji qiymətlərinin dəyişkən olması, dünya ölkələrinin siyasi, iqtisadi və enerji mənbələri uğrunda maraqlarının toqquşması enerji təhlükəsizliyini təmin etmək üçün dayanıqlı strategiyanın müəyyənləşdirməsini zəruri edir. Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının tövsiyələrinə əsaslanmaqla "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən enerji resurslarından səmərəli istifadə edilməsi, biznes mühitinin müxtəlif sahələrinin tənzimlənməsi çərçivəsində elektrik təchizatının təkmilləşdirilməsi ölkəmizin dayanıqlı enerji siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib.

2024-cü ilin oktyabr ayının 1-nə olan rəsmi məlumatlara əsasən, ölkədə elektrik enerjisi üzrə əhali qrupuna aid istehlakçıların sayı 2 milyon 790 min 344 nəfər, qeyri-əhali qrupuna aid istehlakçıların sayı (Naxçıvan Muxtar Respublikası istisna olmaqla) 188 min 877 nəfər təşkil etmişdir. Əhali və qeyri-əhali qruplarına aid istehlakçıların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təmin etmək üçün "ASAN xidmət", "ASAN Kommunal", kiçik və orta biznes evlərinə və ya elektron hökumət portalı vasitəsilə müraciət edə bilərlər.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətində istehlakçı məmnunluğunun təmin edilməsi istiqamətində müraciət və sorğulara operativ cavab verilməsi "Vətəndaş müraciətləri haqqında", o cümlədən "İstehlakçı hüquqlarının müdafiəsi haqqında" qanunlar rəhbər tutulmaqla həyata keçirilir. Bundan da əsas məqsəd əhali və qeyri-əhali qruplarının müraciətlərinin operativ cavablandırılması, mübahisəli məsələlərin araşdırılması və həlli istiqamətində istehlakçı məmnunluğunun təmin edilməsindən ibarətdir. Ölkənin enerji təhlükəsizliyinin təminatının əsas vasitəsi kimi enerji resurslarından səmərəli istifadənin təmin edilməsi ilə enerji effektivliyinin artırılması, energetika subyektlərinin və enerji istehlakçılarının maraqları arasında balansın təmin olunması "Azərişıq" ASC-nin əsas hədəflərindəndir.

İstehlakçıların tikinti obyektlərinin qoşulduqları energetika şəbəkəsindən asılı olaraq məişət istehlakçıları üçün sayğaclar "Azərişıq" ASC-nin əməkdaşlarının iştirakı ilə sistem operatorunun vəsaiti hesabına, qeyri-məişət istehlakçıları üçün isə qeyri-məişət istehlakçısının öz vəsaiti hesabına müvafiq sistem operatoru tərəfindən təchiz edilir, quraşdırılır və dəyişdirilir. Enerji istehlakçılarının istifadə etdiyi avadanlıq və cihazların texniki tənzimləmə sahəsində texniki reqlamentlərə uyğunluğu qurumun əməkdaşları tərəfindən yoxlanılmalıdır. Əhali qrupuna aid müəyyən istehlakçılar "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olmayan sertifikatlaşdırılmayan məhsul və qurğulardan istifadə edirlər ki, bu da elektrik təchizatı sahəsində qəza hallarına gətirib çıxarır. Elektrik təchizatı şəbəkələrinə qoşulma zamanı "Azərişıq" ASC-nin əməkdaşları tərəfindən, o cümlədən bu sahədə media tərəfindən maarifləndirici təbliğat işlərinin həyata keçirilməsi perspektivdə qəzaların minimal həddə enməsinə səbəb ola bilər.

# Fermerlər ziyandan çıxır

## *Aqrar sığorta üzrə növbəti 100 min manat ödəniş olub*

**Azərbaycanda dövlət dəstəyi ilə təqdim edilən aqrar sığorta mexanizminin tətbiqi getdikcə genişlənir. Bugünlərdə aqrar sığorta çərçivəsində meyvə bağları və sair əkinlər üzrə növbəti böyük məbləğdə ödənişlər həyata keçirilib. Ödənişlər Xaçmaz və Quba rayonlarında müxtəlif hadisələr nəticəsində zərər çəkmiş fermer və təsərrüfatları əhatə edib.**

Aqrar Sığorta Fondunun məlumatına görə, Xaçmaz rayonunda yerləşən "TREK SERVİCE ENGİNEERİNG" MMC şirkətinə badam bağına dəymiş zərər üzrə ödəniş edilib. Rayonun Cığatay kəndində yerləşən şirkətin badam bağına donvurma nəticəsində böyük zərər dəyib. Bu barədə məlumat aldıqdan sonra Aqrar Sığorta Fondu tərəfindən təsərrüfata ezam edilən ekspertlər zərəri hesablayıblar. Nəticədə, badam bağlarına dəymiş zərər üzrə rekord məbləğdə – 73 min 768 manat ödəniş həyata keçirilib. Bu, indiyədək Azərbaycanda badam bağına dəymiş zərər üzrə ən böyük sığorta ödənişidir. Bundan əlavə, Xaçmaz rayonunda yerləşən digər təsərrüfatda alça bağına quşların vurduğu zərər üzrə "vəhşi heyvanların hücumu" riski nəticəsində 2 min 551 manat sığorta ödənişi edilib.




Quba rayonunda isə taxıl sahəsini dolu vurması nəticəsində təsərrüfata dəymiş zərər üzrə sahibkara 15 min 420 manat ödənilib. Eyni zamanda, taxıl sahəsinə vəhşi çöl donuzlarının hücumu nəticəsində "vəhşi heyvanların hücumu" riski üzrə 1546 manat ödəniş həyata keçirilib. Bununla yanaşı, rayonda yoluxucu xəstəlikdən tələf olmuş mal-qaraya görə kiçik təsərrüfata 4 min 680 manat məbləğində sığorta ödənişi edilib.

Fonddan bildiriblər ki, sığorta ödənişlərinin təqdim olunması mərasimində aqrar sığorta mexanizminin əkin sahələrini və heyvandarlıq təsərrüfatlarını dolu, fırtına, qasırğa, sel-subasma, şaxtavurma (donvurma), leysan, normadan artıq qar yağıntıları, vəhşi heyvanların hücumu, 3-cü şəxslərin hərəkətləri və sair çoxsaylı risklərdən qoruduğu fermerlərin diqqətinə çatdırılıb. Onlara bir daha izah olunub ki, təsərrüfatları belə risklərdən qorumaq üçün ən yaxşı üsul dövlətin dəstəyi ilə sərfəli şərtlərlə təqdim edilən aqrar sığorta mexanizmindən faydalanmaqdır. Mövcud mexanizmə əsasən, sığorta haqqının 50 faizini fermerə dəstək üçün dövlət ödəyir, nəticədə fermerlər cüzi ödəniş müqabilində təsərrüfatlarını çoxsaylı risklərdən sığorta edə bilərlər.

Yeri gəlmişkən, Aqrar Sığorta Fondunun zərər görmüş fermerlərə ödənişləri sürətlə artır.Təkcə onu qeyd etmək kifayətdir ki, cari ilin 10 ayında fermer və təsərrüfatlara 4 milyon manat sığorta ödənişi edilib. İlin sonunadək isə bu məbləğin 6 milyon manatı keçəcəyi gözlənilir. Ümumilikdə isə, indiyədək Aqrar Sığorta Fondu tərəfindən fermerlərə 11 milyondan artıq sığorta ödənişi edilib.

Xatırladaq ki, aqrar sığortanın əhatə etdiyi məhsullar və risklər, eləcə də sığorta haqları barədə ətraflı məlumatı Aqrar Sığorta Fondunun www.asf.gov.az rəsmi internet səhifəsindən və səhifədəki "Bitkiçilik sığortası kalkulyatoru" vasitəsilə əldə etmək mümkündür. Fermerlər, həmçinin fondun 1651 çağrı mərkəzinə zəng etməklə aqrar sığorta barədə məlumat ala və təsərrüfatlarını sığortalaya bilərlər.

# "Qoca" avtomobillər yola salınır

## *Belə avtomobillərə görə ödənişlərə başlandı*

**Nəqliyyat vasitələrinin utilizasiyaya təqdim olunmasını asanlaşdırmaq üçün "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətində www.nvu.gov.az elektron portalı hazırlanıb. Köhnə nəqliyyat vasitələrinin utilizasiyasının təşviq edilməsi, medianın və ictimaiyyətin məlumatlandırılması məqsədilə yeni yaradılan elektron portal ictimaiyyətə təqdim olunub.**



Müxtəlif dövlət qurumlarının, media nümayəndələrinin və nəqliyyat üzrə ekspertlərin iştirak etdikləri tədbirdə qeyd olunub ki, mövcud tələblərə əsasən "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilən qaydada əvvəlcə nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Daha sonra zəruri məlumatlar yeni istifadəyə verilmiş portala daxil edilməklə nəqliyyat vasitəsi utilizasiyaya təqdim olunur. Nəqliyyat vasitəsi utilizasiyaya təqdim edildikdən sonra onu utilizatora təhvil verən şəxsə təsdiqedici sənəd təqdim olunur. Həmin sənəd əsasında yerli istehsal olan yeni nəqliyyat vasitəsi almaq üçün güzəşt və ya birdəfəlik ödəniş almaq mümkündür.

"Təmiz Şəhər" ASC-nin məlumatına görə, hazırda bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da çox sayda nəqliyyat vasitəsi köhnəlmə və yol-nəqliyyat hadisələri nəticəsində istifadəyə yararsız hala düşür. Statistik göstəricilərə əsasən, hazırda ölkə üzrə istismarda olan hər 5 avtomobildən 1-i ekoloji və təhlükəsizlik standartlarına cavab vermir.

Ümumilikdə isə, ölkəmizdə istismarda olan avtomobillərin 80 faizinin yaşı 10 ildən çoxdur. Bunu nəzərə alaraq "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"na əsasən Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiyası proqramı hazırlanmış, həmçinin proqramın tətbiqi ilə əlaqədar, ümumilikdə, 10-dan çox qanunvericilik aktına dəyişiklik və əlavələr edilib.

"Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununa nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı 2024-cü ilin sentyabr ayından qüvvəyə minmiş olan müddəalarına uyğun olaraq ötən müddət ərzində "Təmiz Şəhər" ASC tərəfindən utilizatorların reyestrdə qeydiyyatı üçün lazımi tədbirlər görülüb. Utilizator fəaliyyəti üzrə nəzərdə tutulan tələblərə cavab verən "Fors" MMC reyestrdə qeydiyyata alınaraq istismar müddəti başa çatan, eləcə də istifadəyə yararsız nəqliyyat vasitələrinin qəbuluna başlanılıb.

Qurumun məlumatına əsasən, ötən dövrdə 35 nəqliyyat vasitəsi utilizasiyaya verilib. Bu zaman birdəfəlik ödəniş üçün müraciət etmiş şəxslərə həmin nəqliyyat vasitələrinin təsnifatına uyğun olaraq ödənişlər həyata keçirilib. Nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi isə könüllülük prinsipi əsasında həyata keçirilir və məcburi xarakter daşımır.

Xatırladaq ki, "Nəqliyyat vasitələrinin utilizasiyası fondu" ölkə Prezidentinin 2024-cü il 27 yanvar tarixli sərəncamı ilə təsis edilib. Dövlət büdcəsinin tərkibində yaradılmış məqsədli büdcə təsisatı olan fond utilizasiya haqqı, kreditlər və qrantlar, hüquqi və fiziki şəxslərin könüllü ianələri, beynəlxalq təşkilatların və digər donorların ayırmaları, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşır.

Fondun vəsaitləri nəqliyyat vasitələrini utilizasiyaya vermiş şəxslərə birdəfəlik ödənişlərin verilməsi, yeni istehsal olunmuş yerli nəqliyyat vasitələri təsdiqedici sənəd əsasında satıcılar tərəfindən güzəştlə satıldıqda həmin endirim məbləğinin satıcılara geri ödənilməsi, həmçinin nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı qanunla nəzərdə tutulmuş funksiyaların icrasının təşkili və təmin edilməsi kimi məqsədlər üçün istifadə oluna bilər.

Yeri gəlmişkən, 2024-cü il fevralın 1-dən ölkə daxilində olan avtomobillərdən texniki baxış zamanı, xaricdən gətirilənlərdən isə gömrük rəsmiləşdirilməsi zamanı utilizasiya haqqı alınır. İdxal edilən avtomobillərin utilizasiya haqqı istehsal tarixi 4 ildən 7 ilə qədər olanlar üçün 400 manat, 7 ildən yuxarılar üçün isə 700 manatdır. Texniki baxış zamanı isə bu ödəniş avtomobilin ilindən asılı olaraq 10 manatdan 40 manata qədərdir.

# Azərbaycan İƏİT-lə əməkdaşlığı genişləndirir

**Azərbaycanın İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə əməkdaşlığının yeni istiqamətlər üzrə inkişafı müzakirə olunub. Bu barədə XQ-yə İqtisadiyyat Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, nazir Mikayıl Cabbarov İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının dövlət mülkiyyəti və özəlləşdirmə üzrə işçi qrupunun sədri, Böyük Britaniyanın dövlət investisiyaları üzrə qurumunun baş icraçı direktoru Çarlz Donaldın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib. Söhbət zamanı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə uğurlu tərəfdaşlıq qeyd olunub, müxtəlif sahələrdə birgə səylərin əhəmiyyəti vurğulanıb. Görüşdə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, dövlətə məxsus müəssisələrdə dövlətin iştirakının azaldılması, iqtisadi səmərəliliyin yüksəldilməsi, maliyyə dayanıqlılığının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər nəzərə çatdırılıb.

Nümayəndə heyətinin üzvləri Azərbaycanla birgə layihələrin icrasından məmnunluqlarını ifadə edib, təşkilata üzv ölkələrin dövlət müəssisələrində idarəetmə prinsipləri barədə təcrübələrini bölüşüblər.

Görüşdə, həmçinin ölkəmizlə İƏİT arasında əməkdaşlığın yeni istiqamətlər üzrə inkişafı, həmçinin Azərbaycan İnvestisiya Holdinqi və onun portfel şirkətlərinin dayanıqlı fəaliyyəti, korporativ idarəetmə prinsiplərinə uyğun idarə olunması istiqamətində prioritet məsələlər müzakirə edilib.

# Ağdamdan Xankəndiyə geniş yol çəkilir

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına əsasən, Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunun yenidən qurulması davam etdirilir. Bildirilir ki, başlanğıcı Bərdə-Ağdam avtomobil yolundan başlayan yolun ümumi uzunluğu 33,6 kilometrdir.**

Sözügedən yolun ilk 11,7 kilometrlik hissəsi layihə üzrə II texniki dərəcəyə uyğun, qalan 21,9 kilometrlik hissəsi isə I texniki dərəcəyə uyğun yenidən qurulur. Torpaq yatağının eni müvafiq olaraq 15 və 26,5 metr təşkil edir.

Hazırda layihə boyu torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması və əvəzində yararlı material verilərək normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilməklə magistralın tikintisi aparılır. Bundan başqa yol boyu müxtəlif diametrlərə malik düzbucaqlı və dairəvi suötürücü boruların, eləcə də keçidlərin tikintisi işləri görülür. Qeyd edilən işlərə paralel olaraq 1 və 3 aşırımlı 5 körpünün inşası da sürətlə davam etdirilir.

Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolu bölgədə gediş-gəlişi asanlaşdıracaq, kənd təsərrüfatının, turizmin inkişafına əhəmiyyətli təsir göstərəcək.

Magistral Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçın şəhərlərinə getmək istəyən sürücü və sərnişinlərin Ağdam şəhərinə daxil olmadan bu yoldan istifadə edərək sürətlə və təhlükəsiz hərəkətlərini davam etdirmələrinə imkan verəcək.

# Haqsız rəqabət cəzalandırılır

**2024-cü ilin yanvar-oktyabr aylarında Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Xidməti haqsız rəqabətə yolvermə ilə əlaqədar baxdığı işlər üzrə 5 bazar subyektinə 189,7 min manat məbləğində maliyyə sanksiyası qoyub. Müvafiq icra üzrə məcburi göstəriş verilib. Bu barədə Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli özünün "X" sosial şəbəkə hesabında paylaşım edib.**



Açıqlamada qeyd olunur: "Bu dövr ərzində 23 bazar subyekti tərəfindən digər bazar subyektinin əmtəə nişanından qanunsuz istifadə etməklə haqsız rəqabətə yolvermə əlamətləri, 29 bazar subyekti tərəfindən isə bir sıra mal və ya xidmətlərin reklamı zamanı reklam qanunvericiliyinin tələblərinin pozulması halları könüllü aradan qaldırılıb".

**Səhifəni hazırladılar:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ**

# COP29 prezidenti COP16 konfransında

## Ər-Riyadda iqlim maliyyələşdirilməsi müzakirə edilib



(əvvəli 1-ci səhifədə)

COP29 prezidenti daha sonra bildirib: “Biomüxtəliflik və Ekosistem Xidmətləri üzrə Hökumətlərarası elm və siyasət platformasının məlumatlarına görə, torpaqların deqredasiyası, səhralaşma və quraqlıq hər il qlobal iqtisadiyyata, təxminən, 10 trilyon dollar ziyan vurur. Bu problemlər ekosistemlərə, qida təhlükəsizliyinə və icmaların rifahına ciddi təsir göstərir.

Bakıda COP29 çərçivəsində bu çağırışların həllində mühüm irəliləyiş əldə edilib. Əsas uğurlardan biri İtki və Zərər Fondunun fəaliyyətə başlaması olub. Bu fond iqlim dəyişikliklərindən, o cümlədən quraqlıqlardan ən çox təsirlənən ölkələrə vacib maliyyə dəstəyi göstərəcək. Bu, iqlim itkisi və zərəri probleminin həllində böyük bir irəliləyişdir və həssas icmalara torpaqların deqredasiyasının nəticələri ilə mübarizə aparmağa kömək edəcək”.

M.Babayev vurğulayıb ki, COP29-un daha bir mühüm nailiyyəti iqlim dəyişikliyinə qarşı ən həssas ölkələri dəstəkləmək üçün yeni iqlim maliyyələşdirilməsi hədəfi ilə bağlı tarixi razılaşmanın əldə edilməsi olub. Bu razılaşma çərçivəsində inkişaf etməkdə olan ölkələr üçün maliyyələşdirmə illik 100 milyard dollardan 2035-ci ilə qədər 300 milyard dollara qədər 3 dəfə artırılacaq, dövlət və özəl mənbələr hesabına isə illik 1,3 trilyon dollar səfərbər ediləcək. Bu, torpaqların bərpası və quraqlığa qarşı dayanıqlılığın artırılması səylərinin gücləndirilməsi üçün mühüm bir mərhələdir. Biz qəbul etməliyik ki, torpaqların bərpası uzunmüddətli investisiyalar tələb edir. Bu layihələr hər zaman dərhal nəticə verməsə də, uzunmüddətli perspektivdə onların ekosistemlər və icmalar üçün faydaları çox böyükdür.



Azərbaycanın Ekologiya və təbii sərvətlər naziri bildirib ki, COP29 çərçivəsində “Harmonia” Bakı İqlim Təşəbbüsü istifadəyə verilib: “Bu təşəbbüs kənd icmalarını, qadınları və gəncləri dəstəkləməyə yönəlib. Əsas məqsəd çoxtərəfli və milli inkişaf bankları arasında əməkdaşlığı gücləndirməklə iqlimə davamlı kənd təsərrüfatının inkişafıdır. Təşəbbüs maliyyə çatışmazlığının aradan qaldırılmasına, torpaq eroziyasının qarşısının alınmasına, davamlı kənd təsərrüfatı metodlarının təşviqi vasitəsilə fermerlərin dəyişən iqlimə uyğunlaşmasına dəstək verməyə hədəflənib”.

Nazir əlavə edib ki, COP29-un digər mühüm nailiyyəti Paris Sazişinin 6-cı maddəsinin tam şəkildə tətbiq olunmasıdır. Bu, torpaqların və meşə təsərrüfatının bərpası üçün dövlət və özəl investisiyaları cəlb edərək beynəlxalq karbon bazarlarına çıxış imkanı yaradır, maliyyə mexanizminin tam potensialını reallaşdırmaq üçün əsas maneələrin aradan qaldırır.

Yeri gəlmişkən, Paris Sazişinin 6-cı maddəsində iqlimlə bağlı hədəflərə çatmaq məqsədilə əməkdaşlıq edən ölkələr üçün etibarlı və şəffaf karbon bazarlarının gerçəkləşdirilməsi nəzərdə tutulur. Eyni zamanda, transsərhəd əməkdaşlıq sayəsində ölkələrin milli iqlim planlarının həyata keçirilməsi nəticəsində xərclərin ildə 250 milyard dollara qədər azalcağı gözlənilir.

COP29 Sədrliyi isə Tərəflləri bu vasaiti daha böyük iqlim ambisiyalarına yenidən investisiya yatırmağa təşviq edir. Gələn ilin fevral ayında təqdim ediləcəyi planlaşdırılan növbəti nəsil etibarlı və şəffaf karbon bazarlarının yaradılması dünyanın 1,5 dərəcə hədəfinə çatmaqda mühüm əhəmiyyət daşıyır.

İqlim diplomatiyasında ən mürəkkəb və texniki problemlərdən birinin həlli sayılan 6-cı maddə üzrə razılıq kömür zavodlarının istismardan çıxarılması, külək stansiyalarının qurulması və meşələrin salınması kimi məsələləri əhatə edir. Ekspertlərin fikrincə, bu, inkişaf etməkdə olan dünyada yeni investisiya dalğası deməkdir. Eyni zamanda, həmin maddə üzrə yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünün təmin edilməsini şərtləndirir.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev COP16 çərçivəsində keçirilən Maliyyələşmə üzrə Nazirlər Dialoqunda çıxışında, həmçinin bildirib ki, özəl sektorun iştirakını təşviq etmək üçün uyğun siyasət, tənzimləmə və maliyyə stimulları vasitəsilə əlverişli şəraitin yaradılması olduqca əhəmiyyətlidir. Dövlət maliyyələşdirilməsi, o cümlədən qrantlar, subsidiyalar və vergi güzəştləri torpaqların bərpasına yönəlmiş uzunmüddətli layihələrin başlanmasına töhfə verə bilər. Bu layihələr həm ekoloji, həm də sosial uğurların gerçəkləşdirilməsini şərtləndirir.

# İtki və Zərərə Cavab Fondu Bakı konfransının töhfəsidir

**Fransanın “La Gazette du Caucase” onlayn nəşrinin yaydığı məqalədə İtki və Zərərə Cavab Fondunun COP29 çərçivəsində fəaliyyətə başlaması ilə qlobal iqlim siyasətində tarixi dönüşün yarandığı bildirilir. Bu nailiyyət inkişaf etməkdə olan ölkələr, kiçik ada dövlətləri və iqlim dəyişikliyinin artan təsirlərindən qeyri-mütənasib dərəcədə əziyyət çəkən həssas icmalar üçün əhəmiyyətli irəliləyiş kimi dəyərləndirilir.**

“La Gazette” vurğulayıb ki, COP29-a sədrlik edən Azərbaycanın rəhbərliyi ilə İtki və Zərərə Cavab Fondunun yaradılması qlobal həmrəyliyin güclü ifadəsi oldu. Bu mühüm addım iqlim dəyişikliyi fəsadlarının aradan qaldırılması üçün daha inklüziv və səmərəli həll yollarına böyük ümid verdi.

Məqalədə vurğulanır ki, İtki və Zərər Fondunun yaradılmasının əsası 2022-ci ildə Misirdə keçirilən COP27-də qoyulub. Həmin vaxt ölkələr iqlim fəlakətlərindən ən çox təsirlənmiş dövlətlərə kompensasiya ödənilməsi ilə bağlı tarixi razılığa gəlib. Lakin qəzetin qeyd etdiyi kimi, maliyyə öhdəlikləri və siyasi iradənin real hərəkətlərə çevrilib – çevrilməyəcəyi ilə bağlı şübhə qalırdı.

Nəşr daha sonra qeyd edir ki, COP28-in BƏƏ-də keçirilməsi bu istiqamətdə əhəmiyyətli bir mərhələ olsa da, Azərbaycanın sədrliyi ilə keçən COP29 İtki və Zərərə Cavab Fondunun tam fəaliyyətə başlamasına əlverişli şərait yaratdı.

“La Gazette” vurğulayıb ki, İtki və Zərərə Cavab Fondu yalnız maliyyə vasitəsi deyil, həm də tarixi ədalətsizliyin etirafıdır. İnkişaf etmiş ölkələr istixana qazı emissiyalarını gücləndirən tərəflər olaraq indi resursların yenidən bölüşdürülməsi mexanizmləri vasitəsilə qasırğalar, daşqınlar və quraqlıq kimi fəlakətlərdən ən çox zərər çəkmiş ölkələr qarşısında məsuliyyət daşıyırlar.

Prezident İlham Əliyevin kiçik ada dövlətləri və ən az inkişaf etmiş ölkələrin problemlərinə diqqət ayırması Azərbaycanın bərabərlik və inklüzivliyə sadiqliyini vurğulayır.

“La Gazette”, həmçinin qeyd edir ki, 2025-ci ildən etibarən bu fondun iqlim dəyişikliyinə davamlılığı artırmaq məqsədilə layihələri maliyyələşdirməyə başlaması




gözlənilir. Bu layihələrə dağıdılmış infrastrukturun bərpası, köçkünlərə yardım və həssas bölgələrdə adaptasiya potensialının gücləndirilməsi daxildir. Nəşr bununla yanaşı, sözügedən fondun innovativ maliyyə mexanizmlərini stimullaşdırmaq potensialını da xüsusi qeyd edib.

Yuxarıda qeyd edildiyi kimi, İtki və Zərərə Cavab Fondunun yaradılması Misirdə keçirilmiş COP27 zamanı qərara alınıb. Əsas məqsəd isə bu maliyyə qurumunun iqlim dəyişmələrinin təsirlərinə ən həssas ölkələrə maliyyə yardımı göstərmək olub. BƏƏ-də keçirilmiş COP28 zamanı Fondun fəaliyyətə başlaması ilə bağlı qərar qəbul olunub. COP29 Sədrliyi tərəfindən isə İtki və Zərərə Cavab Fondunun fəaliyyətinin gerçəkləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, bu istiqamətdə İdarə Heyəti və Dünya Bankı ilə sıx əməkdaşlığa başlanılıb.

Cari ilin sentyabrında İtki və Zərərə Cavab Fondu İdarə Heyətinin Bakıda keçirilmiş 3-cü iclası zamanı adıçəkilən qurumun fəaliyyətə başlaması üçün vacib tədbirlər görülüb, Fondun icraçı direktoru təyin edilib. COP29 çərçivəsində isə İtki və Zərərə Cavab Fondu ilə bağlı bir sıra mühüm sazişlər imzalanıb. Bunlar Fondun İdarə Heyəti ilə Dünya Bankı arasında “Qəyyumluq Sazişi” və “Katibliyin Ev Sahibliyi Sazişi”, eləcə də Fondun İdarə Heyəti ilə ev sahibi ölkə olan Filippin Respublikası arasında imzalanmış “Ev Sahibi Ölkəyə dair Saziş”dir. Hazırda Fonda vəd edilən ümumi maliyyə dəstəyinin məbləği 730 milyon ABŞ dollarından artıqdır. Əldə edilən bu nailiyyətlərlə İtki və Zərərə Cavab Fondu 2025-ci ildən etibarən layihələri maliyyələşdirə biləcək. Bu, Azərbaycanın COP29 Sədrliyinin növbəti uğurudur.

Çoxtərəfli İnkişaf Bankları (MDB-lər) 2030-cu ilə qədər iqlim tədbirlərinə illik 170 milyard ABŞ dolları töhfə verməyi, bunun 120 milyard ABŞ dollarının aşağı və orta gəlirli ölkələrə yönəldiləcəyini açıqlayıblar.

İtki və Zərərə Cavab Fondunun 2025-ci ilə qədər maliyyə ayırmağa hazır olmasını təmin edərək, töhfə verən tərəflərin razılaşmalarını və vədlərini əldə edib, həmçinin Filippinlə ev sahibi ölkə müqaviləsinin imzalanması və Dünya Bankı ilə ev sahibi və qəyyumluq müqavilələri imzalanması təmin edilib.

# Bakı İqlim və Sülh Mərkəzinin təqdimatı



**Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən səhralaşma üzrə COP16-da COP29-da təsis edilmiş Bakı İqlim və Sülh Mərkəzinin təqdimatı keçirilib. Mərasimdə Azərbaycan Xarici İşlər Nazirliyinin Xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov çıxış edərək uğurla başa çatan COP29-da beynəlxalq sülhə xüsusi diqqət ayrıldığını qeyd edib.**

COP29-un Azərbaycan sədrliyinin noyabrın 15-də xüsusi Sülh, Yardım və Bərpa Günü keçirdiyini xatırladan Xüsusi tapşırıqlar üzrə səfir mövzu ilə əlaqədar Bakı Çağırışının qəbul edilməsinin əhəmiyyətinə də toxunub. E.İskəndərov daha sonra bildirib: “Əvvəlki COP-larda da iqlim – sülh qovşağı müzakirə olunub. Lakin COP29-da zəruri təşəbbüsləri bir araya gətirən Bakı İqlim və Sülh Mərkəzinin təsis edilməsi həm iqlim fəaliyyətinin, həm də beynəlxalq sülhün inkişafı sahəsində beynəlxalq aləmin Azərbaycana göstərdiyi etimadın nümunəsidir. Bu mərkəz ümumi əhalisinin sayı 450 milyondan artıq olan, iqlim böhranı və münaqişələrin dağıdıcı nəticələrinə məruz qalan, xüsusilə həssas ölkələrə beynəlxalq dəstək və yardımın göstərilməsində aparıcı rol oynayacaq”.

Bakı İqlim və Sülh Mərkəzinin bir sıra BMT institutları və beynəlxalq yardım qurumları ilə əməkdaşlıq haqqında razılıqlar əldə etdiyini qeyd edən E.İskəndərov bildirib ki, bütün bu nəticələr COP29-un “Sülh COP-u” kimi tarixdə qalacağını deməyə əsas verir.

Qeyd edək ki, COP29-da yaradılmış Bakı İqlim və Sülh Mərkəzində Azərbaycan İngiltərə, Almaniya, İtaliya, Misir, BƏƏ və Uqanda ilə əməkdaşlıq edir. 29-cu iqlim konfransında qəbul edilmiş Bakı İqlim və Sülh Çağırışına əsasən, sözügedən mərkəzin daimi katibliyi Azərbaycanın ev sahibliyi ilə paytaxtımızda fəaliyyət göstərəcək.

# Qvineya-Bisau ilə enerji əməkdaşlığı qurulur



**Energetika naziri Pərviz Şahbazov Qvineya-Bisau Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki icmalar naziri Karlos Pinto Pereiranın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Söhbətdə bu ölkənin ətraf mühit naziri Viriato Kassama, energetika və təbii sərvətlər nazirliklərinin, neft şirkətinin nümayəndələri də iştirak ediblər.**

Söhbət zamanı ikitərəfli əlaqələrin inkişafı məqsədilə enerji sahəsində əməkdaşlıq imkanları dəyərləndirilib. Qvineya-Bisau Azərbaycanın neft-qaz, geoloji kəşfiyyat, enerji keçidi və dekarbonizasiya sahələrindəki təcrübəsinə maraq göstərib, potensial əməkdaşlıq istiqamətləri üzrə müzakirələr aparılıb.

Qonaqlara Azərbaycanın ənənəvi enerji üzrə həyata keçirdiyi beynəlxalq əhəmiyyətli layihələri, o cümlədən 12 ölkəyə qaz tədarükü barədə məlumat verilib. Bildirilib ki, hazırda Azərbaycan enerji keçidi və dekarbonizasiya sahələrində irəliləyişlər əldə edir və qısa müddətdə 2 milyard dollardan çox investisiya cəlb edərək quraşdırılmış enerji gücündə bərpaolunan enerjinin payını 33 faizə yüksəldən layihələrin reallaşma mərhələsində olması bunun sübutudur.

Tədbirdə yeni qanunvericilik bazasının formalaşdırılması, beynəlxalq investorlarla birbaşa və hərrac yolu ilə əməkdaşlıq, eləcə də Azərbaycanla Türkiyə, Avropa və Mərkəzi Asiya arasında “yaşıl” enerji interkonnektorlarının yaradılması kimi milli və regional miqyaslı enerji keçidi kursu müzakirə edilib. Bununla yanaşı, COP29-un enerji təşəbbüsləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# COP29 iqlim maliyyəsində dönüş yaratdı

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil Ər-Riyadda keçirilən səhralaşma üzrə COP16 çərçivəsində “Torpaqların bərpası və quraqlığa qarşı dayanıqlılığın artırılması üçün dövlət və özəl maliyyənin səfərbər edilməsi” mövzusunda Maliyyələşmə üzrə Nazirlər Dialoqunda çıxışı zamanı COP29-un dünya ölkələrinin razılığı ilə iqlim maliyyələşdirilməsi hədəfinə nail olduğunu bildirərək bu konfransı əsl dönüş nöqtəsi kimi dəyərləndirib.**



İcraçı katib vurğulayıb ki, bu hədəf reallaşdırılsa, insanlıq üçün bir növ sığorta olacaq: “Biz bilirik ki, Yer üzündə həyatı dəstəkləyən sistemlər təhlükə altındadır. Torpaqların bərpası, quraqlığa qarşı dayanıqlılığın artırılması və iqlim dəyişiklikləri bir-biri ilə sıx bağlıdır. Buna görə də bu sığortanın hərtərəfli olmasını, investisiyaların qarşılaşdığımız çağırışları həll etməsini və sığorta ödənişlərinin tam və vaxtında yerinə yetirilməsini təmin etməliyik”.

Saymon Stil qeyd edib ki, torpaqların bərpası və quraqlığa qarşı dayanıqlılığın gücləndirilməsi üçün tələb olunan resursların səfərbər edilməsinin vaxtı çatıb: “Bu, torpaq resurslarının davamlı idarə edilməsinə, təbiətə əsaslanan həllərə, meşələrin bərpasına, həmçinin icmaların, kiçik fermerlərin, kiçik və orta müəssisələrin dəstəyinə sərmayə qoyulması deməkdir. Onlar kənd təsərrüfatları vasitəsilə dolanışıqlarını təmin edərək, adaptasiya etməyə hazırdırlar. Dünyanın müxtəlif yerlərindəki yerli icmaların təcrübələrindən öyrənməliyik. Onların yaradıcılığı uğurlar gətirir və bu, genişləndirilə bilər. Dövlət maliyyəsi çoxtərəfli inkişaf bankları və özəl investisiyalar burada mühüm rol oynayır. Bu müxtəlif maliyyə axınları birgə işlədikdə, daha böyük təsir yarada və daha çox insana kömək edə bilər”.

**Səhifəni hazırladılar:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 501** **Bakı şəhəri, 29 noyabr 2024-cü il**

**"Kritik informasiya infrastrukturu obyektlərinin siyahısı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 861-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 iyun tarixli 729 nömrəli, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 may tarixli 539-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 iyun tarixli 729 nömrəli və "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" 2021-ci il 17 aprel tarixli 1315 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 5 iyul tarixli 1738 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2145 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Kritik informasiya infrastrukturu obyektlərinin siyahısı" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 503** **Bakı şəhəri, 2 dekabr 2024-cü il**

**Ali təhsilin bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura və rezidentura səviyyələri üzrə ixtisasların təsnifatının təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"-nın, "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı"-nın və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 14 iyun tarixli 95 nömrəli, "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2009-cu il 12 yanvar tarixli 8 nömrəli, "Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli və "Ali təhsil pilləsində tibb təhsilinin əsas təhsili üzrə ixtisasların Təsnifatı"nın təsdiq edilməsi və "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 yanvar tarixli 8 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə" 2012-ci il 24 dekabr tarixli 314 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında" 2019-cu il 11 fevral tarixli 45 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların Təsnifatı" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Ali təhsilin əsas (baza ali) tibb təhsili səviyyəsi üzrə ixtisasların Təsnifatı" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı" təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** "Ali təhsilin rezidentura səviyyəsi üzrə ixtisasların Təsnifatı" təsdiq edilsin (4 nömrəli əlavə).

**5.** "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın, "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı"nın və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 6, maddə 568 (Cild I); 2024, № 1, maddə 82) 1-ci və 2-ci hissələri ləğv edilsin.

**6.** "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2009-cu il 12 yanvar tarixli 8 nömrəli, "Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli və "Ali təhsil pilləsində tibb təhsilinin əsas təhsili üzrə ixtisasların Təsnifatı"nın təsdiq edilməsi və "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 yanvar tarixli 8 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə" 2012-ci il 24 dekabr tarixli 314 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 343 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**7.** "Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 976 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 504** **Bakı şəhəri, 2 dekabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 365 (Cild I); 2024, № 3, maddə 315; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 sentyabr tarixli 399 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın 8-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 8.3-cü bənd üzrə:

1.1. üçüncü abzasdan "(ixtisaslaşmaların)" sözü çıxarılsın;

1.2. beşinci abzasdan "(ixtisaslaşmaları)" sözü çıxarılsın və həmin abzasa "standartlarının," sözündən sonra "ixtisaslaşmaların adlarını (magistratura səviyyəsinə münasibətdə)," sözləri əlavə edilsin.

**2.** 8.4-cü bənd üzrə:

2.1. birinci abzasdan "(ixtisaslaşmalar)" sözü çıxarılsın;

2.2. dördüncü-yeddinci abzaslar müvafiq olaraq beşinci-səkkizinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"- ixtisaslaşmaların adları (magistratura səviyyəsinə münasibətdə);".

**3.** 8.5-ci bəndin birinci abzasından "(ixtisaslaşmaları)" sözü çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 505** **Bakı şəhəri, 2 dekabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 467 (Cild I); 2024, № 3, maddə 307; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 sentyabr tarixli 395 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2-ci və 1.9-cu bəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2. Magistratura təhsili Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən ali təhsilin magistratura səviyyəsi üzrə müəyyən edilmiş ixtisasların təsnifatına uyğun olaraq mütəxəssis hazırlığının ixtisaslaşmalar (sahələr, fənlər, dillər, dil və ədəbiyyat, regionlar, ölkələr, nəqliyyat növləri) üzrə həyata keçirilməsini təmin edir. Hər bir ixtisas üzrə ixtisaslaşmalar ixtisasın təhsil proqramı ilə müəyyən olunur.";

"1.9. Magistratura səviyyəsində ixtisaslaşmalar üzrə mütəxəssis hazırlığı bakalavriat səviyyəsi üzrə buraxılışı olan ali təhsil müəssisələrində (ali təhsilin magistratura səviyyəsi üzrə müəyyən edilmiş ixtisasların təsnifatında nəzərdə tutulduğu hallarda xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla) həyata keçirilir.".

**2.** 2.2-ci bənddə "magistr hazırlığı" sözləri "magistratura təhsili" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 506** **Bakı şəhəri, 2 dekabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli Qərarı ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 261 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 sentyabr tarixli 395 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.4. Rezidentura təhsili Azərbaycan Respublikası Nazirlər Kabinetinin ali təhsilin rezidentura səviyyəsi üzrə müəyyən etdiyi ixtisasların təsnifatına uyğun olaraq həkim-mütəxəssis hazırlığının ixtisaslaşmalar üzrə həyata keçirilməsini təmin edir. Hər bir ixtisas üzrə ixtisaslaşmalar həmin ixtisasın təhsil proqramında sahələr üzrə müəyyən olunur.".

2. 3.2-ci bənddə ", bu Qaydaların əlavəsi" sözləri "müvafiq təhsil proqramları" sözləri ilə əvəz edilsin.

3. Qaydalara əlavə - "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar üzrə təhsilin müddəti" ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 502** **Bakı şəhəri, 29 noyabr 2024-cü il**

**Mingəçevir şəhəri 4 nömrəli tam orta ümumtəhsil məktəbinə Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun adının verilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 iyun tarixli 175 nömrəli Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş Natiq Səlim oğlu Qasımovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Mingəçevir şəhəri 4 nömrəli tam orta ümumtəhsil məktəbinə Azərbaycanın Milli Qəhrəmanı Natiq Səlim oğlu Qasımovun adı verilsin.

**2.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Mingəçevir Şəhər İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 507** **Bakı şəhəri, 3 dekabr 2024-cü il**

**"Kiçik elektrik nəqliyyat vasitəsinin icarəyə (istifadəyə) verilməsinə, habelə onların sürətinə və lokasiyasına nəzarətin həyata keçirilməsi məqsədilə kiçik elektrik nəqliyyat vasitələrinin operatorları tərəfindən ötürülən səfər və operator barədə məlumatların siyahısı"nın təsdiq edilməsi haqqında**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1196-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyul tarixli 156 nömrəli Fərmanının 2.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Kiçik elektrik nəqliyyat vasitəsinin icarəyə (istifadəyə) verilməsinə, habelə onların sürətinə və lokasiyasına nəzarətin həyata keçirilməsi məqsədilə kiçik elektrik nəqliyyat vasitələrinin operatorları tərəfindən ötürülən səfər və operator barədə məlumatların siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Mövlud Çavuşoğlu Qərbi Azərbaycan İcmasında



**"Qayıdış hüququ: Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olan Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu dekabrın 4-də Qərbi Azərbaycan İcmasında olub.**

Görüşdə Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Vətən müharibəsi dövründə Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstəyi xatırladıb.

İcmanın yaranması və fəaliyyəti barədə danışan Ə.Ələkbərli bildirib ki, İcmada toplaşan insanlar 1987-1991-ci illərə qədər indiki Ermənistan ərazisində yaşayıblar. O vurğulayıb ki, İcma olaraq son 200 ildə öz ata-baba yurdlarından didərgin salınmış azərbaycanlıların hüquqlarını beynəlxalq müstəviyə qaldırmağa və onların qayıdış hüququnun təmin olunmasına çalışırlar. Sonuncu deportasiya zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 300 minə yaxın azərbaycanlı Ermənistan tərəfindən doğma yurdlarından didərgin salınıb. Həmin dövrdə 172 kənddə ancaq azərbaycanlılar yaşayırdılar və orada bir nəfər də olsun erməni yox idi.

Türkiyə Böyük Millət Məclisinin NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu ölkəsinin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərin inkişaf etdiyini diqqətə çatdıran M.Çavuşoğlu Türkiyənin bu istiqamətdə Azərbaycana bütün dəstəyi verdiyini vurğulayıb.

**XQ**

# İrəvan xanı nəslinin nümayəndələri Bakıda



**Dekabrın 5-6-da Bakıda keçiriləcək Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda ikinci beynəlxalq konfransı çərçivəsində Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri professor Misir Mərdanov ilə İrəvan xanının nəslindən olan Əmir Əli Sərdari İrəvani və Turhan Turqut arasında görüş keçirilib.**

Görüşdə İrəvan xanının davamçılarını İcmada görməkdən məmnunluğunu bildirən Misir Mərdanov son 200 ildə soydaşlarımızın bütün Qərbi Azərbaycan ərazisindən, o cümlədən İrəvandan mərhələlərlə çıxarıldığını qeyd edib.

Bildirilib ki, bu gün qonaqların varisi olduqları Xan nəslinin mirası da, təəssüf, Qərbi Azərbaycanda dağıdılan abidələrimiz sırasındadır. Misir Mərdanov deyib ki, öz ata-baba yurdlarını görmək, orada yaşamaq Qərbi azərbaycanlıların və onların varislərinin haqqıdır. Turhan Turqut özünün əfsanəvi İrəvan xanlarına dayanan köklərindən bəhs edərək, ötən əsrin əvvəllərində məruz qaldıqları soyqırımı və sürgünlərdən danışıb.

Öz növbəsində, Əmir Əli Sərdari İrəvani bildirib ki, o, əsrarəngiz Göy məscidi inşa etdirən Hüseynəli Xan Qacarın nəslindəndir. Qohumları Türkmənçay müqaviləsindən dərhal sonra ilk sürgünə məruz qalanlar arasında olublar.

Hər iki qonaq Qərbi Azərbaycandakı yurd yerlərini görmək həsrətində olduqlarını bildirib.

**XQ**

# Qərbi Azərbaycana Qayıdış soydaşlarımızın əzəli hüququdur

(əvvəli 1-ci səhifədə)

Birincisi, Qərbi Azərbaycan, ümumiyyətlə, Azərbaycanın qədim tarixi torpağıdır, azərbaycanlıların ona siyasi, hüquqi, mənəvi, mədəni haqqı vardır. Bunun üçün Azərbaycan beynəlxalq hüquq normaları və qanunlar çərçivəsində fəaliyyətini davam etdirir.

İkincisi, Azərbaycanın məqsədi mövcud sərhədlərdən kənarda olan tarixi ərazilərə qətiyyən iddialı deyil. Burada söhbət yalnız pozulmuş insan haqlarının bərpasından gedir. Bunun üçün Bakı siyasi-diplomatik müstəvidə fəaliyyəti ilə beynəlxalq miqyasda hüquqi fəaliyyətini vahid məntiqi çərçivədə aparır.

Bu məqamda dövlət başçısının Qərbi Azərbaycan strategiyasını incə məntiqi və diplomatik qaydada xarici siyasətin prioritetlərindən biri statusuna yüksəltməsinin siyasi və geosiyasi anlamına nəzər salmaq lazımdır. Bunun üçün bir neçə fakta müraciət edək.



**İndiki Ermənistan ərazisi vaxtilə Azərbaycan torpaqları idi. Bir vaxtlar bu yerlər Azərbaycana məxsus olmuş, lakin 1918-1920-ci illərdə Ermənistana keçmişdir. 1918-ci ildə Azərbaycan Respublikasının ərazisi 114 min kvadratkilometr olub. İndi isə 86 min kvadratkilometrdir.**

**Bir sözlə, tarixə müraciət etməli olsaq, onda görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır. Amma indi mən onu deyirəm ki, biz Ermənistan ərazisinə, mövcud sərhədlərə göz dikməmişik, onların iddiasında deyilik. Bununla bərabər, biz öz ərazimizin bir metrini də verməyə razılaşa bilmərik.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

## Faktların yaratdığı gerçəklik

Dövlət başçısı 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən bəyan edib: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar. ... Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır".

2024-cü il sentyabrın 30-da Bakıda Aşıq Ələsgərin abidəsinin açılışında iştirakı zamanı Prezident İlham Əliyev Qərbi Azərbaycanla bağlı fikirlərini daha geniş tarixi kontekstdə dolğun ifadə edərək deyib: "... İki deportasiyadan müəyyən müddətdən sonra Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmış, yəni, hamısı olmasa da, böyük bir qisim qayıtmışdır. Bu, bizdə haqlı olaraq əminlik yaradır ki, üçüncü etnik təmizləmə dalğasına məruz qalmış Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Əlbəttə ki, Vətən sevgisi, o torpaqlar unudulmayıb və unudulmayacaq, o torpaqları görməyən Qərbi azərbaycanlıların sonrakı nəsilləri Vətən həsrəti ilə yaşayırlar".

Azərbaycan Prezidentinin digər tədbirlərdə söylədiyi fikirləri də nümunə kimi göstərmək olar. Yuxarıda gətirilən nümunələr göstərir ki, ümumi mövqeyə görə, azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar və bunun üçün siyasi, tarixi, mədəni, mənəvi və hüquqi əsaslar kifayət qədərdir. Məhz bu gerçəklik hazırda müstəqil Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi mövcuddur.

Azərbaycan ardıcıl olaraq həmin istiqamətdə siyasi-diplomatik fəaliyyətini gücləndirir. Burada başlıca olaraq fəaliyyət parlament və xalq diplomatiyası aspektlərində aparılır. Bunun təsdiqlərindən biri kimi 2024-cü ilin oktyabrında Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun yaradılmasını göstərə bilərik. Ekspertlər Qrupun yaradılmasının möhkəm əsaslarının olduğunu vurğulayırlar. Onların sırasında həm beynəlxalq hüququn, həm də tarixi ədalətin bərpasının və insan haqlarının təmin olunmasının xüsusi yeri vardır.

Təşəbbüs Qrupu artıq aktiv fəaliyyətdədir. 2024-cü ilin noyabrında Qrup ideoloji və hüquqi əhəmiyyətli bir bəyanatla çıxış edib. Orada deyilir: "Ermənistanın baş naziri Nikol Paşinyanın Qərbi Azərbaycan məsələsi və uydurma "Qərbi Ermənistan" anlayışı arasında paralel aparmaq cəhdi qəbuledilməzdir.

Qərbi Azərbaycan məsələsi etnik təmizləməyə məruz qalmış azərbaycanlıların Ermənistana dinc, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına xidmət edən insan hüquqları mövzusudur. "Qərbi Ermənistan" ifadəsi isə Ermənistanın Konstitusiyası və digər əsas sənədlərində və siyasi addımlarında öz əksini tapmış ərazi iddiasıdır".

Bunlarla yanaşı, Azərbaycan rəhbərliyinin rəsmi şəkildə Ermənistanla sülh müqaviləsinin imzalanması kontekstində Qərbi azərbaycanlıların hüquqlarının təmini məsələsini masaya qoyması faktdır. Hətta rəsmi İrəvan və havadarları ilk vaxtlar buna laqeyd münasibət göstərsələr də, rəsmi Bakının qətiyyəti Ermənistanı mövqeyini dəyişməyə məcbur etdi. Bunun əlamətlərindən biri N.Paşinyanın sözün həqiqi mənasında arqumentsiz qalaraq anlayışların politoloji mənasını dolaşdırmasıdır.

Bu məsələ ilə bağlı Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun bəyanatından gətirdiyimiz sitatda problemin tarixi, siyasi və politoloji aspektləri aydın ifadə edilib. Bəyanatda insan haqları aspekti də son dərəcə dəqiq göstərilib: "Bizim insan hüquqlarına əsaslanan haqq işimizi ərazi iddiası ilə müqayisə etmək yolverilməzdir. Bir daha xatırladaq ki, Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətinə müraciət edərək, Qərbi azərbaycanlıların qayıdışı ilə bağlı beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin ərazi bütövlüyü və suverenliyinə tam riayət olunmaqla dialoq başlatmağı təklif edib. Lakin Ermənistan bu çağırışlara məhəl qoymayıb və qəsdən icmanın fəaliyyətini özünün ərazi bütövlüyünə təhdid kimi təhrif edib".




Rəsmi İrəvanın ciddi siyasi-diplomatik həmlələrdə dərhal özünü itirməsinin səbəbi haqsız olmasından qaynaqlanır. Çünki heç bir real tarixi, siyasi və hüquqi arqumentə malik deyildir. Əsrlərlə havadarlarının uydurduqları yalanlara və onların dəstəyinə inanaraq ölkəmizə qarşı çirkin təbliğat kampaniyaları aparıblar. İndi isə güclü və müstəqil Azərbaycanın siyasi-diplomatik həmlələri qarşısında diz çökürlər.

Bir faktı da vurğulamaq gərəkdir. Qərbi Azərbaycan İcması mütəmadi olaraq rəsmi İrəvana və onun havadarlarına lazımi cavabları verir. Faktlar əsasında sübut edir ki, Qərbi Azərbaycan azərbaycanlıların tarixi, siyasi, hüquqi, mədəni və mənəvi haqqıdır. Həmin diyara qayıdış mütləq olacaqdır! Çünki Azərbaycan tarixi ədaləti bərpa etməlidir!

## Qərbi Azərbaycan məsələsinin geosiyasi və siyasi anlamı

2024-cü il sentyabrın 23-də keçirilən yeddinci çağırış Milli Məclisin ilk iclasında Prezident İlham Əliyev söylədiyi dərin məzmunlu nitqində ifadə edib: "İndi dünyada nəinki siyasətlə məşğul olanlar, hesab edirəm ki, bütün insanlar görürlər ki, beynəlxalq hüquq anlayışı tamamilə sarsılıb. İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası artıq mövcud deyil, "Kim güclüdürsə, o da haqlıdır" prinsipi üstünlük təşkil edir və artıq bəzi böyük dövlətlər bunu heç gizlətmirlər".

Bu fikirlərdə geniş təhlil əsasında Azərbaycan Prezidentinin gəldiyi qənaət əks olunub. Onun siyasi mənaları çoxdur. Lakin əsas mənası ondan ibarətdir ki, Azərbaycan xarici siyasətində bu özəlliyi mütləq nəzərə almalıdır. Həm xarici siyasətin prioritetləri, həm də onların məzmunu vurğulanan fakt nəzərə alınmaqla müəyyən edilməlidir. Belə bir şəraitdə Qərbi Azərbaycan məsələsi daha aktual siyasi, hüquqi, geosiyasi və ideoloji məzmun alır.

Onun təməlində isə İkinci Qarabağ müharibəsində Azərbaycanın qalib olması dayanır. Bu mənada 44 günlük Vətən müharibəsini Qərbi Azərbaycan məsələsində də dönüş nöqtəsi hesab etmək olar. Onun iki aspekti vardır. Birinci aspekt ölkənin ərazi bütövlüyünün təmini ilə bağlıdır. İkinci aspekt isə gələcəkdə bir daha işğalın baş verməməsi üçün lazım olan hüquqi bazanı yaratmaqdan ibarətdir. Əlbəttə, burada silahlı qüvvələrin hazırlığı xüsusi yer tutur. Lakin tarixi təcrübəmiz göstərir ki, əks tərəf həmişə hüquqdan sui-istifadə edib və əsas sənədlərinə Azərbaycana qarşı ərazi iddialarına "haqq qazandıran" maddələri salıb. Buna görə də öncədən hazırlıqlı olmaq tarixi zərurətdir. Azərbaycan təcavüzə məruz qalmayacağının hüquqi təminatını almalıdır. Bu baxımdan da Qərbi Azərbaycan məsələsi müstəqil dövlətçilikdə strateji statusdadır.

Digər tərəfdən, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi uzaqgörənliyi və qətiyyəti, habelə Azərbaycan Ordusunun şücaəti hesabına İkinci Qarabağ müharibəsində qazanılan böyük Zəfər regionda tarixi, siyasi və geosiyasi dəyişikliklərlə nəticələnib. Azərbaycan Prezidenti vurğulayıb ki, Azərbaycanın bu tarixi, siyasi və geosiyasi uğuru "çox daşları yerindən tərpədib". Geniş anlamda Cənubi Qafqaz yeni geosiyasi mərhələyə qədəm qoyub. Onun qorunub saxlanması mühüm strateji vəzifədir. Burada təbii ki, başlıca şərt kimi Azərbaycanın ərazi bütövlüyü ilə yanaşı, suverenliyini tam təmin etməsi ön sırada yer almaqdadır. Onun uğurlu yolu isə Qərbi Azərbaycan məsələsinin həllindən keçir. Ermənistan və havadarları anlamalıdırlar ki, azərbaycanlıların hüquqları təmin olunmayana qədər regionda sülhə, sabitliyə, iqtisadi tərəqqiyə və əməkdaşlığa təminat olmayacaqdır.

Beləliklə, müasir mərhələdə Qərbi Azərbaycan məsələsi real olaraq aktual geosiyasi və siyasi məsələ kimi dövlətçilik məsələləri ilə sıx bağlılıq təşkil edir. Həmin səbəbdən prosesin tarixi tərəfi müasirlik baxımından çox əhəmiyyətlidir. Bu isə həm ideoloji, həm də elmi tədqiqat fəallığını xeyli aktuallaşdırır. Nəzərə almaq lazımdır ki, bu məsələ Azərbaycanın dövlət siyasətinin strateji mahiyyət daşıyan tərkib hissələrindən biridir. Ölkə rəhbərliyi həmin istiqamətdə mühüm işlər aparır.

Aydındır ki, bu məsələdə tədqiqat mərkəzlərinin də üzərinə böyük məsuliyyət düşür. Qərbi Azərbaycan məsələsi beyin mərkəzləri üçün əvəzedilməz və aktual tədqiqat mövzusu və fəaliyyət istiqaməti olmalıdır. Bütövlükdə mütləq şəkildə Qərbi Azərbaycanla bağlı müvafiq araşdırmalar aparılmalı, analitik yanaşmalar formalaşdırılmalı və bu istiqamətdə beyin mərkəzlərinin rolunun artırılmasına diqqət çoxalmalıdır. Qərbi Azərbaycan istiqaməti ilə bağlı proqnozlaşdırmanın aparılması və müvafiq ssenarilərin təklif edilməsi həyati əhəmiyyətli məsələdir.

Bu prosesdə kütləvi informasiya vasitələrinin və bütövlükdə ölkənin informasiya resurslarının aktiv iştirakı vacibdir. Çünki Qərbi Azərbaycan məsələsində informasiya texnologiyalarının və sosial medianın imkanlarının nəzərə alınması dezinformasiyanın və feyk xəbərlərin yayılmasına qarşı müabrizədə səmərəli vasitədir. Bu baxımdan informasiya təminatı beyin mərkəzlərinin həmin istiqamətdə fəaliyyətini tamamlamış olur.

Bütün dünya Qərbi Azərbaycanın gerçək tarixini bilməli və etnik təmizləməyə məruz qalan həmvətənlərimizin oraya qayıtmaq hüququnu zəruri saymalıdır. Bu, Böyük Qayıdışın daxili məntiqini ifadə edir. Bununla yanaşı, həmin strategiyanı yerinə yetirməyin konkret siyasi və diplomatik mexanizmləri olmalıdır. Bu, mühüm bir aspektdir.

## Xarici siyasətin prioritetləri kontekstində Qərbi Azərbaycan məsələsi

Məlumdur ki, Azərbaycanın xarici siyasət strategiyasının prioritet istiqamətləri bir-biri ilə sıx bağlıdır. Bu baxımdan Qərbi Azərbaycan məsələsi digər prioritet istiqamətlərlə vəhdətdə dərk edilməlidir. Eyni zamanda, onun reallaşmasının özünəməxsus xüsusiyyətləri də vardır. Hər şeydən öncə, burada iki cəhətin qarşılıqlı əlaqəsini təmin etmək lazım gəlir. Onlardan birincisi xalq və parlament diplomatiyasının bir-birini tamamlamasının təminidir. Digəri isə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun beynəlxalq təşkilatlarda yeni səviyyədə aktiv fəaliyyət göstərməsidir.

## Qərbi Azərbaycan və xalq diplomatiyası

Diplomatiya ənənəvi mənada hökumətlərarası ünsiyyətin (kommunikasiyanın, təmasların) formasıdır. Xalq diplomatiyası bu anlamda başqa ölkələrin xalqları ilə birbaşa münasibətlərin qurulması sistemini ifadə edir. Bu, özlüyündə mürəkkəb prosesdir və yalnız xalq kütləsini nəzərdə tutmur. Yəni, onun daxilində beynəlxalq münasibətlər səviyyəsində xalqın maraqlarının yeridilməsi və özünüidarəsi kimi məqamlar da mövcuddur. "Xalq maraqları" və "özünüidarə" anlayışları isə artıq konkret təşkil olunmuş siyasi və diplomatik fəaliyyəti ehtiva edir.

"Xalq diplomatiyası" terminini 1965-ci ildə amerikalı diplomat, Tafts Universiteti nəzdində fəaliyyət göstərən Fletçer Hüquq və Diplomatiya Məktəbinin dekanı Edmund Hallion daxil edib. Burada o, müxtəlif ictimai birliklər, fondlar və başqa qeyri-hökumət təşkilatları vasitəsilə beynəlxalq aləmdə dövlət məqsədlərinə və onun dəyərlərinin yeridilməsinə nail olmağı başlıca vəzifə kimi nəzərdə tutur.

Deməli, xalq diplomatiyasına bütövlükdə vətəndaş diplomatiyasının tərkib hissələrindən biri kimi baxdıqda, dövlətin xarici siyasətinin rəsmi diplomatiya ilə ahəngdarlığını mütləq nəzərə almalıyıq. Xatırladaq ki, vətəndaş diplomatiyası beynəlxalq arenada rəsmi diplomatiyanın məqsədləri ilə uyğunluq təşkil etməlidir. Xalq diplomatiyası konkret istiqamətlərdə və məqsədlərdə xarici siyasətdə müəyyən edilmiş məqsəd və məramlara uyğun olmalıdır. Buna görə də xalq diplomatiyası vətəndaş diplomatiyasının tərkibi kimi, müəyyən sosial institutlar, təşkilatlar, kanallar, fərdlər vasitəsilə həyata keçirilə bilər, eyni zamanda, müəyyən dövlət qurumları ilə koordinasiyalı aparıla bilər.

Qərbi Azərbaycan məsələsini Prezident İlham Əliyev mükəmməl şəkildə xarici siyasət kontekstində xalq diplomatiyasının mühüm istiqamətinə çevirib. Azərbaycan xalqı üçün Qərbi Azərbaycan həmin anlamda müstəqil dövlətçiliyin inkişafı üçün strateji əhəmiyyətli faktordur. İctimaiyyət həmin istiqamətdə aparılan siyasətə tam dəstək verir. Bu isə xalq diplomatiyasının həm milli məsələdə dövlətin yanında olduğunu ifadə edir, həm də erməni cəmiyyətinə sülh və əmin-amanlıq mesajları verir. Xalq diplomatiyasının əsas hədəflərindən birinin başqa cəmiyyətlərlə sülh, barışıq və əməkdaşlıq şəraitində yaşamaq olduğu dərsliklərdə belə öz əksini tapıb.

Buradan Qərbi Azərbaycan kontekstində parlament diplomatiyası ilə xalq diplomatiyasının münasibətlərinə keçmək olar.

## Parlament diplomatiyası

Politoloji ədəbiyyatda parlament diplomatiyası ümumi halda belə izah edilir: 1) parlament diplomatiyası xarici siyasətin istiqamətidir; 2) o, özündə rəsmi diplomatiya ilə ictimai diplomatiyanın xüsusiyyətlərini uzlaşdırır; 3) parlament diplomatiyasında deputatlar öz ölkələrinin legitim təmsilçiləri kimi çıxış edir və öz seçicilərinin maraqlarını ifadə edirlər. Xalq diplomatiyası kontekstində parlament diplomatiyası qanunyaradıcı, nəzarətedici, təşkilati və publik təmsilçilik kimi dörd funksiyanı yerinə yetirə bilər.

Burada Cozef Nayın (kiçik) vətəndaş diplomatiyası, xalq diplomatiyası və rəsmi diplomatiyanın münasibətləri kontekstində bir fikrini xatırlatmaq istərdik. Tanınmış politoloq yazır ki, xalq diplomatiyası həm vətəndaş diplomatiyasının elementlərini özündə daşıyır, həm də ölkə rəhbərliyinin mesajlarını özünəməxsus formada dünyaya bəyan edir. Yəni, xalq diplomatiyası vətəndaş diplomatiyası, parlament diplomatiyası və rəsmi dövlət diplomatiyası arasında bir çox məsələlərdə birləşdirici rol oynayır.

Azərbaycan Prezidenti İlham Əliyev parlament diplomatiyasına konkret Qərbi Azərbaycan məsələsində iki aspektdə məna verib. Birincisi, parlament və xalq diplomatiyasının Böyük Qayıdış Konsepsiyasının əsas strateji hədəfləri üzrə harmoniyasına nail olmaq. İkincisi, beynəlxalq münasibətlər kontekstində Qərbi Azərbaycan məsələsinin təbliği, təşviqi və həllində sıx əlaqəli şəkildə fəaliyyət göstərmək. Və bu iki mühüm istiqamətin Azərbaycanın xarici siyasətinin əsas məqamlarında sintezinə nail olmaq. Məhz həmin sintezin siyasi, hüquqi və diplomatik aspektlərinin dəqiq ifadəsi Qərbi Azərbaycan məsələsinin yeni tarixi mərhələdə xarici siyasət kursunun prioritetlərindən biri statusunu almasında öz əksini tapıb.

Beləliklə, yeni tarixi mərhələdə Azərbaycan Prezidenti Qərbi Azərbaycan məsələsini müstəqillik tariximizdə ilk dəfə olaraq xarici siyasətin prioritetlərindən biri səviyyəsinə yüksəldib və ona dəqiq, düzgün siyasi-diplomatik məzmun verib.

***Km lı ADIGÖZƏLOV***

# Göyçəlilər sonuncu dəfə necə qovuldular?

**Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda İrəvan şəhərini Ermənistana bağışlamışdır. İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır. Bunlar bizim tarixi torpaqlarımızdır.**

**Ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki, sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır. Bir daha demək istəyirəm ki, ermənilər bu bölgəyə qonaq kimi gəlmişdilər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Azərbaycan xalqı son 2 əsrdə beynəlxalq imperializmin himayə etdiyi ermənilərin törətdikləri soyqırımlarının, etnik təmizləmə siyasətinin hədəfi olmuşdur. Erməni millətçiliyi və onu dəstəkləyən mürtəce siyasi dairələr Azərbaycana qarşı düşmənçilik siyasətini sistemli kütləvi qırğın və deportasiyalar yolu ilə həyata keçirmişlər.**

1905–1906-cı illərdə baş verən qırğınlar, 1918–1920-ci illərdəki hadisələr, Sovet dövründəki zorakılıqlar və sonrakı dövrlərdəki etnik təmizləmələr - bütün bunlar "sadəcə" fərqli tarixlərdə baş verən ayrı-ayrı qanlı hadisələr deyil, həm də bir-birini tamamlayan, davam edən və hədəfi Azərbaycanın varlığını silmək olan bir siyasətin tərkib hissəsidir. Azərbaycanlıların İrəvandan 1988–89-cu illər deportasiyası 1828-ci ildən etibarən Rusiyanın həyata keçirdiyi etnik tərkibin erməniləşdirilməsi siyasətinin və sonrakı dövrlərdə isə Ermənistan hökumətinin reallaşdırdığı etnik təmizləmə siyasətinin son mərhələsi oldu.



**AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəxtiyar Əhmədovun redaksiyamıza təqdim etdiyi məqalədə 1988–1989-cü illərdə Göyçə mahalında yaşayan azərbaycanlıların deportasiyasından danışılır.**

Tarix boyu azərbaycanlıların öz dədə-baba torpaqları olan indiki Ermənistan Respublikası ərazisindən məcburən və kütləvi zorakılıqla qovulmasının sonuncu mərhələsi 1988–1989-cu illərdə baş vermişdir. 1988-ci il fevralın 20-də keçmiş DQMV-nin Xalq Deputatları Soveti



"Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılaraq Ermənistan SSR-in inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında" qərar qəbul etməsi millətlərarası münasibətləri daha da kəskinləşdirdi. Bu qərardan sonra Ermənistanın siyasi dairələrində də milli münaqişəyə təhrik edən siyasi tələblər irəli sürülməyə başladı. 1988-ci ilin iyun ayında keçirilən on birinci çağırış Ermənistan SSR Ali Sovetinin yeddinci sessiyasında DQMV Xalq Deputatları Sovetinin bu qərarı müzakirəyə çıxarıldı. Bu sessiyada erməni deputatlar öz siyasi riyakarlıqlarını nümayiş etdirərək bu qərarı ciddi cəhdlə müdafiə etdilər. Sevan seçki dairəsindən deputat olan A.M.Kirakosyan nitqində deyirdi: "Deputat yoldaşlar! Ali Sovetin bugünkü sessiyasında müzakirə olunan məsələ – Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə keçməsi barədə DQMV Sovetinin qərarı qanuni tələbdir və bu, həyata keçirilməlidir...". Bu sessiyada DQMV-nin qeyri-qanuni qərarı müdafiə olundu və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edildi.

Dağlıq Qarabağ ermənilərinin bu əsassız qərarı erməni katolikosu Vazgen tərəfindən də birmənalı şəkildə müdafiə olunmuşdur. Onun 1988-ci il iyulun 7-də Ermənistan televiziyası ilə çıxışında erməniçilik təfəkkürünə əsaslanılaraq tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi qərarını alqışlanılmışdır. O, öz çıxışında ermənilərə müraciət edərək deyirdi: "Mən bütün dünya ermənilərinin katolikosu müqəddəs Eçmiədzindən yenidən öz sözümlə sizə müraciət edirəm. Keçən fevralın sonlarında Qarabağın erməni əhalisi birgə qərarla ana Ermənistana birləşmək arzusunu ifadə etdi. Sovet Ermənistanı və xarici ermənilər fəxr ediləcək birlik və intizamla qarabağlıların ədalətli arzularına tərəfdar çıxdılar... Erməni analar, bacılar, qardaşlar, xüsusilə siz gənclər xalqın və vətənin ali mənafeyini unutmayın. Araratı qoruyun..."

Ermənistan siyasi və dini dairələrinin bu mənfur addımlarından sonra ermənilər, hər yerdə olduğu kimi, Göyçədə də açıq hərbi təcavüzə cəhd göstərdilər. 1988-ci il mart ayının 26-nı "Sumqayıtın qisas günü" elan etmiş "Krunk" cəmiyyətinin çağırışına cavab olaraq ermənilər Basarkeçərdə də qanlı aksiyalar törətmək iddiasına düşdülər. Guya bu qırğının qarşısını almaq istəyən SSRİ rəhbərliyinin hiyləgər taktikası da əslində hələ 1988-ci il martın 26-da, yəni 1918-ci il qırğınlarının 70-ci ildönümü günlərində Ermənistanın türklərdən təmizlənilməsi üçün real şərait yaratmışdı.

Guya millətlərarası toqquşmaya yol verməmək mahiyyəti daşıyan fövqəladə vəziyyət rejimi, o vaxt cəmi 500-ə qədər azərbaycanlının yaşadığı Yerevan şəhərində, bir nəfər türkün belə yaşamadığı Leninakanda tətbiq edilmiş, türklərlə ermənilərin qarışıq yaşadıqları kənd rayonları isə "unudulmuşdu". Əlverişli şəraitdən yararlanan "Krunk" əsasını Türkiyə və İrandan köçürülənlərin təşkil etdiyi Martuni və Kamo rayonlarındakı fəalları səfərbər edərək, onları demoqrafik üstünlük türklər tərəfdə olan Basarkeçərə yeritmişdilər. Amma martın 26-da "Krunk" fəalları gözlənilənin tam əksi olan mənzərə ilə rastlaşdılar.

Basarkeçər rayon mərkəzinin türk kəndlərinə yaxın qəsəbəsində – "Zod ORS" deyilən hissədə yaşayan ermənilər gecə ikən qəsəbəni tərk edərək, təhlükəsiz evlərə çəkilmişdilər. Elə həmin gün Zod mədənlərində işləyən Nərimanlı kənd sakini Fazil adlı bir türk oğlu onunla axmaq zarafat edən bir ermənini ağır traktorun təkərləri altında əzərək öldürmüş, cəmi 11 türk ailəsinin yaşadığı Tüstülü kəndindən isə gənc bir türk balası onu hədələyən erməni həmyaşıdını bıçaqla yaralamışdı.

1988-ci il iyun ayının 15-də Göyçə mahalında ermənilərin təcavüzkar hərəkətlərinə qarşı azərbaycanlılar öz etiraz səsini qaldırmalı oldular. Krasnoselo rayonunun Şorca və Gölkənd kəndlərində on min əhalinin mitinqi keçirildi. Səhərisi gün Basarkeçər rayonunun Şişqaya və Nərimanlı kəndlərində də azərbaycanlılar mitinqə çıxdılar. Ümumilikdə bu mitinqlərdə iyirmi mindən çox adam iştirak etmişdir.

Nəhayət, 1988-ci ilin yazında 17 azərbaycan türkünün yaşadığı kəndin nümayəndələrinin iştirakı ilə Nərimanlı kəndi ərazisindəki Göy körpüdə və Krasnoselo rayonu ərazisindəki kəndlərin birgə səyi ilə Şorça kəndində başlamış mitinqlərdə "Göyçənin Ermənistan SSR-in tərkibindən çıxarılaraq, Azərbaycan SSR-in ərazi – inzibati bölgəsinə daxil edilməsi" tələbi irəli sürülmüşdür. Təəssüflər olsun ki, Göyçə azərbaycanlılarının bu cəsarətli tələblərinə dəstək olaraq, noyabr ayının 17-də Bakıda "Azadlıq" meydanında yüzminlərlə insanın iştirakı ilə keçirilən mitinq zamanı Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyət verilməsi tələbi ilə qətnamə qəbul olunsa da, bu tələb o zamankı Azərbaycan SSR rəhbərliyi tərəfindən dəstəklənmədi.

1988-ci ilin sentyabr–oktyabr aylarında erməni millətçiləri ardı-arası kəsilməyən mitinqlər keçirir, bu bölgələrdən türklərin çıxarılmasını tələb edirdilər. Azərbaycanlıların evlərinə od vurulur, insanlar işgəncə ilə öldürülür, qadınların sinəsinə xaç çəkilir, uşağa, qocaya rəhm edilmirdi. Bu ərazilərin iqtisadi blokadası davam etdirilirdi. SSRİ rəhbərliyi isə bütün bunlara laqeydcəsinə göz yumurdu.

1988-ci il noyabr ayında Ermənistan SSR Ali Sovetinin sessiyasında aprelin 24-nün ermənilərinin qondarma genosid günü elan edilməsi erməni şovinizmini daha da fəallaşdırdı. Bu haqda "Sovet Ermənistanı" qəzetinin 17 noyabr 1988-ci il tarixli sayında yazılmışdı: "Aprelin 24-nün 1915-ci ildə ermənilərin genosid qurbanlarının xatirə günü elan edilməsi barədə Ermənistan KP MK sentyabr (1988) plenumundakı məruzədə verilən təklif respublika zəhmətkeşləri tərəfindən bəyənilmişdir. Bu təklifin qəbul edilməsi məqsədəmüvafiq hesab edilmişdir...".

1988-ci il noyabr ayının 22-də Ermənistanın SSR Ali Sovetinin sessiyası öz işini yarımçıq dayandıraraq, bütün instansiya rəhbərlərinə "noyabr ayının 28-dək respublikanın türklərdən təmizlənməsini təmin etmək" tapşırığı verildi. Ermənistanın bütün rayonlarına şamil edilən bu qərarın təsir dairəsinin mərkəzinə şübhəsiz ki, Göyçə mahalı və Ağbaba bölgəsi düşürdü. Çünki 1988-ci ilin noyabr ayınadək Ermənistan SSR-in digər rayonlarından türklərin deportasiyası, demək olar ki, başa çatdırılmışdı. Odur ki, Göyçə və Ağbabadan türklərin deportasiyasına rəhbərlik Ermənistan SSR-in ali rəhbərliyinə həvalə edilirdi.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan SSR-dən azərbaycanlıların çıxarılması üçün son hazırlıq işlərinə başlandı. İllərdən bəri həyata keçirilən "Türksüz Ermənistan" planının son mərhələsinə start verildi.

Bu mürtəce planın həyata keçirilməsində bütün vasitələrdən istifadə olunmağa başlanıldı. Hətta bu plana qarşı çıxan rayon rəhbərləri də işdən azad edilirdi. Azərbaycanlıların kompakt yaşadığı Basarkeçər rayonunda birinci katibi dəyişməyə ehtiyac olmadı. Çünki Razmik Yenqoyan və ikinci katib Aşot Akopyan həyata keçirilməkdə olan fitnəkarlıq hərəkatın başında dayanmışdılar. Rayon daxili işlər şöbəsinin rəisi Bahar Boxyan, Torf İstehsalat Birliyinin rəisi Qurgen Harutyunyan, Çaxırlı sovxozunun direktoru Arkadi Petrosyan, quşçuluq fabrikinin direktoru Albert Petrosyan "Türksüz Ermənistan" uğrunda başlanan avantürist kampaniyanın aparıcı liderlərindən idilər.

Bu dövrdə ermənilərin Göyçədə törətdikləri vəhşilikləri görmüş yüzlərlə canlı şahidlər var. Göyçədə baş vermiş hadisələrin tam mənzərəsini təsəvvür etmək üçün o zaman Göyçə qızıl mədənlərində çalışan, milliyyətcə rus olan L.V.Tolstyak şahid ifadəsində deyirdi: "1988-ci il noyabr ayının 27-də Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonradan Ermənistan KP MK-nın birinci katibi olmuş V.Movsesyan Vardenis (Basarkeçər) rayonunun Zod kəndinə gələrək, yerli əhalinin kəndi tərk etməsi üçün 3 gün vaxt verdiyini, əks halda təhlükəsizliyə təminat verilməyəcəyini bildirdi. Elə həmin gün kəndə elektrik enerjisi və ərzaq verilməsi dayandırıldı, gecələr kənd atəşə tutuldu".

Bu kimi daşnak-kommunistlərin bilavasitə rəhbərliyi ilə Göyçə əhalisi öz dədə-baba yurdlarından tamamilə qovularaq Azərbaycan SSR-ə "yola salındılar". Onlarla azərbaycanlı öldürüldü, döyüldü, şikəst edildi, yaralandı və qarlı-boranlı dağ yollarında həlak oldular. Təəssüflər olsun ki, 1988-ci ilin noyabrında ermənilərin Göyçədə həyata keçirdikləri soyqırımı və deportasiya siyasətinə o zamankı Azərbaycan hökuməti tam laqeydliklə yanaşdı. Əslində, bu "mövqeyi" ilə Azərbaycan hökuməti ermənilərin bilavasitə tərəfdaşı rolunda çıxış etdi, üstəlik deportasiyanı həyata keçirmək üçün erməni tərəfinə nəqliyyat yardımı göstərdi.

Hadisələrin bu qısa xronologiyasından da görünür ki, erməni faşistləri bu illərdə azərbaycanlılara qarşı ağlasığmaz vəhşiliklər törətmiş, sözün əsl mənasında soyqırımı siyasəti həyata keçirmişlər.

# Ermənistan azərbaycanlıların qayıdış hüququnu tanımalıdır

**Bakıda Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ – Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təşviqi" mövzusunda ikinci beynəlxalq konfrans işinə başlayıb. Dekabrın 5 və 6-da keçirilən beynəlxalq mərasimə 51 ölkədən 100-dən çox xarici qonağın qatıldığı bildirilir. Konfransda Qərbi azərbaycanlıların Ermənistandan zorla deportasiya olunmasının tarixi, onların qayıdış hüququnun əsasları, mədəni irsinin bərpası və bu sahədə diplomatik təşəbbüslər müzakirə olunur.**

Konfransın keçirilməsi Qərbi Azərbaycandan olan soydaşlarımız tərəfindən də böyük rəğbətlə qarşılanır. Vaxtı ilə əhalisinin 60 faizindən çoxu azərbaycanlılar olan **Krasnoselo rayonunda erməni təcavüzünə qarşı davamlı mübarizə aparan və bu rayonda uzun illər müxtəlif rəhbər vəzifələrdə çalışan, o cümlədən**



**1975–1983-cü illərdə Krasnoselo Rayon İcraiyyə Komitəsinə başçılıq edən el ağsaqqalı Abbas Mazanov bu barədə XQ-yə bildirir:**



– Ötən il də belə bir analoji beynəlxalq konfransın keçirilməsinə şahidlik etdik. "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdışını təmin etmək: qlobal kontekst və ədalətli həll" mövzusunda aparılan müzakirələrin tarixi əhəmiyyəti çox böyükdür. Bildiyim qədər mərasimdə 44 ölkədən 100-dən çox nümayəndə iştirak etmişdi.

Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdış konsepsiyasını irəli sürməsi cəmiyyətimizdə bu mövzuya konseptual baxış, dövlət-xalq birliyi formalaşdırmaqla ədalətin təntənəsinə böyük inam yaradıb.



2022-ci il dekabrın 24-də ölkə başçısının Qərbi Azərbaycan İcmasının inzibati binasında söylədiyi nitqi ilə Azərbaycanın ictimai-siyasi həyatında yeni bir mərhələyə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsi, bu tarixi torpaqlarımızdakı maddi və mənəvi irsimiz uğrunda mübarizə mərhələsinə start verilib.

Son iki yüz ildə Ermənistanın rəhbərləri Azərbaycanın milli-mədəni və tarixi irsinə qarşı törədilən soyqırımı siyasətini davam etdirmişlər. 1990-cı illərdəki bu siyasət Azərbaycanın bu torpaqlardakı varlığını silmək məqsədini güdərək ən alçaldıcı və vəhşi vasitələrlə həyata keçirilmişdir. Azərbaycanlıların bu ərazilərin tarixi və əzəli sakinləri olduğunu sübut edən izlər məqsədli şəkildə məhv edilmiş və kütləvi vandallıqla silinmişdir. 1988-ci ildən etibarən başlanan etnik təmizləmə nəticəsində on minlərlə azərbaycanlı ailəsinin əmlakı və mədəni irsi ermənilər tərəfindən talan edilərək mənimsənilmişdir. Qərbi Azərbaycanın qədim toponimləri isə tamamilə erməni adları ilə dəyişdirilmişdir. Erməni vandalizmi yalnız mədəniyyət abidələrinin dağıdılması ilə yekunlaşmamış, onun tarixini dəyişdirmək və qədimliyini saxtalaşdırmaq məqsədilə edilən restavrasiya işləri də barbarlıq və həyasızlığın bir nümunəsidir. Ümumilikdə, indiki Ermənistan ərazisində azərbaycanlılara aid 3 min 500 tarixi və mədəniyyət abidəsi, 500 qəbiristanlıq və 391 məscid qəddarlıqla dağıdılaraq tamamilə məhv edilmişdir.

Ermənistan hökuməti azərbaycanlılara məxsus maddi və qeyri-maddi mədəni irsi bilavasitə terror hərəkətləri ilə və azərbaycanlılara qarşı etnik ayrı-seçkiliyi təşviq edən təbliğat aparmaqla dağıdıblar. Dağıntı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən əvvəl, işğal dövründə və ondan sonrakı dövrdə baş verib. Ermənistandakı azərbaycanlı mədəni irsinin demək olar ki, hamısı hərbi əməliyyatların təsiri olmadan, əvvəlcədən planlaşdırılmış şəkildə məhv edilib. Başqa sözlə, Azərbaycan mədəni irsinin məhv edilməsinin hərəkət verici qüvvəsi Ermənistan hökumətinin mono-etnik və təkmədəniyyətli məkanın yaradılmasına yönəlmiş sistematik irqi ayrı-seçkilik siyasəti olmuşdur və təəssüf ki, bu mənfur hədəfləri reallığa çevrilib.

Tarixi reallıq budur ki, Qərbi Azərbaycanda min illər boyu yaşamağımız soydaşlarımızın etnik mövcudluğuna son qoyulması və onların mədəni irsinin məhv edilməsi son bir əsrdə dövlət siyasəti səviyyəsində gerçəkləşdirilib. Xüsusilə 1988-ci ildən başlanan sonuncu etnik təmizləmə nəticəsində on minlərlə azərbaycanlı ailəsinin əmlakı və mədəni irs nümunələri də ermənilər tərəfindən qarət edilmiş, mənimsənilmişdir. Bundan başqa, Qərbi Azərbaycanın qədim toponimləri bütünlüklə erməni adları ilə əvəzlənib. Barbar ermənilər soydaşlarımızı öz yurdlarından köçürməklə kifayətlənməyiblər, həm də oradakı mədəni irsimizi siliblər, tarixi abidələrimizi məhv ediblər. Gün gələcək erməni vandalları bütün bunlara görə ədalət məhkəməsi qarşısında cavab verəcəklər.

Ömrünün müdrik dövrünü yaşayan Abbas müəllim qeyd edir ki, qırx dörd günlük Vətən müharibəsində qələbə əzmi hər bir azərbaycanlını ruhlandırdığı kimi, uzun illərdir ki, doğma yurd-yuvalarından didərgin salınmış azərbaycanlıların da qəlbində böyük bir ümid çırağını şöləndirib. İşğal olunmuş dədə-baba torpaqlarımızı geri qaytarılması, hər gün azad Qarabağa yol alan köç karvanlarının müjdəsi qalib Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə güvəncimizi artırır. Ömrümün müdrik dövrünün qalan hissəsini əzəli torpaqlarımız olan Göycə gölünün ətrafında keçirəcəyimə möhkəm inanıram.

*Səhifəni hazırladı:*
*Namiq ƏHMƏDOV*
*XQ*

**Heydər Camalın xatirə günü**

# Unudulmaz filosof

**Dekabrın 5-i böyük mütəfəkkir, dinçi alim, filosof Heydər Cahid oğlu Camalın həyata vida etdiyi gündür. 8 il əvvəl bu xəbərin mətbuatda verildiyi gün onu ekrandan, canlı ünsiyyətdən tanıyan milyonlarla insan üçün sarsıdıcı gün oldu. Sağlığında onunla mübahisə etməyə, razılaşmamağa çalışanlar o həyatdan köçdüyü anda necə böyük boşluq yarandığının fərqinə vardılar.**



Keçmiş SSRİ və müasir Rusiya media məkanında özünü "96 əyarlı" intellektual adlandıran və dəvət etdiyi müsahiblərinin qarşısında jurnalistdən çox onlara "dərs verməyə" çalışan Vladimir Pozner Heydər Camalın yanında aciz qalır, onun dəmir məntiqli nitqində nöqsan tapmağa çalışsa da, buna nail ola bilmirdi. Poznerin məşhur insanlarla silsilə verilişlərindən birində Heydər Camala "Tanrının hüzuruna gələndə ona nə deyəcəksən" sualına alim belə cavab verdi: "İlahi, mən qayıtdım!"

Heydər Camalın yaxın dostu, özünü onun şagirdi hesab edən məşhur jurnalist, ictimai xadim Maksim Şevçenko deyir: O, Allahdan başqa, heç kimdən qorxmayan ziyalı idi".

Siyasətlə ciddi məşğul olan həmyerlimiz dünyada, Yaxın Şərqdə baş verən hadisələri, Qərbin Rusiyaya və Türkiyəyə qarşı apardığı mürəkkəb oyunları, müxtəlif dini cərəyanlardan öz çirkin əməlləri üçün istifadə etmələrini zərgər dəqiqliyi ilə təhlil edirdi. Atası qarabağlı olan Heydər Camal Qarabağ münaqişəsi zamanı nankor qonşuların Rusiya mətbuatında kök salmış nümayəndələri ilə qızğın mübahisələr edir, XIX əsrdə İrandan oraya köçürülmüş ermənilərin uydurma "qədimlik" nəzəriyyəsini darmadağın edirdi.

Mətbuatda, virtual internet məkanında Heydər Camal haqqında kifayət qədər məlumat var, bu gün də davamçıları onun fəlsəfi görüşlərini və mülahizələrini öyrənir, təbliğ edirlər. Vəfatından bir neçə ay əvvəl Moskvadakı mənzilində görüşüb söhbətləşmək şərəfi mənə də nəsib olmuşdu. O görüşdən 45 dəqiqəlik veriliş hazırlamışdıq. Rus təhsilli olduğuna görə rus dilində aparılan söhbətimizin son bölümündə "indi də bir neçə sualı azərbaycanca verin" – dedi və son vaxtlar Azərbaycanda islamın bəzi cərəyanlarının fəallaşması haqqında maraqlı fikirlər söylədi.

Heydər Camalın görüşləri ilə razılaşmayanlar, onu ziddiyyətli filosof adlandıranlar da vardı, amma opponentlərinin hamısı birmənalı olaraq onun ziyası, məntiqi, elmi əsaslandırmaları qarşısında tərksilah olur, onun nə qədər yüksəkdə durduğunu etiraf edirdilər. Ona görə də oxucularımıza həmyerlimiz haqqında çoxsaylı fikirlərin bir qismini çatdırmağı özümə borc bildim.

**Dmitri Bıkov, yazıçı-publisist:**

– Heydər Camala həmfikirlərindən daha çox opponentləri rəğbət bəsləyirdilər, çünki o, ehkamlardan uzaq idi, nə deyəcəyini əvvəlcədən təxmin etmək olmurdu, onunla yarışmaq qeyri-mümkündü. O, əqidəcə əsaslı filosof, sərbəst seçiminə görə islamşünas alim, mütəfəkkir və parlaq, cazibədar zahiri görünüşə malik insan idi. Onunla mübahisə etmək də, razılaşmaq da adama xüsusi zövq verirdi. İntellektual üsyankar olan Camalın həyatdan köçməsi ilə dünyada, xüsusən də intellektual cılızlaşmanın tüğyan etdiyi indiki Rusiyada ağıl və miqyas, müstəqil fikir qıtlığı yaranacaq. Kitablarının birində o yazır ki, mütləq tənhalıq – real həlli olmayan qeyri-adi daxili problemlə eyniləşməkdir. Bu mənada tənhalıqda Heydər Camal çox mənalı ömür yaşadı.

**Aleksandr Proxanov yazıçı, "Zavtra" qəzetinin baş redaktoru** "Əlvida, Camal" başlıqlı geniş yazısını belə başlayırdı:

– Heydər Camal vəfat etdi. Dünyadan dahi köçdü. Fikirləri yerdən ayrılıb göylərə, ənginliklərə baş vuran, yerdəki bütün suallara cavab axtaran bir dünya filosofu bizi tərk etdi. O, inqilabçı idi, amma səngərdə duran, intriqalar, təfriqələr axtaran inqilabçı yox, ümumdünya kateqoriyaları ilə düşünən, durğunluğa, haqsızlığa qarşı çıxan, bankirin alimdən, fırıldaqçının dərvişdən üstün olduğu dünyanı silib-süpürməyə hazır olan kateqoriyalarla fikirləşən inqilabçı idi. Xalq kütlələrinin bir zaman ölüm qorxusunu aşıb birləşərək ədalət inqilabı törədəcəyini güman edən Camal, şübhəsiz, rus dini fikrinin çox qiymətli incisidir və onun həyatdan köçməsi təkcə bizim üçün, onun dostları üçün deyil, həm də bütöv Rusiya gerçəkliyi üçün ağır itkidir.

**Vladimir Rerix, Qazaxıstanda Avropa və Asiya mediaforumun rəhbəri:**

– Heydər Camal mənim həyatıma 90-cı illərin əvvəlində, televiziyada apardığı bir verilişlə daxil oldu. Yeni kanalların açıldığı, müstəqil fikirli, orijinal düşüncəli adamların ekrana çıxdığı bir zamanda Heydər Camal özünəməxsus ahənglə gəldi. Onun monoloqları adamı valeh edirdi demək əslində, çox bayağı səslənər və aldığın zövqü tam ifadə etməz. O, auditoriyanın xoşuna gəlməyə çalışmırdı, sadəcə olaraq, öz fikirlərini səsləndirirdi. Onun nitqi sanballı metaforalarla zəngindi, yüksək təhsillə, mədəni çalarlarla yoğrulmuşdu və qüsursuzdu. Nitqindəki fikirlər tam, kəskin və son dərəcə aydın ifadə olunurdu. Çağdaş Rusiyada rus dilini onun qədər dəqiq bilən və fikrini səlis ifadə edən adam yoxdur.

Özüm ateistəm və dinləri insanları idarə etmək üçün düşünülmüş vasitə hesab edirəm, amma Heydər Camal mənim üçün dindar və ya din təbliğatçısı deyil, İslamı öz fəaliyyətində bir vasitə kimi istifadə edən mütəfəkkir idi. Bir dəfə ondan soruşdum: "Sizin dünyaya baxışınızın məntiqini anlamağa çalışıram və başa düşə bilmirəm ki, Allah filosofun nəyinə lazımdır?" Bir az susduqdan sonra "Bir vaxt öləcəyinizi düşünürsünüzmü" – deyə sual verdi. "Bəli, – dedim. – Öləcəm, sonra da məzarımın üstündə ot bitəcək..." O, bir az kinayəli gülümsədi və doğrudanmı onu filosof hesab etdiyimi soruşdu. Əlbəttə, dedim. Cavabında Heydər Camal dedi: "Fəlsəfə ölüm haqqında fikirləşməkdən başlayır. Və əqidən olmasa, fəlsəfəni dərk edə bilməzsən".

O Qazaxıstanda vəfat etdi və burada da dəfn olundu, bizim torpağı şərəfləndirdi, amma boğazıma getdikcə məni daha çox boğan yetimlik ilgəyi vurdu.

Heydər Camal siyasət və fəlsəfə kəhkəşanında parlayan bir ulduz idi. Onun xatirəsi mənəvi və fəlsəfi irsinə bələd olanların qəlbində uzun müddət yaşayacaqdır.

**Cəfər SADIQ**
**Moskva**

**Yeni nəşr**

# Uşaq ədəbiyyatının nəzəri tədqiqi

**Tənqidçi-ədəbiyyatşünas, filologiya elmlər doktoru, Milli Məclisin deputatı Elnarə Akimovanın "Azərbaycan uşaq ədəbiyyatı: tarixi təcrübəsi və müasir istiqamətləri" adlı yeni kitabı çap olunub. "Elm və təhsil" nəşriyyatında işıq üzü görən kitabın elmi redaktoru və ön sözün müəllifi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, rəyçiləri filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan və filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlıdır.**




Kitabda çağdaş humanitar fikrinin kontekstində Azərbaycan uşaq ədəbiyyatının tarixi təcrübəsi – təşəkkülü, yaranması və inkişafı ümumiləşdirilir. "Uşaq ədəbiyyatı: tarixdən çağdaşlığa", "Klassika modern işığında", "Uşaq mətnləri diskurs kimi", "Uşaq ədəbiyyatında müharibə və zəfər duyğuları", "Dərsliklərin vəziyyəti: problemlər, qayğılar", "Müsahibələr: analitik müstəvidə", "Müzakirə saatı: söhbətlər, düşüncələr", "Uşaq ədəbiyyatında imzalar" adlı bölmələrdə sistemləşdirilən mətnlərdə uşaq ədəbiyyatının müasir istiqamətləri ilə bağlı dəyərləndirmə aparılır, müxtəlif uşaq ədəbiyyatı nümunələrinin poetikası, üslub və növ zənginliyi nəzəri analizə cəlb olunur, habelə Zəfər tariximizdən sonra uşaq ədəbiyyatının vardığı yeni hüdudlar tədqiqat predmetinə çevrilir.

Kitab humanitar fikir adamlarına, elm, ədəbiyyat və geniş oxucu auditoriyalarına ünvanlanmışdır.

**XQ**

# Şuşa, övladların geriyə dönürlər

**Dekabrın 4-də növbəti köç karvanı ilə Şuşaya qayıdan daha 48 ailəyə evlərinin açarları təqdim olunub. Beləliklə, 164 nəfər Şuşa sakini də dünən doğma yurduna qovuşub.**



Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda yurduna dönən məcburi köçkünlərlə yanaşı, bölgədə aparılan layihələrin icrasında çalışan, eləcə də ayrı-ayrı dövlət qurumlarınınvə şirkətlərin yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 30 minə yaxın insan yaşayır.

**XQ**

**Ölümsüzlük**

# Zaqatalanın Şuşa şəhidləri

**Birinci Qarabağ müharibəsində torpaqlarımızın erməni təcavüzündən müdafiə olunmasında rayonumuzun vətənpərvər oğulları mərdliklə vuruşmuşlar. O dövrdə vahid ordu formalaşmadığından torpaqlarımızın müdafiəsini ayrı-ayrı silahlı birləşmələr aparırdılar. Ölkədəki böhranlı vəziyyət Qarabağda gedən döyüşlərə də mənfi təsir göstərirdi. Döyüşənlərin əlində əməlli- başlı silah-sursat yox idi, bu səbəbdən düşməndən geri alınan yerlər bir qədər sonra yenidən işğala məruz qalırdı.**


Əhməd Abdulov


Akif Rəsulov


Afər Mütəllidov

Vətən sevdalı döyüşçülərimiz o vaxt üçün bəlkə də mümkün olmayanı etməyə qadir idilər. Hərb meydanında ən güclü silahları qeyrətləri idi. Lakin dünyanın silahlandırdığı erməni faşistlərinin gündən-günə artan işğalçılıq niyyətlərinin qarşısının alınmasında bəzən bu da yetərli olmurdu. Hər halda onlar Vətən qarşısında canlarından keçməyə hazır idilər və çoxları bu amal uğrunda sonadək vuruşaraq şəhid oldular. Yəqin ki, onlar Vətən uğrunda canlarından keçərkən niskilli idilər: torpaqlarımız işğal olunurdu, yurd yerlərimiz oda qalanır, soydaşlarımız isti ocaqlarından pəjmürdə halda didərgin düşürdülər.

1992-ci ilin may ayının başlanğıcında çox ağır xəbər bizləri tamamilə sarsıtdı. Məkrli düşmən atəşkəs barədə İranda danışıqlar aparmaq adıyla o vaxtkı ölkə rəhbərliyini aldatdı, yaranmış fürsəti əldən verməyərək Qarabağımızın tacı sayılan Şuşanı işğal etdi. Mən bu xəbəri eşidəndə əsla inanmaq istəmədim. Çünki Şuşanı işğal etmək elə də asan bir məsələ deyildi. Şəhərin yerləşdiyi məkan özü-özlüyündə bir istehkam idi. Lakin xain əllər, satqın planlar, bacarıqsız hərbi idarəetmə düşmənin niyyətinin baş tutmasına zəmin yaratmışdı. Şuşanın müdafiəsində Ramiz Qənbərovun özünü müdafiə batalyonu ən döyüşkən qüvvə sayılırdı. Azərbaycanımızın hər yerindən toplaşan qorxmaz və cəsur könüllülər bu batalyonun adını şöhrətləndirmişdilər. Onların arasında zaqatalalılar da var idi. Özünümüdafiə batalyonunda onlar sayılıb-seçilən döyüşçülər hesab olunurdular. Vətən darda qalanda bu igidlər sakit və düzənli həyatlarını buraxaraq döyüşlərə qatıldılar.

Şuşa uğrunda gedən döyüşlərdə şəhid olan həmyerlilərimizin hamısı- Aşağı Taladan Aslan Babasiyev, Bayram Səfərov, Zaqatala şəhərindən Afər Mütəllimov, Abdulla Eminov, Muğanlıdan Akif Rəsulov və Əhməd Abdulov sovet ordusunda xidmət etmişdilər. Afər Mütəllimov 1987-1989-cu illərdə Əfqanıstanda, Akif Rəsulov isə Stavropolda hərbi dəniz qüvvələrində miçman kimi xidmət keçmişdilər. 1992-ci ilin mart-aprel aylarında torpaqlarımızın müdafiəsinə könüllü yollanan bu igidlər birbaşa Şuşaya yollanırlar. Bu da səbəbsiz deyildi. İşğalçılar bütün qüvvələrini məhz Şuşa istiqamətinə cəmləşdirmişdilər. 1992-ci ilin may ayının 5-də Aşağı Tala kəndinə ailəsinə baş çəkməyə gələn Aslan Babasiyev sanki sonuncu dəfə doğmalarıyla halallaşmağa gəlmişdi. Görünür, taleyi beləymiş.

Şuşa uğrunda döyüşlər bir müddət idi ki, davam edirdi. Şuşa ətrafındakı kəndlərin müdafiəsi aylarla davam edirdi. Mayın 8-də düşmən Şuşa şəhərinə bir neçə istiqamətdə hücuma keçmişdi. Ən ağır döyüşlər "zapravka" deyilən yerdə gedirdi. Zaqataladan olan könüllülər burada müdafiə mövqeyi tutmuşdular. İşğalçıların bu istiqamətdən şəhərə girmək üçün etdiyi cəhdlər boşa çıxdı. Lakin zaman keçdikcə şəhərin müdafiəçilərinin sıraları azalır, köməyə gələcək qüvvələrdən isə xəbər-ətər yox idi. Aslan Babasiyevlə Abdulla Eminov yan-yana, bir səngərdə şücaətlə vuruşur, irəliləməyə cəhd edən düşmən əsgərlərini məhv edirdilər. Lakin qüvvələr nisbəti qeyri-bərabər olduğundan vəziyyət getdikcə ağırlaşırdı.

Qəhrəman döyüşçülərimiz son damla qanlarınadək şəhəri müdafiə etdilər. Durduqları mövqelərdə igidliklə şəhid oldular. Döyüş yoldaşları axşamüstü Aslanın, Bayramın cəsədlərini taparaq dəfn edirlər. Lakin digər həmyerlilərimiz Afər Mütəllimovun, Abdulla Eminovun, Akif Rəsulovun, Əhməd Abdulovun dəfn olunduqları yer naməlum olaraq qalır.

Şuşa şəhidlərinin qəhrəmanlığı uzun illər boyu insanların qəlbində yaşadı. Ailələri hər il may ayının 8-də məzarları və cəsədləri düşmən işğalında qalan övladlarının ağrı-acısını böyük kədərlə yaşadılar. Dövlətimiz və ictimaiyyət də bu ailələri diqqətdən kənarda qoymur. Vaxtilə oxuduqları orta məktəblərə, getdikləri uşaq baxçalarına, mədəniyyət ocaqlarına onların adları verilərək əbədiləşdirildi. Onların qəhrəmanlığı böyüyən gənc nəsillərə nümunə kimi təbliğ edilir.

Torpaqlarımızın işğaldan azad olunması üçün vətənpərvər gənc nəsil yetişirdi. Bu gənc nəsil məhz Birinci Qarabağ müharibəsindəki qəhrəmanların qisasını almaq üçün ciddi-cəhdlə sonuncu və həlledici savaşa hazırlaşırdı. Azərbaycan ordusunda xidmət keçən hərbçilərimizin peşəkarlığı və


Bayram Səfərov


Abdulla Eminov


Aslan Babasiyev

vətənpərvrliyi elə bir səviyyəyə çatdı ki, artıq müqəddəs savaşa hər an başlamaq olardı. 2020-ci iliin sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan ordusu 44 gün ərzində otuz ilə yaxın bir dövrdə torpaqlarımızda möhkəm istehkamlar və müdafiə səddləri quran, əlverişli mövqelərdə yerləşən düşmən qüvvələrini darmadağın edərək Qarabağı işğaldan azad etdi.

Şuşa şəhərinin işğaldan azad olunması unikal bir hərbi əməliyyat kimi dünya hərb tarixinə daxil olmuşdur. Şuşanın işğaldan azad olunması Azərbaycan əsgər və zabitinin inanılmaz qəhrəmanlığını və şücaətini bütün dünyaya nümayiş etdirdi. Yenə də ayın 8-i idi. 2020-ci ilin noyabrın 8-i. Bu dəfə tarixi Zəfər qazanılmışdı. Ali Baş Komandan İlham Əliyev Şəhidlər Xiyabanından xalqımıza verdiyi qələbə xəbərində bildirdi: "Əziz Şuşa sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" O anda keçirdiyimiz hissləri sözlə ifadə etməkdə acizik. Şuşanın azad olunmasıyla İkinci Qarabağ müharibəsində işğalçı Ermənistan tam məğlubiyyətə uğradı, təslim olmaq aktını imzaladı.

Artıq Şuşada, cümlə Qarabağda həyat yenidən öz axarına qayıdır. Şuşa bizim mənəvi gücümüzü, Vətən sevdamızı artırır, qalib ölkənin vətəndaşları kimi işğaldan azad olunmuş torpaqlarımıza səfərlər edir, otuz illik həsrətimizə son qoyuruq. Əminik ki, günlərin birində Zaqataladan Şuşa uğrunda döyüşlərdə şəhid olan 6 qəhrəmanın ailələri də bu şəhərə səfər edərək `onların əziz xatirəsini yad edirlər, ruhlarına dualar oxuyurlar. Məzarlar hələlik müəyyən olunmasa da ürəklərinin dərinliyində bir təskinlik tapırlar ki, onların oğullarının qanları yerdə qalmadı, arzuları həyata keçdi, Şuşa azadlığına qovuşdu. Şuşa uğrunda gedən döyüşlərdə şəhid olanların ruhları uzun müddətdən sonra şaddır. Şəhəri qanları və canları bahasına müdafiə edənlərin, mənfur düşməndən azad edənlərin tarixi xidmətləri əsla unudulmayacaq. Onların qəhrəmanlığı hər zaman xatırlanacaqdır. Şuşada təbii ki, onların xatirəsi əbədiləşdiriləcək. Şuşa uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olan, yaralanaraq qazi olan zaqatalalıların adları gələcək nəsillər üçün bir örnək kimi həmişə yaşayacaqdır.

**İbrahim BƏXTİYAROĞLU,**
**"Zaqatala" qəzetinin baş redaktoru**

Şamil Mahmudbəyov – 100

# Filmlərində yaşayan rejissor

**Tanınmış kino rejissoru, aktyor, ssenarist Şamil Mahmudbəyov 73 il yaşayıb və bu gün o, sənət həyatını çəkdiyi və çəkildiyi filmlərdə davam etdirir.**



Şamil Mahmudbəyov əslən Qərbi Azərbaycanın Böyük Vedi mahalından, əsil-nəcabətli bir nəsildən idi. Mənbələrdə onun doğum ayı və günü iki cür qeyd olunub: özü həmişə dekabrın 5-də doğulduğunu deyirdi. Bir çox sənədlərə də elə bu cür yazılıb, amma bəzi qeydlərdə fevralın 6-da dünyaya göz açdığı bildirilir.

Balaca Şamilin 1 yaşı olanda atası Fərəməz Mahmudbəyov sürgünə göndərilib. Onun adını oğluna qoyduğu yaxın dostu – tanınmış ictimai xadim, sonralar Azərbaycan Foto-Kino İdarəsinin rəisi olmuş Şamil Mahmudbəyov ailəni himayə edib. Balaca Şamil böyük Şamilin qayğısını görüb. Amma o da repressiyaya uğrayandan sonra gələcək kinorejissor zamanın amansız pəncəsində köməksiz qalıb, bundan sonra öz gücünə arxalanmalı olduğunu dərk eləyib. Qroznıda hərbi-texniki məktəbi qurtarıb, sonra İkinci Dünya müharibəsində Ukrayna cəbhəsində döyüşən hissənin tərkibində vuruşub, 1948-ci ilə qədər orduda qulluq edib.



Sonra o, Bakı kinostudiyasında rejissor assistenti kimi işə düzəlib, 1 il keçməmiş Moskvaya – Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsinə oxumağa göndərilib. İlk kursdanca ekran adlı sehirli aləmin sirlərinə varmağa ürəkdən can atıb, sübut etməyə çalışıb ki, kinoda təsadüfi adam deyil. Onun kurs işləri ekrana ciddi münasibəti, özəl düşüncə tərzi ilə diqqət çəkib.

Bakıya qayıtdıqdan sonra Şamil Mahmudbəyov əsl məktəb olan yaşlı və təcrübəli həmkarları – Hüseyn Seyidzadə, Əjdər İbrahimov, Tofiq Tağızadə, Lətif Səfərov kimi ustadlardan sənət dərsi alıb. Quruluş verdiyi ilk bədii lenti "Sol gediş" adlı qısametrajlı televiziya filmi olub. Bütün bunlarla bərabər, Şamil Mahmudbəyov bir ulduz kimi 40 yaşından sonra parlayıb. Ona Sabit Rəhmanın "Romeo mənim qonşumdur" kino-komediyasını ekranlaşdırmağı təklif ediblər və öhdəsindən bacarıqla gəlib. Təsadüfi deyil ki, 1963-cü ildə çəkilmiş həmin film hələ də böyük maraqla baxılan ekran əsərlərindəndir. "Yenilməz batalyon"dakı Qaçaq Əlimərdan, "Fəryad"dakı erməni hərbi hakim Samvel, "Fransız"dakı Dayı rolları onun bir aktyor kimi böyük məharətinin nümunələridir.

Bədii dolğunluğu və uğurlu rejissurasına görə milli kinomuzun ən yaxşı nümunələrindən sayılan qısametrajlı "Qaraca qız" (1966) filmi Şamil Mahmudbəyovun daha bir özünütəsdiqi olub. Beləliklə, o, illərcə öncül və məhsuldar kinorejissorlarımız sırasında yer alıb, poetik kino cərəyanının formalaşdırılmasına sanballı töhfələr verib. Filmdən-filmə rejissor dəst-xəttini cilalayıb, kinomuza yeni duyum, yeni obrazlar gətirib. "Torpaq, Dəniz, Od, Səma" (1970) lirik-fəlsəfi pritçası dramaturji baxımdan da, mövzunun rejissor yozumu sarıdan da Azərbaycan ekranında sovet kino nəzəriyyəsinin çərçivələrini dağıdan film kimi bəyənilib. "Mozalan" satirik kinojurnalı üçün çəkdiyi və çəkildiyi süjetlərdəki işi yaddaqalan olub. Həmkarları deyirlər ki, o, nəinki bədii filmlərə, hər sənədli və televiziya filminə belə böyük sevgi ilə ekran ömrü verməyə çalışıb və nail olub...

Şamil Mahmudbəyovun "Şərikli çörək" (1969), "Həyat bizi sınayır" (1972), "Skripkanın sərgüzəştləri" (1972), "Dörd bazar günü" (1975), "Dərviş Parisi partladır" (K.Rüstəmbəyovla birgə, 1976), "Bayquş gələndə" (1978), "Od içində vahə" (1978) filmləri də onun kinorejissor kimi çox böyük uğurları sırasındadır. Əvvəlcə Azərbaycan SSR Dövlət Mükafatı, ardınca kinomuzun 60 illik yubileyi münasibətilə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülməsi sənət kuluarlarında onun halal haqqı sayılır.

Bir ara bədxahlarının hərəkətləri üzündən kinodan ayrı düşən Şamil Mahmudbəyov ("Tənha narın nağılı" əsərini ekranlaşdırdığı zaman, yersiz olaraq, kiminsə filmə şərikli rejissor təyin edilməsi ona möhkəm toxunmuşdu), nəhayət, 90-cı illərdə gözəl rejissor Vaqif Mustafayevin təklifi ilə "Divar" (bədii) və "Adam" (qısametrajlı) filmlərinə quruluş verməyə başlayıb. Amma onun böyük peşəkarlıq və duyumla girişdiyi bu lentlər yarımçıq qalıb.

Şamil Mahmudbəyov 1997-ci il mayın 18-də dünyasını dəyişib. Dostları və həmkarları onun yalnız son filmini – "Adam"ı 2010-cu ildə tamamlaya biliblər. Həmin filmin təqdimatı isə düz yeddi il gecikib – 2017-ci ildə baş tutub…

Milli kinomuzun canlı ensiklopediyası Aydın Kazımzadə bizimlə söhbətində rejissorun həyat tarixçəsinə geniş nəzər saldı. Hələ ömrünün ilk illərindən onu təqib edən kədər və əzablardan bəhs etdi, rejissor kimi ekran həyatı verdiyi filmlərindən, xüsusilə də uşaq filmlərinin üstün keyfiyyətlərindən söz açdı. Bir daha əmin olduq ki, əsl sənətkarlar unudulmur, yaratmış olduqları əsərlərdə yaşayırlar.

**Ə.NƏCƏFXANLI**
**XQ**

# Hər kitab bir dünyadır

## "Dağların və çöllərin nəğmələri"

Qazaxıstan Yazıçılar Birliyinin və Türk Dünyası Yazarlar Birliyinin sədri, Qazaxstanın Dövlət mükafatı laureatı, UNESCO-nun Mədəniyyət və İncəsənət Akademiyasının həqiqi üzvü, görkəmli qazax şairi Uluğbek Esdauletin "Elm və təhsil" nəşriyyatında buraxılmış yeni şeirlər kitabı belə adlanır.

Mahmud Kaşqari adına Beynəlxalq Fondun nəşrə hazırladığı kitaba dünya çaplı türk şairi və ictimai xadimi Oljas Süleymenov "Ön söz" yazıb və qeydlərində Ulugbek Esdauletin şeirlər toplusunun Azərbaycanda, böyük Nizaminin vətənində yeni nəşrini alqışladığını bildirib. Şeirləri orijinaldan tanınmış şair-tərcüməçilər Elxan Zal və İbrahim İlyaslı çeviriblər. Nəfis tərtibatla nəşr olunmuş kitabda şairin şeirləri Azərbaycan və Qazax dillərində qoşa yer alıb.




***Mən sözü göründə dostlaşdım haman,***
***Vurulub, ardına düşdüm hər zaman.***
***Sözün zəhərindən öldüm az qala,***
***Yenidən dirildim onun balından.***

Kitabı oxuyanlar qədim türk ellərinin dağlarının və çöllərinin ətrini duyacaq, qartalların qıy vurduğu zirvələrin vüqarını yaşayacaqlar.

## "Çağdaş Azərbaycan hekayəsi" tatarca

Qardaş Tatarıstanın paytaxtı Kazan şəhərində "Çağdaş Azərbaycan hekayəsi" antologiyası işıq üzü görüb.

Tatarıstan Respublikası Dövlət Şurasının deputatı, Tatarıstan Yazıçılar Birliyinin sədri, Xalq şairi Rkail Zəydulla və Beynəlxalq "Alaş" Ədəbiyyat mükafatı laureatı, DGTYB Məsləhət Şurasının sədri Əkbər Qoşalının layihə rəhbəri olduğu antologiya "Ədəbi birgəlik" seriyasından yayınlanıb.

Tatarıstan Dövlət Şurasının Təhsil, Mədəniyyət, Elm və Milli Məsələlər Komitəsinin üzvü Rkail Zəydullanın ön sözü və Azərbaycan Respublikası Milli Məclisinin Komitə sədri Fazil Mustafanın "Bakıdan Kazana ədəbi və əbədi salam" uğurlaması ilə açılan antologiyanın I cildində əsasən 90-cılar ədəbi nəslinə mənsub olan 18 yazıçımızın hekayəsi toplanıb.




## Bakılı yazıçının kitabı Təbrizdə

Azərbaycan yazıçısı Kamran Nəzirlinin "Sevgi ağ rəngdə olur" adlı hekayələr toplusu Təbrizin "Aydınsav" nəşriyyatında çapdan buraxılıb. Kitabda yazıçının son illər yazdığı "Yarpaqlar töküləndə", "Sevgi ağ rəngdə olur", "Mənim sevimli yadaşım", "Qara nöqtə", "Şopenin sonatası",



"Yelləncək, süpürgəçi qadın və pişik", habelə digər hekayələri yer alıb. Kütləvi tirajla çap olunan kitab artıq satışdadır.

Kitabın tərtibçisi "Aydınsav" Təbriz Nəşriyyatının müdiri Aydın Dumandır, mətnləri fars dili əlifbasına təbrizli şair və tərcüməçi Nurəddin Müsəddiq uyğunlaşdırıb.

**Ə.DOSTƏLİ**
**XQ**

# İlya Çavçavadzeyə dostluq ehtiramı

**Qonşu Gürcüstanın Laqodexi rayonunun "Qabal Ədliyyə Evi"ndə azərbaycanlıların yaxın dostu, görkəmli yazıçı, şair, publisist və ictimai xadim İlya Çavçavadzeyə həsr olunan dəyirmi masa keçirilib.**



Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi və layihələri çərçivəsində "Qabal İnkişaf Mərkəzi"nin təşkil etdiyi mərasimdə azərbaycanlı və gürcü ziyalılar, gənclər və məktəblilər iştirak ediblər.

Mərkəzin direktoru Yavər Məmmədov bildirib ki, bu cür tədbirlər azərbaycanlılar və gürcülər arasında mədəni əlaqələrin möhkəmlənməsinə, dialoqun təşviqinə töhfə verir. Qeyd olunub ki, gürcü millətinin "mənəvi atası" adlandırılan İlya Çavçavadze azərbaycanlılara qarşı rəğbəti ilə seçilib. O, redaktoru olduğu "İveriya" qəzetində Azərbaycan atalar sözlərini, maarifpərvər şair və mütəfəkkir Mirzə Şəfi Vazehin kəlamlarını dərc etdirib. Onun dostu və silahdaşı Akaki Tsereteli Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyasını tərcümə etməyə başlayanda bu barədə həmin qəzetin səhifələrində məlumat verilib. "İveriya" qəzetində İ.Çavçavadze azərbaycanlıların böyük rəğbət bəslədiyini söyləyirdi və onların milli xüsusiyyətlərinə dair bir sıra məqalələr dərc etdirirdi. O yazırdı: "Azərbaycanlılar açıqqəlbli, sakit, təmkinli, təvazökardırlar. Azərbaycanlı kiməsə dəyər verirsə və etibar edibsə, o, nə xəyanət, nə də xainlik edər. Azərbaycanlı onun gözündə ağıllı, təcrübə və mərdliyi ilə fərqlənənə hörmət bəsləyir".

Mərkəzin gürcü dili müəllimi Telli Qiyasova tədbir iştirakçılarına böyük gürcü mütəfəkkirinin həyat və yaradıcılığı haqqında geniş məlumat verib, azərbaycanlı yeniyetmə və gənclərin Gürcüstan ədəbiyyatını öyrənmələrinin vacibliyini qeyd edib. O bildirib ki, İ.Çavçavadze yalnız Gürcüstanın deyil, bütün Qafqazın gələcəyini düşünürdü. O, hərtərəfli dahi şəxsiyyət olub.

Rayonun gürcü ziyalıları çıxışlarında azərbaycanlı gənclərin İ.Çavçavadzenin həyat və yaradıcılığına göstərdikləri böyük maraqdan fərəh duyduqlarını bildiriblər. Onların sözlərinə görə, Gürcüstanın müasir azərbaycanlı gəncləri ağıllı və bacarıqlıdırlar. Bugünkü gənclər Gürcüstan və Azərbaycan arasında gələcək münasibətləri inkişaf etdirərək daha da möhkəmləndirəcəklər.

Digər çıxış edənlər də İ.Çavçavadzenin yaradıcılığından söz açıb, onun demokratikləşmə və tərəqqi ilə bağlı ideyalarının bu gün də aktual olduğunu vurğulayıblar.

**XQ**

# "Ulduz"un Füzuli sevgisi

**"Ulduz" jurnalının dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş noyabr–dekabr sayı çap olunub.**

Jurnalın bu xüsusi sayı "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı" ilə açılır. Sonrakı səhifədə ümummilli lider Heydər Əliyevin Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqi yer alıb.

"Ulduz"un, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin və "Təhsil" Nəşriyyatının birgə layihəsi olan xüsusi nömrənin redaktoru filologiya elmləri doktoru Pərvanə Bəkirqızıdır.

Xüsusi buraxılışda "Heydər Əliyevin Füzuli sevgisi", Firidun bəy Köçərlinin "Molla Məhəmməd Bağdadi "Füzuli"




təxəllüsü, Mirzə Cəlilin "Füzuli", Abdulla Şaiqin "Füzuli haqqında düşüncələrim", Bəkir Çobanzadənin "Füzuli və onun yeri", "Cəfər Cabbarlının "Füzuli haqqında", Əkrəm Cəfərin "Füzulinin yubileyi qarşısında qəlbim", Məsud Əlioğlunun "Füzuli və müasir ədəbiyyatşünaslığımız" məqalələri verilib. Bu sayda Əliağa Vahidin "Füzulidən təxmis", Bəxtiyar Bahabzadənin "Onun pərişanlığı" və "Qəlb şairi" yazılarını da oxuya bilərsiniz. Əli Kərimin "Füzuli", Zəlimxan Yaqubun "Görüş – ayrılıq", Məmməd Cəfərin "Füzuli sevir", Rəsul Rzanın "Uzaq ellərin yaxın töhfələri", Səmət Əlizadənin "Füzuli sözünün sehri", Yaşar Qarayevin "Türk-İslam intibahının zirvəsi Füzuli", Nihad Sami Banarlının "Füzulinin duası" adlı qeydlərində də dahi şairin yaradıcılığından söz açır.

Xüsusi buraxılışda Füzulinin söz gülşənindən seçmə qəzəllər təqdim olunur. "Dərgidə sərgi" rubrikası altında isə Əfşan Rafaelqızının əsərləri yer alıb.

**XQ**

# Dərbənd Teatrının Bakı təntənəsi

***Xəbər verdiyimiz kimi, 120 illik yubileyini qeyd edən Dərbənd Azərbaycan Dövlət Dram Teatrı respublikamızda qonaqdır. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında bu yaradıcı kollektivin ifasında "Oğru" tamaşası nümayiş etdirilib.***

Tamaşadan əvvəl yubiley münasibətilə çıxışlar olub. Teatrın baş rejissoru, Əməkdar artist Sərvər Əliyev Dərbənddəki milli sənət məbədinin tarixindən danışıb. O, təqdim olunan səhnə əsərini Miroslav Mitroviçin "Gecəyarısı soyğunçuluq" pyesinin motivləri əsasında Rusiyanın Əməkdar artisti Tamerlan Sabanovun hazırladığını, əsərə səhnə tərtibatını isə Dağıstanın Əməkdar rəssamı Dəmir İsaakovun verdiyini bildirib.

Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri, Xalq artisti Hacı İsmayılov teatrın inkişafından söz açaraq deyib ki, Dərbənd Azərbaycan Dövlət Dram Teatrı maraqlı tamaşaları ilə rəğbət qazanıb. Xalq artisti İlham Namiq Kamal, Əməkdar artist Azad Şükürov, "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri Nurulla Əliyev və digər natiqlər də ürək sözlərini söyləyib, teatra ən xoş arzularını çatdırıblar.

Sonra səhnənin pərdələri açılıb və tamaşa başlayıb. Əsas rolları Aygün Nəcəfova, Şükufə Məlikova (Dağıstanın Əməkdar artisti), Mirzəağa Cum-cum, Osman Mehrabov və Orxan Əliyev oynayırlar. Məişət-əxlaq mövzusunda komik və cəlbedici tərzdə təqdim olunan hadisələr dünyada insanın ən gözəl keyfiyyətinin məhz düzgünlük olduğunu göstərir. Bir daha əminlik yaranır ki, yalan, firıldaq ayaq tutsa da, çox yeriməz.

Tamaşanı auditoriya ayaq



üstə alqışlayıb. Sonra Dərbənd Azərbaycan Dövlət Dram Teatrının 120 illik yubileyi münasibətilə bir qrup incəsənət xadimlərinə plaket və qiymətli hədiyyələr təqdim edilib.

Teatrın baş rejissoru Sərvər Əliyev "XQ"yə eksklüziv müsahibəsində diqqətə çatdırdı ki, 7 ildən çox idi ki, Dərbənd teatrı Bakıda tamaşa oynamırdı. Bu gün, necə deyərlər, tilsim sındırılıb. "Mənim Dərbənd Azərbaycan Dövlət Dram Teatrı ilə əlaqələrim 2017-ci ildən – hələ İrəvan Dövlət Azərbaycan Dram Teatrında baş rejissor işlədiyim zamanlardan var idi. Bu mənim 12-ci tamaşamdır. Hazırda 1 tamaşa ilə gəlmişik, növbəti illərdən 2-3 tamaşa ilə gəlməyi planlaşdırırıq. "Oğru" dekabrın 5-də Mingəçevir Dövlət Dram Teatrında, 6-da Şəki Dövlət Dram Teatrında, 9–11-də isə Lənkəran Dövlət Dram Teatrında oynanılacaq. Truppanın qastrol səfəri dekabrın 14-nə kimi davam edəcək. İnanıram ki, tamaşaçıların rəğbətini qazana biləcəyik".

**R.ABİŞOV**
**XQ**

# Azərbaycan futbolunun yönü hayanadır?

**2024-cü il AFFA-da rəhbərliyin dəyişməsi, Azərbaycan millisinin baş məşqçisi vəzifəsinin bəh-bəhlə portuqaliyalı Fernandu Santuşa tapşırılması, futbolumuzun da sürətli enişlə ən dibdə özünə yer etməsi ilə "əlamətdar" olur. Ölkəmizi beynəlxalq arenada təmsil edən komandanın üç ay ərzində UEFA Millətlər Liqasında "futbol cırtdanları"nın yer aldığı D liqasına düşməsinə başqa ad vermək mümkün deyil. İndi futbolçularımız Andorra və Lixtenşteyn kimi komandalarla yarışmalı olacaqlar. Halbuki Fernandu Santuş özünün təqdimat mərasimində "Böyük turnirlərin final mərhələlərinə qatılmaq üçün çalışacağıq. Məqsədimiz 2028-ci ildəki Avropa çempionatına vəsiqə qazanmaqdır" kimi fikirlərdən dəm vurmuşdu.**







## Futbolun tarix kitabları

Azərbaycan millisinin D liqasına düşməsi nədənsə mənə "Neftçi"nin 1960-cı ilin SSRİ çempionatında 19-22-ci yerlər uğrunda mübarizə aparmasını xatırlatdı. O dövrü canlı görməsəm də, futbolun "tarix kitabları"ndan bilirəm. Doqquz il aşağı liqada çıxışdan sonra güclülər dəstəsinə buraxılan "Neftçi" hər növbəti mövsüm nəticələrini yaxşılaşdırmış, ilk onluğa daxil olmuş, nəhayət, 1966-cı ildə ən yüksək nailiyyətinə imza ataraq 3-cü yeri tutmuşdu. Həmin mövsüm SSRİ çempionatında səkkiz respublikanın təmsilçiləri çıxış edirdi və o səbəbdən bu yarışı "kiçik Avropa çempionatı" da adlandırmaq olardı. O illərdə Anatoli Banişevski kimi dünya səviyyəli futbolçumuz yetişdi.

1964-cü ildə Azərbaycanın 8 futbolçusu SSRİ-nin müxtəlif yığmalarına cəlb olunmuş, 1987-ci ildə bu göstərici hətta 11 nəfərə çatmışdı. Amma indi millinin şərəfini qorumağa 11 yaxşı futbolçu tapılmır. İsveçə 0:6 hesablı biabırçı məğlubiyyətdə də heyətdəkilərdən dördü "gəlmə" idi.

SSRİ yığması dünyanın ən güclü komandalarından biri, 1960, 1967, 1971 və 1985-ci illərdə "France Football" jurnalının reytinqinə (o vaxt FIFA reytinqi yox idi) əsasən, Avropanın ən yaxşısı idi. Belə komandaya düşmək indi aparıcı klublarda legioner həyatı yaşamağa bərabərdir - buna layiq futbolçumuz varmı?

Elə SSRİ çempionatı da Avropanın ən yaxşılarından idi: 1987 və 1988-ci illərdə UEFA reytinqində hətta 2-ci olmuş, yalnız Dieqo Maradonalı A seriyasından geri qalmışdı. Əgər o vaxtın "Neftçi"si üçün belə çempionatdan avrokuboklara düşmək çətin idisə, indiki "Neftçi" son mövsümdə UEFA reytinqində 28-ci olan liqadan qitə yarışlarına vəsiqə qazana bilmir.

## Qalib mentaliteti - bizdə də mümkündürmü?

SSRİ yığması 1957-ci ildə Finlandiyaya 10:0 hesabı ilə qalib gələrək ən böyük qələbəsini qazanmışdı. İndi Finlandiya Avro-2020-də oynayır, iki dəfə də dünya çempionatına çıxmağa yaxın olub. Vaxtilə ən zəif komandalardan olan Albaniya iki dəfə Avropa çempionatında (2016, 2024) çıxış edir. Əhalisi 400 min nəfərdən də az olan İslandiya isə həm Avropa (2016), həm də dünya çempionatına (2018) vəsiqə qazanıb.

Komandaları 1962-ci ildən sonra SSRİ çempionatının güclülər dəstəsində oynamayan Latviya da 2004-cü ildə Avropa çempionatına çıxa bilib.

Avropanın cənub-şərqində yerləşən Albaniya 28,7 min kvadratkilometr əraziyə və 2,4 milyon nəfər əhaliyə malik kiçik bir ölkədir. Milli komandası on il əvvələ kimi dünya və Avropa çempionatlarının seçmə yarışlarında, bir qayda olaraq, qrupda sonuncu və ya sonuncudan əvvəlki yeri tuturdu.

**Albaniya Futbol Federasiyasının vitse-prezidenti Arben Dervişay** ilə danışıram. Vəzifəsindən irəli gələn rəsmiyyət




qaçılmaz olsa da, milli komandalarının uğurlarını altı məqamla izah edir: "Birinci - infrastruktura investisiyalar: FSHF daha yaxşı məşq şəraiti üçün müasir meydançalar və stadionlar tikir və təmir etdirir.

İkinci - peşəkarlığın artırılması: albaniyalı futbolçular Avropanın tanınmış klublarında oynayır və böyük təcrübə və hazırlıq keçirlər.

Üçüncü - keyfiyyətli texniki liderlik: Avro-2016 üçün Canni De Byazi və Avro-2024 üçün Silvinyo kimi təcrübəli məşqçilərin seçilməsi rəqabət qabiliyyətli komandanın və effektiv strategiyaların qurulmasına kömək edib.

Dördüncü - istedad və diaspor: diaspordakı alban əsilli oyunçuların komandaya cəlb edilməsi heyətə keyfiyyət və möhkəmlik qatır.

Beşinci - institusional dəstək: FSHF rəhbərliyi - Armand Duka və əməkdaşlarının səyləri futbolun inkişafı üçün uzunmüddətli planların hazırlanmasında mühüm rol oynayır.

Nəhayət, qalib mentaliteti: güclü təfəkkürün və uğur düşüncəsinin inkişafı çətinliklərin və çətin qarşılaşmaların öhdəsindən gəlməkdə mühüm məsələdir".

Canni De Byazinin adını çəkir. İtaliyalı məşqçi Azərbaycan millisinə də gəlmişdi, Albaniyada qazandığından da çox pula. Qarşısına böyük hədəflər qoyulmamışdı – təbii ki, bu şərtlərlə nəticələr olmayacaqdı və olmadı da.

Berti Foqts Almaniya ilə Avropa çempionu olmuşdu, Azərbaycanda altı ildən çox boşuna vaxt keçirdi.

İndi də Fernandu Santuş Portuqaliya




ilə qitə çempionu kimi qazandığı nüfuzu ölkəmizdə xərcləməklə məşğuldur. Deməli, adlar önəmli deyil, sistem, düşüncə, futbola baxış dəyişməlidir.

## Veteranların baxışı



Bəs başqa nə dəyişməlidir?

Yaşar Vahabzadə ötən əsrin 80-90-cı illərində "Neftçi"də müdafiəçi və yarımmüdafiəçi mövqelərində çıxış edib, SSRİ-nin yüksək liqasında 100-dən çox oyun keçirib, "ağ-qaralar"ın avrokuboklarda ilk qələbə qolunun müəllifi olub (Sofiya "Lokomotiv"inə 2:1). Müstəqillik dövründə yeddi dəfə Azərbaycan millisinin formasını geyinib, hətta karyerasını 40 yaşına kimi davam etdirib. Sonra məşqçi kimi U17, U-19 və U-21 milli komandalarını, "Kəpəz"i çalışdırıb.

Sualımıza da özü cavab versin: "Vaxtilə bizdə idman internatları vardı, nəinki futbolçular, bir çox idmançımız oradan çıxıb. İndiki bəzi futbol akademiyalarının elə adı akademiyadır. Orada yeniyetmə futbolçulara həkim nəzarəti necədir? Həkim onlara ancaq məşqdə, oyunda zədə alanda baxır. Amma belə olmalı deyil. Ümumi həkim nəzarəti olmalıdır, futbolçuların orqanizmini diqqətdə saxlamaq lazımdır. Vitaminləşmə o səviyyədə deyil. Ona görə bizim futbolçular fiziki və atletik cəhətdən rəqiblərindən geri qalırlar.

Hazırda uşaq futbolunda meydançaların azlığı böyük problemdir. Bir qrup məşq edir, o biri qrup gözləyir ki, bir saat, saat yarıma məşq bitsin, çıxsınlar, digərləri başlasın. Fərdi məşqlər olmasa, inkişaf olmayacaq. Həftədə 3-4 dəfə saat yarım çalışmaqla futbolçu peşəkarlığını artıra bilməyəcək.

Futbolçuların istedadı var, amma onları inkişaf etdirmək üçün şərait lazımdır. Düzdür, biz də asfaltın üstündə futbol oynayırdıq. Amma indi müasir dövrdür, müasir tələblər var. Meydançalar nə qədər çox olsa, məşqlərə çox vaxt ayırarlar, futbolçularla fərdi qaydada da məşğul olarlar.

Çatışmazlıqlar çoxdur. 1-ci liqanın "Karvan" - "Qəbələ" qarşılaşmasına baxdım, o meydançada necə futbol oynamaq olar? Orada aşağı yaş yığmalarında oynayan futbolçular vardı, o şəraitdə necə inkişaf edə bilərlər? Ustalıqlarını, texniki keyfiyyətlərini necə artıra bilərlər?

Uşaq məşqçiləri də sırf məşq keçməklə kifayətlənməli deyillər, həm də uşaqlara futbol oynamağı öyrətməlidirlər. Belə halları çox müşahidə etmişəm. Sonra da böyüyəndə o futbolçularda texniki baxımdan böyük problemlər olur.

Keçmişdə uşaq futbolunda əsasən təcrübəli məşqçilər çalışırdılar. Mənim məşqçim də yaşlı, təcrübəli idi. Amma indi tendensiya yaranıb, cavan-cavan uşaqlar məşqçilik edirlər. Özləri bəlkə də yüksək səviyyədə futbol oynamayıblar. Əgər futbol oynayıb, karyerasını bitirəndə də məşqçiliyə başlayırsa, onu başa düşürəm, futbol görüb, bilir. Müsbət nümunələr də var, məsələn, "Qarabağ" klubunda. Uşaq komandalarını böyük təcrübəsi olan məşqçilərə tapşırmaq, gənc məşqçiləri də onlara köməkçi qoymaq lazımdır.

Vaxtilə fərdi məşqlər, əsasən, məhəllədə olurdu. Hansısa futbol komandasının aşağı yaş qrupunda çıxış edirdik - mən "FŞM"də idim, amma, eyni zamanda, məhəllədə də özümüz üçün oynayırdıq. İndi gedin baxın, məhəllələrdə futbol oynayan var?

Yasamalda yaşayırdım, öz komandamız vardı, digər məhəllələrlə yarışırdıq. Harada imkan oldu - asfaltın, torpağın üstündə oynayırdıq, futbolçu hərəkətlərindəki koordinasiya da oradan yaranırdı. Məşqçilər də məhəllə-məhəllə gəzib, uşaq seçirdilər.

İndiki futbolçuların tez düşünmək qabiliyyəti əvvəlki kimi deyil. Oyunu oxumaq qabiliyyəti, futbol bilikləri o səviyyədə deyil. İndi televiziyada, internetdə daha çox futbol var, uşaq onun mövqeyində oynayan futbolçuların hansısa hərəkətlərini, hansı vəziyyətdə nə etmək lazım olduğunu öyrənə bilər. Bizim dövrdə televiziyada futbol oyunları az göstərilirdi.

Demirəm indiki futbolçular savadsızdırlar. Amma biz futbolumuzu da oynayırdıq, dərsimizi də oxuyurduq. Məcbur idik. Elə məşqçilər var idi ki, məktəb gündəliyini tələb edirdilər, qiymətlərin kafi olanda məşqə buraxmırdılar.

O vaxt valideynlər uşaqları dərs oxumağa məcbur edirdilər. Biz futbola meyilli olsaq da, böyüklərimiz ona qarşı idilər. Amma indi baxırsan, valideynlər uşaqlarının bütün futbol işlərinə qarışırlar. Uşaq məşq edir, oynayır, ailə üzvləri uzaq olmalıdır. Baxırıq da oyunlara, ata qışqırır: topu ora at, bura ver, aldat, özün vur və sair. Məşqçi qalır qıraqda, valideyn oyunu idarə edir. Bizim dövrdə uşağa göstərişi ancaq məşqçilər verə bilərdi".

**Asif Əliyev** də futbolda dünyagörmüş adamdır. Gəncə futbolunun yetirməsi-




dir, yarımmüdafiə və hücumda oynayıb, "Neftçi" və "Kəpəz"in heyətində SSRİ-nin yüksək və aşağı liqalarında ümumilikdə 100-dən çox qol vurub. Dəfələrlə Moskva "Spartak"ı, Kiyev və Tbilisi "Dinamo"-larını məyus edib. Müstəqillik dövründə "Neftçi"nin məşqçisi də olub. Azərbaycan futbolunda olan və olmayanları da yaxşı bilir: "İlk növbədə bölgələrdə futbolu qaldırmaq, meydançalar tikmək lazımdır - bütün şəhər və rayonlarda. Stadionlar olmasa, futbol da olmayacaq. Futbol akademiyalarının sayı çox olmalıdır. Baxın, indi milli komandalarımız, uşaq futbolu nə vəziyyətdədir.

Futbolda gərək futbol adamları işləsin, can qoysunlar. Səhərdən axşama kimi meydançalardan çıxmasınlar. Azərbaycanda futbol olub, vaxtilə uşaq futbolumuz da güclü idi. Bölgələrdə də futbol olub, mütəmadi yarışlar keçirilib.

Keçmiş futbolçularla indikilər arasında böyük fərq var. O vaxt bizim fiziki hazırlığımız güclü idi, saatlarla məşq edirdik. İndi bir saat, bir saat iyirmi dəqiqə məşq olur, sonra tez dağılışırlar. Biz meydançalardan çıxmırdıq, canımızı qoyurduq.

İndi tərifəlayiq təkcə "Qarabağ"dır, onların fiziki hazırlığı yaxşıdır - ikinci hissədə sürəti artıra bilirlər. "Səbail"lə oyunlarında AFFA nümayəndəsi idim. "Səbail" birinci hissədə oynadı, ikinci hissədə isə artıq futbolçuların halı yox idi, qaça bilmirdilər, gücləri qalmamışdı".

## Topu ver futbolçuya...

Futbolda nümunə olacaq elə qonşularımız var ki, Avro-2024-də hətta 1/8 finala çıxa bilirlər. Futbol federasiyalarının prezidenti Levan Kobiaşvili, vitse-prezidenti Aleksandr İaşvili və baş katibi David Muciri keçmiş futbolçulardır. Vaxtilə Nazim Süleymanovla birlikdə Vladiqafqaz "Alaniya"sında Rusiya çempionu olmuş Mixail Kavelaşvili hətta Gürcüstan prezidenti olmağa namizəddir. Bizim "Sulya" isə hələ də işlə bağlı təkliflər gözləyir...

Bəli, Azərbaycanda futbolun əsas problemlərindən biri də, bəlkə də birincisi ayağı topa dəymiş şəxslərin futbol idarəçiliyində səlahiyyətə sahib olmamalarıdır. Keçmiş futbolçulara nə AFFA, nə də futbol klublarında formal yox, real səlahiyyətlərə malik yüksək vəzifə həvalə olunmayıb. Nəinki futbol qurumlarının, deyəsən, milli komandanın da qapıları onların üzünə bağlanıb.

1966-cı il bürünc "Neftçi"nin memarı azərbaycanlı Əhməd Ələsgərov olub. O, məşqçi bacarığını respublikamızdan kənarda da sübut edib, 1974-cü ildə Odessa "Çernomorets"inə tarixində ilk və sonuncu dəfə SSRİ çempionatının bürünc medallarını qazandırıb. Dörd respublikanın əməkdar məşqçisi adına layiq görülüb.

## "Qarabağ" ümid qığılcımıdır

İndi də on ildən çoxdur Qurban Qurbanov "Qarabağ"la beynəlxalq arenada xəyal edəcəyimiz nailiyyətlərə imza atır, Avropa Liqasında 1/8 finala çıxmaqla tarix yazır. Amma ən yaxşı halda AFFA İcraiyyə Komitəsinin üzvü ola bilir ki, o da indiki reallıqda formal vəzifədən başqa bir şey deyil.





İndi "Qarabağ" zülmətə bürünmüş Azərbaycan futbolunda ümid qığılcımıdır. Bu komanda göstərdi ki, bir azərbaycanlının rəhbərlik etdiyi 11 nəfərlə 90+ dəqiqə ərzində uzunluğu 105 metr, eni 68 metr olan bir meydanda uzunluğu 7,32 metr, hündürlüyü 2,44 metr olan qapıdan 450 qrama yaxın çəkiyə malik topu rəqibdən daha çox keçirməklə beynəlxalq oyunlarda qələbə sevinci yaşamaq mümkündür.

Düzdür, "Qarabağ"da heyətin əsasını legionerlər təşkil edir: "Lion"la oyunda (1:4) çıxış edənlərdən cəmi üçü bizim futbolçu olub ki, onlardan da ikisi bir-birini əvəz edib. Amma o ümidi qığılcımlandıran məşqçilərinin məhz azərbaycanlı olmasıdır.

***Rasim MÖVSÜMZADƏ,***
***idman şərhçisi***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 268 (30672) 5 dekabr 2024-cü il, cümə axşamı

# “Şuşa Yaradıcılıq Emalatxanası”nda təlim



**İslam ölkələrinin "Gənclər paytaxtı" elan edilən Şuşa şəhərində "Şuşa Yaradıcılıq Emalatxanası" layihəsi çərçivəsində iştirakçılara təlim keçirilib.**

Təlimin keçirilməsində məqsəd Azərbaycanın milli geyim əlavəsi çarığın tikilmə qaydasını iştirakçılara öyrətməkdir. İbrahim Eyyublu müxtəlif ölkələri təmsil edən 14 iştirakçıya çarığın hazırlanmasına dair təlim keçib.

Təlimdə Qarabağ Universiteti və Bakı Musiqi Akademiyasının tələbələri, eləcə də Özbəkistan, İran, Türkiyə, Əfqanıstan və Mərakeşdən olan könüllülər iştirak ediblər. Dekorativ əl işləri hazır olduqdan sonra iştirakçılara hədiyyə olaraq verilib.

Qeyd edək ki, "Gənclər paytaxtı"nın bağlanış mərasimləri dekabrın 4-də başa çatıb.

*XQ*

# Səyyar “ASAN xidmət” Tərtərdə



**“ASAN xidmət”in müasir texnoloji avadanlıqla təchiz edilmiş xüsusi avtobusu artıq 3-cü gündür ki, Tərtər şəhərində vətəndaşlara xidmət göstərir. Məqsəd dövlət xidmətlərinin əhaliyə daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin ediməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır.**

Qeyd edək ki, səyyar şəkildə göstərilən xidmətlər Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təqdim olunur.

Səyyar avtobus dekabrın 20-dək vətəndaşlara tibb, bank (dövlət rüsumlarının və xidmət haqlarının qəbulu) xidmətləri, mənzillər üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların verilməsi, əmək pensiyalarının təyin edilməsi və digər xidmətlər göstərəcək.

*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Yeni tamaşalar

# İrəvan Teatrında zəfər “Səs”i



**İrəvan Dövlət Azərbaycan Dram Teatrı bu dəfə tamaşaçıların görüşünə şairə Adilə Nəzərin şəhid Vüsal Vəliyevin həyat və döyüş yolu haqqında yazdığı “Axirətdən gələn səs” qəhrəmanlıq dramı əsasında hazırlanmış “Səs” tamaşası ilə gəldi. 44 günlük Vətən müharibəsinin qəhrəmanlarına həsr edilmiş tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İftixar Piriyevdir. Qeyri-səlis təbəddülat janrında hazırlanan tamaşanın premyerası Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında keçirildi.**

Artıq Vətən müharibəsi ədəbiyyatımızda, musiqimizdə, kino və teatr sahəsində dolğun əsərlərlə öz təcəssümünü tapmaqdadır. Roman və poemalar yazıldı, musiqi əsərləri yarandı, bir neçə film çəkildi. Bu dəfə isə özünəməxsus poetik yaradıcılığı ilə oxucuların sevgisini qazanmış Adilə Nəzər dram janrına müraciət edərək Vətən müharibəsinin qürur doğuran epizodlarını vahid strukturda birləşdirərək gözəl bir əsər ərsəyə gətirib. Tamaşanın estetik səhnə həlli məmnunluq doğururdu. Baş qəhrəman hərbçi Vüsal obrazını canlandıran aktyor Samir Əliyev öz rolunu məharətlə canlandırır. Ürəyi vətən eşqilə döyünən bir gəncin hiss və həyəcanları tamaşaçının da qəlbini titrədir. Vüsalın nişanlısı İncini və Xarı bülbülü ifa edən Pərvin Dadaşovanın səhnə plastikası məmnunluq doğururdu. Zərif plastikanı ifadə vasitələri ilə zənginləşdirən aktrisa xüsusilə yadda qalır. Pərvin obrazın daxili enerjisini zala ötürməyi bacarırdı. Zənnimcə, bu, Azərbaycan səhnəsində ilk Xarı bülbül, Sarı gəlin obrazlarıdır və xüsusi qeyd olunmağa layiqdir.



Düşmən əsirlərini oynayan aktyorlar da səhnədə son dərəcə çevik idilər və gərgin səhnələrin öhdəsindən bacarıqla gəldilər. İftixar Piriyevin quruluşunda sürət-ritmi tənzimlənir, hadisələrin daxili gərginliyi mürəkkəbləşir, əsərin monumentallıq çalarları dolğunlaşır. Rejissor tamaşanın monumentallığını dərinləşdirmək üçün kütləvi səhnələri xüsusi zövqlə işləmiş, həmin epizodlarda dinamik ritm yarada bilmişdir. Ümumiyyətlə, hadisələr sərt dinamikada, sürətli ritmdə təqdim olunur. Müharibə mövzusu bunu tələb edir. Səhnə tərtibatı, dekorasiya döyüş atmosferinin yaranmasına xidmət edirdi. Tamaşadakı itlər son dərəcə uğurlu tapıntıdır və bu mənada da rejissorun əməyini xüsusi qiymətləndirmək gərəkdir.

Natiq Həziyev tamaşada bir neçə obrazı – Polad Həşimovu, Mübariz İbrahimovu, Xudayarı, Milli Qəhrəmanı canlandırır. “Xudayar təsnifi”, Xarı bülbül simvolikası tamaşanın ideya bədii həllinin açılmasına xidmət edirdi və 44 günlük müharibənin aparıcı xətti kimi daim ön planda idi. Vüsalın döyüş yolu əslində Vətən uğrunda canından keçmiş igid oğullarımızın ümumiləşmiş tale yoludur. Öz oyunları ilə tamaşanın ümumi konsepsiyasına ləyaqətlə xidmət etmələri baxımından Səmayə Nəbiyevanın (Səmayə ana), Esmiralda Şahbazovanın (Mədinə), Sevinc Bəxtiyarın (Ülkər), Bəhruz Hikmətlinin (Başçı düşmən), Ramil Məmmədovun (Komandir), Niyaməddin Səfərəliyevin (İslam), Naiba Nematovanın (Afaq), Anar Həşimovun (Elyar) ifaları ürəkaçandır.

Zala diqqət yetirdim, hıçqırıqlar eşidilirdi, kişilər də ağlayırdı...Bu tamaşada ədalətin təntənəsi, sənətin qüdrəti və səhnənin möcüzəsi vardı. Ümumən, tamaşa kollektivin potensial gücünün bədii-estetik, fəlsəfi-idraki səciyyələrini göstərir və 44 günlük Vətən müharibəsinin uğurlu səhnə təcəssümü kimi alqışa layiqdir.

***Kənan HACI,***
***yazıçı-publisist***

# Çexiyada Xarıbülbül Beynəlxalq Futbol Turniri



**Çexiyanın Praqa şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, “Land of Fire” cəmiyyəti və Çexiya Futbol Federasiyasının təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 101 illiyinə həsr olunmuş Xarıbülbül Beynəlxalq Futbol Turniri keçirilib.**

Yarışda Azərbaycan, Türkiyə, Qazaxıstan, Ukrayna, Moldova, Çexiya və digər Avropa ölkələrini təmsil edən komandalar mübarizə aparıblar. Finalda azərbaycanlılardan ibarət “Charles United” və ukraynalılardan ibarət “Dubove” yığmaları üz-üzə gəlib. Hər iki komandanın oyunçuları “Biz müharibə yox, sülh istəyirik” şüarı yazılan lövhələrlə meydançaya daxil olublar.

Həlledici qarşılaşma “Dubove”nin qələbəsi ilə başa çatıb. Qalib komandaya mükafat təqdim olunub.

# Pauerliftinqçimiz 7-ci dəfə Dünya çempionu olub




**Moskvada pauerliftinq üzrə keçirilən Dünya çempionatında Azərbaycan millisinin üzvü Zaur Cəfərov “bench press” hərəkətində 320 kiloqram nəticə ilə qalib adını qazanıb. Bu, onun 7-ci dəfə Dünya çempionluğu olub. O, həm də 3-cü dəfə “Elitar idmançı” tituluna yiyələnib.**

Qeyd edək ki, idmançı bu il iyunun 9-14-də Finlandiyanın Salo şəhərində AWPC/WPC versiyası üzrə keçirilmiş Avropa çempionatında da qızıl medal qazanmışdı. O, AWPC versiyası üzrə “bench-press” hərəkətində 263 kiloqram nəticə ilə 7-ci dəfə bu titula sahib çıxmışdı. O, yeni Avropa rekorduna imza ataraq, yarışın mütləq çempionu adına da layiq görülmüşdü.

***L.QURBANOVA***
***XQ***

Hava

# Yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 5-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq.**

Əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə az çiskinli olacağı, axşam isə arabir yağış yağacağı gözlənilir. Şimal-qərb küləyi əsəcək. Gecə 5-8°, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 771 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 8-12° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 0-5° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Laçın dağlarında bir sürü keçi...

**Əsrarəngiz təbiəti ilə seçilən Laçın həm də zəngin fauna və florası ilə hər fəsildə göz oxşayır. Bu günlərdə Laçında dağ döşündə gəzən bir sürü dağ keçisi insanlar tərəfindən lentə alınıb.**

Bu şəkil Laçının Malıbəy və Cağazur kəndlərinin ərazisindəki dağlarda çəkilib. Dağ ətəyində otlayan sürü daha sonra sıldırım qayalardakı yüksəkliklərə dırmanaraq gözdən itib.

*XQ*



***✓ “Silent Park” Mənzil-Tikinti Kooperativinə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır. VÖEN- 1505877481.***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2795
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00